RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 115 (9570) 2 iyun 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Güc, nüfuz və düşünülmüş siyasət

## İlham Əliyevin strategiyası Azərbaycanı Cənubi Qafqazın inkişaf mərkəzinə çevirib

Bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan genişmiqyaslı işlərin hər sahəsi Azərbaycan Prezidentinin birbaşa diqqətindədir. Bərpa-quruculuq tədbirlərinin icrası ilə yerində tanışlıq üçün cənab İlham Əliyev mütəmadi şəkildə Qarabağa, Şərqi Zəngəzura səfərlər edir, yeni tikililərin, infrastruktur layihələrinin təməlini qoyur. Tədbirlərin mühüm bir qismi məhz azad yurdlarımızın dirçəlişi ilə bağlıdır. Prezident İlham Əliyevin Xocalıya gedərək Soyqırımı Memorialının təməlini qoyması, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşməsi, uzun illərdən sonra ilk dəfə Xankəndi şəhərində Novruz tonqalını alovlandırması bu tarixin milli yaddaşımıza həkk olunmuş əbədi səhifələridir.

Mayın 28-də Xocalıda 44 ailənin daimi məskunlaşması təmin edildi. Ölkə rəhbəri həmişə olduğu kimi Müstəqillik Günündə yenə də sadə insanların yanında oldu. Yurda qayıdışın sevincini yaşayan Xocalı sakinləri ilə bir yerdə idi. Dövlət başçısı görüşdə xüsusi vurğuladı: " Əlbəttə ki, bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur". İndiyədək işğaldan azad olunmuş ərazilərimizə 1955 ailə (7612 nəfər) qayıtmışdır. Hazırda Zəngilan rayonunun Ağalı kəndində 175, Tərtər rayonunun Talış kəndində 20, Laçın şəhərində 513, Füzuli şəhərində 822, Laçın rayonunun Zabux kəndində 217, Sus kəndində 59, Şuşa şəhərində 105, Xocalı şəhərində 44 ailə məskunlaşmışdır. Bu say, demək olar ki, hər həftə yenilənir və qayıdış karvanlarının ünvanları da dəyişir, təzələnir. Dövlətimizin başçısının Xocalı sakinləri ilə görüşü zamanı sentyabr ayında Xankəndiyə köçün başlanacağı xüsusi vurğulanıb. Bu sürətli dönüş dövlətimizin iqtisadi qüdrətindən qaynaqlanan maliyyə imkanlarının göstəricisidir.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş bölgələrdə inşa olunan tikililərin açılış, yaxud təməlqoyma mərasimlərində respublikamızda səfərdə olan dost ölkələrin dövlət rəhbərləri ilə birgə iştirakı xüsusilə böyük rəğbət doğurur.

→ 3

# Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib




# Azərbaycan-İtaliya münasibətləri Avropa ölkələrinə nümunədir

Bu gün İtaliya həm də iqtisadi tərəqqinin, sosial rifah halının durmadan inkişaf etdiyi bir ölkədir. İtaliya iqtisadiyyatı Avropa İttifaqına üzv ölkələrin inkişaf etmiş iqtisadiyyatı deməkdır. Onun iqtisadiyyatı postsənaye iqtisadiyyatıdır və dünyada 8-ci ən böyük nominal ümumdaxili məhsula malikdir. İtaliya G8 və NATO-nun, Avropa İttifaqının üzvü, iqtisadiyyatın inkişafına görə Avropanın dördüncü yerdə olan ölkəsidir. Avropa Birliyinin təsisçi üzvlərindən biridir. İtaliya Əfqanıstan, Kosovo, Bosniya-Herseqovina və Livanda həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirakına görə ABŞ və Böyük Britaniyadan sonra üçüncü yeri tutur. Eyni zamanda onun Avstriya, İsveçrə və Sloveniya kimi dövlətlərlə qonşu olması bu dost ölkə ilə münasibətlərdən bəhrələnən Azərbaycana geniş imkanlar açır. Belə ki, İtaliyanın Avropa Parlamentində 76 deputatla təmsil olunması da mühüm əhəmiyyət kəsb edir.

→ 3

# Orta Asiya ölkələri Azərbaycanın "yaşıl gündəliyi"ni dəstəkləyirlər

Azərbaycanın, Özbəkistanın və Qazaxıstanın iqtisadiyyat və energetika nazirlərinin iştirakı ilə keçirilən həmin görüşdə qeyd edilmişdi ki, üç ölkənin bərpaolunan enerjinin inkişafı və ixracı ilə bağlı yürütdüyü siyasət Azərbaycana Mərkəzi Asiya ölkələrindən Avropaya elektrik enerjisinin təchizi üzrə körpü rolunu oynamağa imkan verir. Belə ki, Azərbaycan Gürcüstan, Rumıniya və Macarıstanla birgə 4 QVt elektrik enerjisinin ixracına xidmət edəcək Xəzər dənizi-Qara dəniz-Avropa enerji dəhlizinin yaradılması üzərində işləyir. Daha 1 QVt "yaşıl enerji"nin Naxçıvan-Türkiyə-Avropa marşrutu ilə nəqli nəzərdə tutulub.

Görüşdə bildirilmişdi ki, Qazaxıstanın və Özbəkistanın həmin dəhlizlərə çıxış əldə etməsi bu ölkələrin elektrik enerjisi bazarlarının inkişafı, "yaşıl hidrogen"in, ammonyakın istehsalı və təchizatı üzrə əməkdaşlığını möhkəmləndirəcək. Tərəflər Azərbaycanın region ölkələrinin enerji sisteminin gələcək inkişafı üzrə səylərin koordinasiyası və sinxronlaşdırılması ilə bağlı təşəbbüsünü, eləcə də təmiz elektrik enerjisinin üçüncü ölkələrin bazarlarına təchizatı istiqamətində qarşılıqlı səylərini təqdir etmişlər.

→ 8

# Turistlər Numeanı tərk edə bilmirlər

## Qabriel ATTAL: "Yeni Kaledoniyada vəziyyət gərgin olaraq qalır"

Fransa, Avstraliya və Yeni Zelandiyadan olan hərbi nəqliyyat təyyarələri son bir neçə gündə 1600-dən çox fransız və xarici turisti adadan təxliyə edib. Son məlumata görə, Fransanın Baş naziri Qabriel Attal yerli TF1 telekanalına bildirib ki, Yeni Kaledoniyada vəziyyət gərgin olaraq qalır.

Beşinci respublikanın "xüsusi inzibati-ərazi qurumu" adlandırılan, əslində isə müstəmləkəsi olan bu adalar qrupu Avstraliyanın şərqində, Sakit okeanın cənubunda yerləşir. Əhalisi 270 min nəfərdir ki, onlardan da 40 faizi yerli kanak xalqıdır.

Arxipelaq 1774-cü ildə məşhur ingilis dəniz səyyahı Ceyms Kuk tərəfindən kəşf edilib. Bundan sonra orada avropalı müstəmləkəçilər peyda olmağa başlayıblar. Fransa 1853-cü ildə bu əraziləri öz mülkü elan edib. 1998-ci ildə Paris və Numea Yeni Kaledoniyada 20 ildən sonra adaların gələcəyi ilə bağlı üç referendumun keçiriləcəyinə dair saziş imzalayıblar.

→ 6

# Ermənistanın Azərbaycandan üzr istəyəcəyi gün də gələcək

Xocalı şəhərinin cəmi 8 ayda yenidən qurularaq doğma sakinlərini qarşılamasını əlamətdar hadisə adlandıran deputat deyib ki, Prezident Xocalının azad ediləcəyini əvvəlcədən bilirdi və elə ona görə də Xocalı Soyqırımı abidəsinin Bakıda tikilməsinə icazə vermirdi. Bu gün həmin abidə Xocalıda tikilir və soyqırımı qurbanlarının xatirəsi məhz Xocalıda əbədiləşdirilir. Yeri gəlmişkən, Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə keçirilən "Xocalıya ədalət!" kampaniyası sayəsində Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində işlər bu gün də uğurla davam etdirilir. Xocalı soyqırımı ermənilərin törətdikləri hərbi cinayətlərin və vəhşiliklərin bariz göstəricisi kimi bütün dünyaya təqdim olunur. Prezident İlham Əliyev Xocalı sakinləri ilə görüşü zamanı bu məsələni xüsusilə vurğulayaraq qeyd etdi ki, Ermənistan Xocalıda törətdiyi soyqırımına görə Azərbaycan xalqından rəsmi şəkildə üzr istəməlidir. Bəli, biz Ermənistanın ölkəmizdə törətdiyi soyqırımlarına görə üzr istəyəcəyi günün də şahidi olacağıq.

→ 7



# Azərbaycan Respublikası mülki aviasiya işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. Mülki aviasiya sahəsində xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Axundov Zaur Sənan oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Məlikova Gülbəniz Yusif qızı

**"Tərəqqi" medalı ilə**

Balabəyov Ağabəy Ağagüloviç
Əhmədov Rafiq Əhməd oğlu
Əliyev Arif Abbas oğlu
Həsənov Elgün Arif oğlu
Həsənov Rafiq Ağahüseyn oğlu
Həsənov Telman Əsgər oğlu
Hüseynov Rinat Nazim oğlu
Nəsirov Zaur İbrahim oğlu
Prokofyeva Svetlana Aleksandrovna
Süleymanov Arzu Arif oğlu
Tahirova Esmira Kazım qızı.

2. Mülki aviasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar mühəndis"**

Bağıyev İmran Ağasəf oğlu
Mazanov Rauf Mahmudoviç
Mirzəyev Arif Qəribxan oğlu

**"Əməkdar pilot"**

Həsənov Fazil Alaverdi oğlu
Həsənov Səfadə Səfalı oğlu
Kovalyov Ruslan Vyaçeslavoviç.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyun 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" 2017-ci il 4 aprel tarixli 1313 nömrəli və "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 527 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 aprel tarixli 41 nömrəli Fərmanı) 1-3-cü və 8-ci hissələri ləğv edilsin.

2. "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 dekabr tarixli 434 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2591 (Cild I) 1.1.5-ci yarımbəndinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 1.2-ci bəndi ləğv edilsin.

3. Bu Fərman 2024-cü il iyunun 3-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyun 2024-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

İcazə verin, Vyetnam dövləti və xalqı adından Sizə və bütün Azərbaycan xalqına milli bayramınız - Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırım.

Dost Azərbaycanın Sizin rəhbərliyinizlə ölkə həyatının bütün sahələrində və beynəlxalq arenada əldə etdiyi uğurları diqqətlə izləyir və buna çox sevinirik.

Qürur hissi ilə qeyd edirəm ki, ölkələrimiz arasında ənənəvi dostluq və əməkdaşlıq uzun illər ərzində möhkəmlənir və inkişaf edir. Qəti əminəm ki, tarixi münasibətlərə əsaslanan Vyetnam-Azərbaycan əlaqələri ölkələrimizin və xalqlarımızın tərəqqisi, bütün dünyada sülh və inkişaf naminə gələcəkdə də genişlənəcəkdir.

Azərbaycana daha sürətli inkişaf, xalqınıza isə xoşbəxtlik arzulayıram.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, səadət və ali dövləti fəaliyyətinizdə böyük uğurlar diləyirəm.

*Hörmətlə,*

***To LAM,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Uruqvay xalqı və hökuməti adından və şəxsən öz adımdan Azərbaycanın Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi, əziz xalqınıza sülh və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

Ölkələrimiz arasında çox yaxşı ikitərəfli münasibətlər yaranıb və tam əminəm ki, bu münasibətlər mədəni, siyasi əməkdaşlıq zəminində möhkəmlənəcəkdir.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə bir daha ən yüksək ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

***Luis Lakalye POU,***
***Uruqvay Şərq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Myanma İttifaqı Respublikası xalqı adından və şəxsən öz adımdan ölkənizin Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri gələcək illərdə daha da möhkəmlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə cansağlığı, rifah, Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Min Aung HLAİNG,***
***Myanma İttifaqı Respublikasının Dövlət İdarə Şurasının Sədri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 292** QƏRAR **Bakı şəhəri, 31may 2024-cü il**

## "Gədəbəy, Qoşa, Xarxar, Qaradağ, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Qızılbulaq, Dəmirli və Vejnəli qızıl, mis və polimetal perspektiv filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə R.V. InvestmentGroupServices, LLC ABŞ arasında bağlanılmış Sazişdə Dəyişiklik" sənədindən irəli gələn məsələ barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Gədəbəy, Qoşa, Xarxar, Qaradağ, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Qızılbulaq, Dəmirli və Vejnəli qızıl, mis və polimetal perspektiv filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə R.V. InvestmentGroupServices, LLC ABŞ arasında bağlanılmış Sazişdə Dəyişiklik" sənədini imzalamaq səlahiyyətinin verilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 may tarixli 140 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 675 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri"nin preambulası istisna olmaqla "ETSN" akronimi "AzerGold" QSC" sözləri ilə, "MENR" akronimi "AzerGold" CJSC" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Moldovalı deputat: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qüdrətli dövlətə çevrilib"

**"Moldova ilə Azərbaycan arasında münasibətlər sürətlə inkişaf edir. Biz beynəlxalq təşkilatlar çərçivəsində, iqtisadi platformalarda sosial məsələlər üzrə əməkdaşlıq edirik, həmçinin mədəniyyət sahəsində gənc nümayəndələr, təhsil müəssisələri, ali məktəblərin professorları arasında əlaqələr daha da güclənir".**



Bu fikirləri AZƏRTAC-a Moldova-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Vitali Jakot bildirib.

Deputat vurğulayıb ki, Azərbaycan Ukraynadakı müharibə ilə əlaqədar yaranmış energetika problemi və iqtisadi böhran zamanı Moldovaya çox kömək edib. O əlavə edib: "Moldova xalqı bu yardımı çox yüksək qiymətləndirir və Azərbaycana dərindən minnətdardır".

Azərbaycan iqtisadiyyatının inkişaf tempindən danışan moldovalı deputat qeyd edib: "Sizin iqtisadiyyat, sosial sahə və infrastruktur baxımından çox qüdrətli dövlətiniz var".

Vitali Jakot daha sonra vurğulayıb: "Təbiidir ki, Prezident İlham Əliyevin şəxsində Azərbaycan rəhbərliyinin uzatdığı dostluq əli, həmçinin hakimiyyətin bütün səviyyələrində və bilavasitə Azərbaycan xalqı tərəfindən göstərilən dost münasibəti bizim üçün böyük əhəmiyyətə malikdir. Bunu qarşılıqlı fəaliyyətimizin hər bir addımında, bütün səviyyələrdə hiss edirik və əlbəttə, biz də Azərbaycan xalqına onun bütün səylərində kömək etməyə çalışırıq".

# Hərbi attaşelərin "N" hərbi hissəsinə tanışlıq səfəri





**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, Azərbaycanda akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin "N" hərbi hissəsinə tanışlıq səfəri təşkil olunub.**




Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan büstü önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsinə hörmət və ehtiram nümayiş etdirilib.

Sonra 22 dövləti təmsil edən hərbi attaşelik aparatlarının 26 nümayəndəsinə hərbi hissənin yaranması və döyüş yolu haqqında brifinq verilib.

Qonaqlar şəxsi heyətə verilən yeni növ hərbi geyim forması, gündəlik qida təminatı, məişət şəraiti və hərbi hissənin silahlanmasında olan bəzi döyüş texnikası ilə tanış olublar.

Səfər çərçivəsində qonaqlar Nizami Gəncəvi məqbərəsi və muzeyi, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası, Şah Abbas məscidi, Göygöl Milli parkını, həmçinin 2020-ci ilin oktyabrında erməni silahlı qüvvələrinin Gəncə şəhərinə müxtəlif raketlərlə hücumu zamanı dağıdılmış yaşayış yerlərini ziyarət ediblər.

Hərbi attaşelər səfərin yüksək səviyyədə təşkilinə, göstərilən diqqət və qonaqpərvərliyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Peru Konqresində Azərbaycanın Müstəqillik Günü münasibətilə təbrik müraciətləri qəbul edilib

**Peru Konqresində 28 May - Azərbaycanın Müstəqillik Günü münasibətilə konqresin üzvü Maria del Karmen Alva Prieto və Peru-Azərbaycan parlamentlərarası dostluq qrupunun adından təbrik müraciətləri qəbul edilib.**



Bu barədə AZƏRTAC-a Azərbaycanın Meksikadakı səfirliyindən məlumat verilib.

Bildirilib ki, sənədlərdə 1918-ci il mayın 28-də Azərbaycan xalqının ilk dəfə öz müstəqilliyini elan edərək Azərbaycan Xalq Cümhuriyyətini qurduğu, müsəlman Şərqində ilk demokratik, dünyəvi və parlament respublikası olduğu və digər demokratik dünya dövlətləri tərəfindən tanındığı vurğulanıb. Ölkəmizin müstəqilliyinin milli kimliyin önəmli hissəsi kimi əlamətdar tarixi bir hadisə olduğu, ölkə rəhbərliyi və xalq üçün xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Bununla yanaşı, demokratik, bərabər prinsip və dəyərlər üzərində qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlarının heç bir ayrı-seçkilik olmadan eyni hüquqlarla təmin edildiyi və əhalisinin müsəlmanlar çoxluq təşkil edən ölkələr arasında qadınlara bərabər seçki hüququ verən ilk ölkə olduğu bildirilib.

Bu gün Azərbaycanın beynəlxalq aləmdə din və mədəniyyətlərin harmoniya, sülh şəraitində birgə yaşaması üçün uğurlu model hesab edildiyi diqqətə çatdırılıb.

Həmçinin təbrik müraciətlərində 1996-cı il iyunun 25-də Peru ilə Cənubi Qafqazın maliyyə və turizm mərkəzinə çevrilmiş, regionun yüksək sosial-iqtisadi inkişafına malik lider dövləti olan qardaş Azərbaycanla diplomatik əlaqələrinin qurulduğu, iki ölkə arasında təhsil, sərmayə və ticarət sahələrində əməkdaşlıq əlaqələrinin gücləndirilməsində qarşılıqlı maraq olduğu bildirilib.

Sonda ölkəmizin müstəqilliyinin 106-cı ildönümü münasibətilə ölkəmizin ali rəhbərliyinə və Azərbaycan xalqına təbrik müraciətinin çatdırılması xahiş edilib.

# Azərbaycan ilə Qırğızıstan arasında hərbi tibb sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

**Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında imzalanan ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Müdafiə Nazirliyinin Tibb İdarəsində görüş keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi vəzifəsini icra edən tibb xidməti polkovnik-leytenantı Anar İsmayılov və Qırğızıstan Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi tibb xidməti polkovniki Amanbai Matisakov hərbi tibb sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Sonra qırğızıstanlı nümayəndə Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı, Mərkəzi Hərbi Poliklinika, Mərkəzi Stomatoloji Poliklinika, Sanitar-Epidemioloji Nəzarət Mərkəzi, Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzini ziyarət edib, burada yaradılan şəraitlə hərbi tibb sahəsində xidmət edən həkimlərin fəaliyyətlərini izləyib.

# Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər olub

**Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nazirliyin təşkilatçılığı ilə keçirilən silsilə tədbirlər zamanı məktəblilər müxtəlif hərbi aviasiya vasitələri ilə tanış olub, habelə bir qrup şəhid övladının sağlamlığının qorunması məqsədilə onların müayinə və müalicəsi, eləcə də dispanserizasiyası təşkil edilib.

Tədbirlərdə həmçinin uşaqlar üçün əyləncəli proqram nümayiş etdirilib və bayram süfrələri açılıb.

# "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Müdafiə Nazirliyinin növbəti tədbiri keçirilib

**President İlham Əliyevin Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncamının icrası ilə əlaqədar müdafiə nazirinin tapşırığına əsasən Milli Müdafiə Universitetində tədbir keçirilib.**

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Bildirilib ki, Müdafiə Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin rəhbərliyi, zabit, müəllim heyəti və kursantları, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra "Yaşıl dünya naminə həmrəylik ili" mövzusunda çıxışlar dinlənilib, mövzuya uyğun videoçarx təqdim olunub.

Sonda hərbi kollecin ərazisində ağacəkmə aksiyası keçirilib.

Hərbi qulluqçuların, professor-müəllim heyətinin, kursant və şagirdlərin iştirakı ilə təbiətin qorunmasına töhfə vermək, ətraf mühiti sağlamlaşdırmaq, yaşıllıqları artırmaq, ekoloji tarazlığın bərpasına yardım etmək, atmosferi oksigenlə zənginləşdirmək məqsədilə müxtəlif növ ağaclar əkilib, abadlıq işləri görülüb.



# Güc, nüfuz və düşünülmüş siyasət

## İlham Əliyevin strategiyası Azərbaycanı Cənubi Qafqazın inkişaf mərkəzinə çevirib

**Yaşadığımız dövr, zəmanə reallıqlar dünyasıdır. Beynəlxalq ictimaiyyət hansısa məsələ barədə rəy formalaşdırarkən həmin reallıqlara istinad edir. Həyatımızda baş verənlər, gerçəkliklər isə göz önündədir. Prezident İlham Əliyevin ötən onilliklərdə həyata keçirdiyi siyasət Azərbaycanı Cənubi Qafqazın əsas inkişaf mərkəzinə çevirdi. Hazırda ölkəmiz regionun müasir iqtisadi-siyasi mənzərəsini müəyyənləşdirən qlobal layihələrin həm təşəbbüskarı, həm də icraçısıdır. Bu layihələr bizə sülh, davamlı inkişaf, vətəndaşlara rifah gətirir.**

Azərbaycan son üç ayda, ilk addımlarını atdığı yeni strateji dövrün başlanğıcında böyük uğurlara nail oldu, diqqət əsas hədəflərə doğru yönəldi. Reallıq bundan ibarətdir ki, müstəqil dövlətimiz bu yeni dövrə tarixin ağır mirasından xilas olmuş, bir zamanlar həlli çətin görünən problemləri uğurla yoluna qoymuş şəkildə, daha da güclənmiş halda daxil olmuşdur. Davamlı inkişaf, ardıcıl nailiyyətlər, önümüzdəki böyük hədəflərə çatmaq üçün hazırda qarşımızda keçilməsi qeyri-mümkün olan maneələr yoxdur.

### Hədəf daha güclü Azərbaycan yaratmaqdır

Yeni dövrün əsas tarixi vəzifələrindən biri şanlı Qələbəmizdən sonra Qarabağın, Şərqi Zəngəzurun tam bərpası, torpaqlarımızın minalardan təmizlənməsi, keçmiş məcburi köçkünlərin öz dədəbaba torpaqlarına qayıdışıdır. Bu məsələlər indi uğurla yerinə yetirilir. Ölkəmizin iqtisadi göstəriciləri də inkişaf tempinin öz yolunda getdiyini əks etdirir. Əldə olunan nailiyyətlər sosial-iqtisadi inkişaf proqramlarını uğurla yerinə yetirməyə imkan yaradır.

Yeni strateji dövrdə əsas məsələlərdən biri də texnoloji inkişafın təmin edilməsindən ibarətdir. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə bildirir ki, texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi - bütün bunlar bizim gündəlik həyatımızın mühüm əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar: "Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Ancaq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək. Ona görə texnoloji inkişafa nail olmasaq, burada geniş, yəni bir neçə min yox, on minlərlə azərbaycanlı bu işdə olmasa, biz geridə qala bilərik".

Bu günlərin ən mühüm tarixi faktlarından biri də Azərbaycan dövlətinin vaxtilə Qazaxın ermənilər tərəfindən işğal edilmiş kəndlərini bir güllə belə atılmadan azad etməsi, heç bir xarici vasitəçinin iştirakına gərək qalmadan Azərbaycan və Ermənistan arasında sərhədlərin demarkasiya və delimitasiyası prosesinin başlanması oldu. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin regionda sülh və əməkdaşlıq səylərinin, xarici qüvvələrin bölgədə vəziyyəti gərgin durumda saxlamaq üçün ardıcıl cəhdlərinə qarşı ortaya qoyduğu əzm və iradənin nəticəsidir. Əgər Ermənistan rəhbərliyi reallıqları adekvat dəyərləndirib buna uyğun davranacaqsa, Azərbaycanın bölgəmizdə daimi təhlükəsizliyə, dayanıqlı inkişafa, rifah və xoşbəxtliyə nail olmaqdan ötrü ortaya qoyduğu əzm və iradə hər kəs üçün fayda verəcək. Ermənistanla sərhəd məsələsi ilə müsbətə doğru baş verən dəyişikliklər bir daha göstərdi ki, əgər rəsmi İrəvan uzun illər ərzində Azərbaycan dövlətinin sülh çağırışlarına konstruktiv münasibət göstərib işğalçı mövqeyindən əl çəksəydi, münaqişəni insan itkilərinə yol vermədən həll etmək mümkün idi.

### Zəfərdən dirçəlişə

Vətən müharibəsindəki zəfərimizdən sonra Azərbaycan möhtəşəm günlərini yaşayır. Zəfər tarixi dirçəliş tarixi ilə davam edir. Azad yurdlarımızda genişmiqyaslı bərpa-quruculuq tədbirləri həyata keçirilir. Ordumuzun işğaldan azad etdiyi yerlərdə iqtisadiyyatımız irəliləyir və bu torpaqları yenidən inkişafa qovuşdurur. Məcburi köçkünlərimiz uzun illərin həsrətindən sonra yenidən əzəli yurdlarımıza dönür, dövlətimizin inşa etdiyi yaşayış komplekslərində yeni həyatına başlayır. Qarabağda, Şərqi Zəngəzurda ən müasir səviyyədə yaşayış binalarının, sosial obyektlərin tikintisi, müasir infrastruktur quruculuğu davam etdirilir. Ermənilərin işğal dövründə vandalcasına dağıtdıqları tarixi abidələrimiz bərpa olunub həyata qaytarılır. Artıq Ağdamdakı Cümə məscidinin, Şuşadakı Mamayı məscidinin, Şirin su hamamının, Zəngilan məscidinin bərpa-quruculuq işlərindən sonra açılışı olub. Tarixi abidələrin bərpası prosesində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da çox böyük əməyi var. Bu abidələrin bərpasını Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu həyata keçirir.

Bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan genişmiqyaslı işlərin hər sahəsi Azərbaycan Prezidentinin birbaşa diqqətindədir. Bərpa-quruculuq tədbirlərinin icrası ilə yerində tanışlıq üçün cənab İlham Əliyev mütəmadi şəkildə Qarabağa, Şərqi Zəngəzura səfərlər edir, yeni tikililərin, infrastruktur layihələrinin təməlini qoyur. Tədbirlərin mühüm bir qismi məhz azad yurdlarımızın dirçəlişi ilə bağlıdır. Prezident İlham Əliyevin Xocalıya gedərək Soyqırımı Memorialının təməlini qoyması, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşməsi, uzun illərdən sonra ilk dəfə Xankəndi şəhərində Novruz tonqalını alovlandırması bu tarixin milli yaddaşımıza həkk olunmuş əbədi səhifələridir.

Mayın 28-də Xocalıda 44 ailənin daimi məskunlaşması təmin edildi. Ölkə rəhbəri həmişə olduğu kimi Müstəqillik Günündə yenə də sadə insanların yanında oldu. Yurda qayıdışın sevincini yaşayan Xocalı sakinləri ilə bir yerdə idi. Dövlət başçısı görüşdə xüsusi vurğuladı: " Əlbəttə ki, bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur". İndiyədək işğaldan azad olunmuş ərazilərimizə 1955 ailə (7612 nəfər) qayıtmışdır. Hazırda Zəngilan rayonunun Ağalı kəndində 175, Tərtər rayonunun Talış kəndində 20, Laçın şəhərində 513, Füzuli şəhərində 822, Laçın rayonunun Zabux kəndində 217, Sus kəndində 59, Şuşa şəhərində 105, Xocalı şəhərində 44 ailə məskunlaşmışdır. Bu say, demək olar ki, hər həftə yenilənir və qayıdış karvanlarının ünvanları da dəyişir, təzələnir. Dövlətimizin başçısının Xocalı sakinləri ilə görüşü zamanı sentyabr ayında Xankəndiyə köçün başlanacağı xüsusi vurğulanıb. Bu sürətli dönüş dövlətimizin iqtisadi qüdrətindən qaynaqlanan maliyyə imkanlarının göstəricisidir.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş bölgələrdə inşa olunan tikililərin açılış, yaxud təməlqoyma mərasimlərində respublikamızda səfərdə olan dost ölkələrin dövlət rəhbərləri ilə birgə iştirakı xüsusilə böyük rəğbət doğurur.

### Ölkəboyu inkişaf

Prezident seçkisindən sonra dövlətimizin başçısı Füzuli rayonundakı Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılış mərasimində oldu. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolundakı birinci tunel istifadəyə verildi. Bu müddətdə Şuşa şəhər sakinləri doğma yurda köçərək onlar üçün inşa olunmuş birinci yaşayış kompleksində məskunlaşmış, ardınca Şuşada üçüncü yaşayış kompleksinin, Şuşa rayonunun Turşsu qəsəbəsinin, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı, Maşanlı kəndlərinin, Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməli qoyuldu.

Yaşayış məkanlarının inşasına paralel şəkildə lazımi infrastrukturun yaradılması da uğurla davam etdirilməkdədir. Azərbaycan Prezidenti son üç ayda Laçında kiçik su-elektrik stansiyalarının, "Zəngilan" və "Şayıflı" su-elektrik stansiyalarının açılışlarını etdi. Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoydu.

Davamlı inkişaf tədbirləri təkcə işğaldan azad edilmiş regionlarımızı əhatə etmir. Azərbaycanın digər bölgələrində də abadlıq-quruculuq tədbirləri yüksək templə aparılır. Prezident İlham Əliyev ölkəmizin başqa bölgələrinə də mütəmadi səfərlər edir, görülən işləri diqqətdə saxlayır. Dövlətimizin başçısının Hacıqabul rayonunda avtomobil yolunun açılışında iştirakı, suvarma qurğuları kompleksi ilə tanış olması, Şirvan suvarma kanalının təməlini qoyması, Gəncə şəhərində Ekoloji Park Kompleksinin tikintisi ilə tanış olması, Gəncə İdman Sarayının açılışında iştirakı, Gəncə şəhər stadionunun təməlini qoyması, Qəbələ rayonundakı "Hacıalılı" elektrik yarımstansiyasının və Regional Təlim Mərkəzinin, Qəbələ Rayon Mərkəzi Xəstəxanasının, Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun, Qəbələ rayonundakı Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirakı respublikada regional inkişaf proseslərinin paralel və nizamlı şəkildə, ölkə rəhbərinin birbaşa nəzarəti ilə həyata keçirildiyini göstərir.

Son aylarda Azərbaycan bir sıra beynəlxalq tədbirlərə uğurla evsahibliyi etdi. Azərbaycan Prezidentinin iştirakı ilə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum, "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirildi. Şuşada VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin də möhtəşəm açılış mərasimləri oldu. Bu tədbirlərdən dünyaya bir sıra əhəmiyyətli mesajlar ünvanlandı, müxtəlif aktual qlobal məsələlərlə bağlı Azərbaycanın mövqeyi çatdırıldı.

### İnsan təhlükəsizliyini təhdid edən kəskin problemlərdən biri

Bu günlərdə Zəngilanda keçirilən "Minaların ətraf mühitə təsirinin azaldılması - Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda beynəlxalq konfrans insan təhlükəsizliyini təhdid edən kəskin problemlərdən birinə həsr olunmuşdur. Azərbaycan Prezidentinin konfrans iştirakçılarına ünvanladığı məktubunda deyilir: " Bu gün mina və partlamamış hərbi sursatlar hələ də dünyanın bir çox ölkəsində insan təhlükəsizliyini təhdid edən kəskin problemlərdən biridir. Müharibə bitdikdən on illər sonra belə insanların həyatını təhlükəyə atmaqla yanaşı, minalar sosial-iqtisadi inkişafa, ətraf mühitə, mədəni irsə, münaqişədən sonrakı bərpa və inkişaf təşəbbüslərinə və nəticə etibarilə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq səylərinə ciddi şəkildə mane olur".

Azərbaycan hazırda bütün dünyada minalarla bağlı ən çox əziyyət çəkmiş ölkələr sırasındadır. Ərazilərimizin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə, 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib. Müharibənin 2020-ci ildə başa çatmasından bu günə qədər əksəriyyəti mülki olan 361 vətəndaşımız mina qurbanı olmuş, onlardan 68-i həyatlarını itirmiş, 293-ü isə ağır yaralanmışdır. Minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər, eyni zamanda yenidənqurma və bərpa işlərinə əngəl yaradır, 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına ciddi maneələr törədir.

Məktubda xüsusi vurğulanır ki, ölkəmiz humanitar minatəmizləmə fəaliyyətini, demək olar ki, tam şəkildə öz resursları hesabına həyata keçirir. Minaların humanitar fəsadlarının aradan qaldırılması, torpaqların təmizlənməsi üçün beynəlxalq ictimaiyyətin siyasi və praktiki dəstəyi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan öz mina probleminə paralel olaraq, beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə cəlb etmək üçün çoxsaylı təşəbbüslərlə çıxış edib. Ötən il ölkəmiz humanitar minatəmizləməni 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi olaraq rəsmən elan etmiş və bu məsələnin BMT-nin qlobal 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi qəbul edilməsi istiqamətində davamlı iş aparır. "Eyni zamanda Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində humanitar minatəmizləmə üzrə xüsusi əlaqə qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib. Qrup ötən ilin sentyabr ayında fəaliyyətə başlayıb". Bu fikirlər dövlətimizin başçısının konfrans iştirakçılarına ünvanlanan məktubunda qeyd edilir. Azərbaycanın təşəbbüsü ilə bu konfrans 3-cü dəfədir keçirilir. Ölkəmiz qlobal səviyyədə minalanmaya qarşı mərkəz statusunu qazanıb. Bu gün işğaldan azad olunmuş əraziləri öz hesabına əsaslı bərpa edən və yenidən quran Azərbaycan mina probleminin həllinə də böyük vəsaitlər sərf etmək məcburiyyətindədir. Bütün bunlara görə, Ermənistan böyük məsuliyyət daşıyır. Hazırda Qazaxın işğaldan azad edilmiş dörd kəndində torpaqların minalardan təmizlənməsi işləri aparılır.

Beynəlxalq konfransda Azərbaycanda son zamanlarda əldə olunmuş nailiyyətlərə xüsusi diqqət yetirildi. COP29-un ölkəmizdə keçirilməsi qərarının yeni reallıqlar dövründə nə qədər böyük tarixi mahiyyət daşıdığı vurğulandı.

Bütün bu qeyd etdiklərimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə ən qüdrətli çağlarına gəlib çatmış Azərbaycan dövlətinin tarixinin şərəf səhifəsidir. Bu tarixin formalaşdırdığı möhkəm təməllər üzərində ölkəmiz özünün və ümumilikdə regionun parlaq, xoşbəxt gələcəyini qurub inşa edir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-İtaliya münasibətləri Avropa ölkələrinə nümunədir



**İtaliya dünyanın nadir diyarlarından biridir. Onun sakinləri öz ölkələrinin şanlı keçmişi və rifah halına qovuşmuş bu günü ilə fəxr edə bilərlər. Burada dünya mədəni irsinin yarıdan çoxu cəmləşib: qədim sivilizasiyalardan miras qalmış dəyərli incəsənət nümunələri, tarixi və memarlıq abidələri. İtaliya təkcə Avropada deyil, həm də digər qitələrdə mövcud olmuş sivilizasiyalara nisbətən dünya mədəniyyəti xəzinəsinə daha böyük töhfələr vermiş və bəşəri nailiyyətləri zənginləşdirmişdir.**

Bura saraylar, kilsələr, muzeylər və abidələr ölkəsidir. O eyni zamanda intibah, opera və rəssamlığın vətəni sayılır. Təsviri incəsənət nümunələri, tarixi binaları, gözəl yerləri, mülayim hava şəraiti və heyrətamiz mətbəxi ilə diqqəti cəlb edir. Bütün bu əzəməti adi ekskursiya çərçivəsində görmək mümkün deyil.

Bu gün İtaliya dedikdə, gözlərimiz önündə Roma imperiyası dövründən qalma qədim abidələrin xarabalıqları, Venesiyanın füsunkar gözəllikləri, Toskananın təpəli mənzərəsi, Alp dağlarının cənub yamaclarının ecazkar təbiəti, günəşli çimərlikləri, təmiz dəniz havası canlanır.

Bu gün İtaliya həm də iqtisadi tərəqqinin, sosial rifah halının durmadan inkişaf etdiyi bir ölkədir. İtaliya iqtisadiyyatı Avropa İttifaqına üzv ölkələrin inkişaf etmiş iqtisadiyyatı deməkdir. Onun iqtisadiyyatı postsənaye iqtisadiyyatıdır və dünyada 8-ci ən böyük nominal ümumdaxili məhsula malikdir. İtaliya G8 və NATO-nun, Avropa İttifaqının üzvü, iqtisadiyyatın inkişafına görə Avropanın dördüncü yerdə olan ölkəsidir. Avropa Birliyinin təsisçi üzvlərindən biridir. İtaliya Əfqanıstan, Kosovo, Bosniya-Herseqovina və Livanda həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirakına görə ABŞ və Böyük Britaniyadan sonra üçüncü yeri tutur. Eyni zamanda onun Avstriya, İsveçrə və Sloveniya kimi dövlətlərlə qonşu olması bu dost ölkə ilə münasibətlərdən bəhrələnən Azərbaycana geniş imkanlar açır. Belə ki, İtaliyanın Avropa Parlamentində 76 deputatla təmsil olunması da mühüm əhəmiyyət kəsb edir.

İtaliya Azərbaycanın Avropada ən qədim dövrlərdən diplomatik əlaqələr saxladığı ölkələrdən biridir. Hələ iki min il əvvəl XII Roma legionunun Azərbaycana gəlişi Qobustan qayaları üzərində öz izlərini saxlamaqdadır. Orta əsrlər dövründə bu əlaqələr diplomatik münasibətlər səviyyəsinə yüksəlmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə isə bu münasibətlər strateji əməkdaşlıq səviyyəsinə qalxmışdır. Belə ki, Bakıdan göndərilən xam neftin müqabilində İtaliyadan silah-sursat, hərbi texnika və hərbi formaların alınması gənc Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin artırılmasına mühüm dəstək idi.

1992-ci il yanvarın 1-də İtaliya dövlətinin respublikamızın müstəqilliyini tanıması və iki ölkə arasında diplomatik əlaqələrin qurulması qarşılıqlı münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu. Cənubi Qafqaz ölkələri arasında ilk dəfə 1997-ci ildə İtaliyanın Azərbaycanda, 2003-cü ildə Azərbaycanın İtaliyada səfirliyi açıldı. Ümummilli Lider Heydər Əliyevin 1997-ci il 24-27 sentyabr tarixlərində İtaliyaya rəsmi səfəri çərçivəsində siyasi, iqtisadi, mədəni və texniki əməkdaşlıq üzrə yeddi saziş imzalandı, bu sənədlər ölkələrimiz və xalqlarımız arasında dostluğun, əməkdaşlığın daha da möhkəmləndirilməsində hüquqi baza yaratdı.

O vaxtdan bəri iki ölkə arasında siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, mədəni, humanitar və sair istiqamətlər üzrə çoxşaxəli strateji tərəfdaşlıq münasibətləri quruldu. İtaliya etibarlı dost, sülhsevər ölkə, üzərinə götürmüş olduğu beynəlxalq öhdəliklərə hörmətlə yanaşdığına görə Vətən müharibəsi dövründə Azərbaycanla həmrəylik nümayiş etdirdi. Bir qayda olaraq İtaliya mediası Azərbaycanla bağlı məsələlərdə obyektiv yanaşma sərgilədi. Xüsusən 2020-ci ilin İtaliyada "Azərbaycan ili" elan olunması ölkəmizə bəslənilən rəğbət və etimadın göstəricisi oldu.

Ulu Öndərin təməlini qoyduğu müstəqil Azərbaycanın xarici siyasət kursunu inam və qətiyyətlə davam etdirən, onu daha yüksək pilləyə qaldıran Prezident İlham Əliyevin 2022-ci il sentyabrın 1-2- də İtaliyaya işgüzar səfəri iki ölkə arasında strateji tərəfdaşlığın güclənməsinə təkan verdi. Təsadüfi deyil ki, İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanıb.

Azərbaycan dövləti dəfələrlə ən ali səviyyədə bəyan etmişdi ki, Vətən müharibəsi dövründə Azərbaycanın haqlı mövqeyini dəstəkləyən dövlətlərin Qarabağın quruculuq prosesində iştirakına xüsusi imkan yaradacaq. Təsadüfi deyil ki, işğaldan azad edilmiş ərazilərimizdə İtaliya şirkətləri bu gün uğurla fəaliyyət göstərirlər. İtaliyanı təmsil edən şirkətlər Qarabağ və Şərqi Zəgəzurda quruculuq işlərində fəal iştirak edən və ən çox iş görənlər sırasındadırlar.

Bizi həm də fəal siyasi dialoq birləşdirir. Bunu iki ölkə arasında siyasi münasibətlərin güclənməsində parlamentlərarası əlaqələr, hökumətlərarası komissiyaların fəaliyyəti də təsdiqləyir. Bu il mayın 29-da İtaliya Senatında "Azərbaycan-İtaliya-Aİ münasibətləri"nə həsr olunmuş tədbir keçirildi. Roma şəhərində Senatda "Azərbaycan, İtaliya, Aİ: ikitərəfli əməkdaşlıq və enerji təhlükəsizliyi" mövzusunda forum keçirildi. Tədbir zamanı italiyalı investorlar Azərbaycanda təkcə enerji deyil, eyni zamanda iqtisadiyyatın digər növlərində də maraqlı olduqlarını bildirdilər.

İtaliya kənd təsərrüfatı və sənaye bölmələrində mütərəqqi texnoloji avadanlıqların tətbiqi sahəsində böyük təcrübəyə malikdir. Odur ki, İtaliya şirkətlərinin Azərbaycanda həyata keçirilən investisiya layihələrində, sənaye zonalarında, aqroparklarda, logistik mərkəzlərin yaradılmasında iştirakı qarşılıqlı əməkdaşlığa əlavə stimul verir.

İtaliya Azərbaycanın xüsusilə enerji sektorunda ən böyük ticarət tərəfdaşıdır. Azərbaycanın neft və qaz ixracının 50 faizi İtaliyanın payına düşür. Prezident İlham Əliyev bildirmişdir ki, "Azərbaycan və İtaliya arasında münasibətlər strateji tərəfdaşlıq müstəvisində inkişaf edir, əlaqələrimizin böyük hissəsi energetika sahəsi ilə bağlıdır".

Azərbaycanın transregional layihələrdə bilavasitə iştirakı onun bölgədə artan əhəmiyyətini bir daha göstərir. Avropada ən yaxın ticarət tərəfdaşımız olmaqla yanaşı, İtaliya TANAP-TAP layihələrində aparıcı tranzit ölkələrdən biridir. "Cənub qaz dəhlizi" və bu layihənin hazırda son mərhələsi olan TAP çərçivəsində Azərbaycan qazı İtaliya vasitəsilə Avropaya çatdırılır. İtaliya və Azərbaycan enerji təhlükəsizliyi və iqtisadi-ticari əlaqələr baxımından iki strateji tərəfdaşdır.

Azərbaycan bu qardaş ölkə ilə "yaşıl kimya", "yaşıl enerji", "yaşıl enerji zonası", "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları zəminində də sıx əməkdaşlıq edir. Ölkəmizdə 87 İtaliya sərmayəli şirkət fəaliyyət göstərir. Bu şirkətlər Azərbaycanda həyata keçirilən layihələrdə podratçı qismində də iştirak edirlər. Azərbaycan ilə İtaliyanın "Leonardo" şirkəti arasında əməkdaşlıq inkişaf edir. Bu il mayın 14-də Bakıda keçirilmiş İtaliya-Azərbaycan Biznes Forumunda kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən 13 İtaliya şirkəti iştirak etmişdir.

2023-cü ilin noyabrında Azərbaycanda həyata keçirilən dəmiryol layihələrində İtaliya şirkətlərinin iştirak imkanları müzakirə edildi. Bu zaman "ITALRAIL" konsorsiumuna daxil olan şirkətlərin dəmiryol nəqliyyatı ilə bağlı istehsal etdiyi müxtəlif texnika və sistemlər barədə geniş təqdimat keçirildi.

Bakı şəhərində Zəfər Muzeyinin, eləcə də işğaldan azad edilmiş bir çox şəhərlərdə Qələbə və İşğal muzeylərinin, habelə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində tarixi abidələrimiz və dağıdılmış məscidlərimizin bərpa və inşası ilə bağlı İtaliya şirkətləri aktiv fəaliyyət göstərirlər. Hazırda 3 şəhərdə İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası da İtaliya şirkətləri tərəfindən həyata keçirilir.

İki ölkə arasında siyasi münasibətlərin güclənməsi iqtisad-ticarət əlaqələrinin inkişafına müsbət təsir göstərir. Ticarət baxımından Azərbaycan bu ölkənin ilk kommersiya tərəfdaşıdır. 2023-cü ildə Azərbaycandan İtaliyaya 15 milyard 208 milyon dollar dəyərində məhsul ixrac olunub. İtaliyadan Azərbaycana isə 477 milyon 903 min dollar dəyərində məhsul idxal edilib.

Mədəniyyət sahəsində qarşılıqlı münasibətlər uğurla inkişaf edir. Həmçinin xalqlarımız arasında mövcud olan təbii rəğbət hissi kino, memarlıq, musiqi və incəsənət vasitəsi ilə daha da möhkəmlənir. Bakıda İtaliya-Azərbaycan Universitetinin yaradılmasına hazırlıq işləri əhəmiyyətli hadisələrdən biridir. Beş italyan universiteti bu layihənin tərəfdaşı qismində çıxış edir. Neapolda "Bakı" küçəsi, Bakıda isə "Neapol" küçəsinin olması da mədəni yaxınlığın göstəricisidir. Həmçinin müxtəlif vaxtlarda İtaliyada Azərbaycan filmlərinin, eyni zamanda Azərbaycanda İtaliya filmlərinin festivallarının keçirilməsi də mənəvi əlaqələri yeni pilləyə yüksəldib. Prezident İlham Əliyev haqlı olaraq qeyd edib ki, "Güclü siyasi əlaqələrimiz gündən-günə genişlənən ticari, iqtisadi, enerji, təhsil, mədəni və digər sahələrdə əməkdaşlığımızın və çoxölçülü strateji tərəfdaşlığımızın təməlini təşkil edir".

Bu il Azərbaycan mühüm beynəlxalq tədbirin keçirilməsinə evsahibliyi edəcək. Bu məqsədlə qızğın hazırlıq işləri gedir. COP29-un iqlim dəyişikliyi ilə mübarizə sahəsində bir sıra tərəfdaşlar, o cümlədən İtaliya ilə əməkdaşlığa əlavə töhfə verəcəyi şübhəsizdir. Ərazilərini işğaldan azad etmiş Azərbaycan üçün iqtisadi əməkdaşlıq, qarşılıqlı faydalı ticarət münasibətləri üstün istiqamətlər sayılır. Bu mənada Azərbaycan-İtaliya strateji tərəfdaşlığı Cənubi Qafqazda və Avropada sülhə, iqtisadi tərəqqiyə və enerji təhlükəsizliyinə böyük töhfə verməklə Avropa ölkələri üçün də nümunə olacaq.

*Atamoğlan MƏMMƏDLİ,*
*BDU-nun dosenti*

# Şuşada Türk Dövlətləri Təşkilatı Təhsil Nazirlərinin VIII iclası keçirilib

**İyunun 1-də Şuşa şəhərində Türk Dövlətləri Təşkilatı Təhsil Nazirlərinin VIII iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Türk Dövlətləri Təşkilatının qısa müddət ərzində əldə etdiyi uğurların təqdirəlayiq olduğunu diqqətə çatdırıb.

Elm və Təhsil Nazirliyinin bu vacib proseslərə töhfə verməkdən məmnun olduğunu söyləyən Emin Əmrullayev türkdilli dövlətlər arasında dayanıqlı və sağlam əməkdaşlığın bünövrəsinin gənclər olduğunu vurğulayıb. Nazir qeyd edib ki, bu baxımdan Türk Dövlətləri Təşkilatı çərçivəsində ümumi təhsil müəssisələri şagirdlərinin mübadiləsi məktəblilərimizin ortaq tarix, mədəniyyət və adət-ənənələri tanımasına şərait yaradır.

Türk Dövlətləri Təşkilatına üzv dövlətlərlə həm təşkilat çərçivəsində, həm də ikitərəfli əməkdaşlıq əlaqələrinin bu gün də uğurla davam etdirildiyini bildirən Emin Əmrullayev işğaldan azad olunmuş ərazilərdə qardaş ölkələrin dəstəyi ilə tikilən məktəbləri, həmçinin görülən digər işləri ölkələrimiz arasında dostluq və qardaşlığın növbəti rəmzi kimi qiymətləndirib.

Nazir çıxışının yekununda Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrlə ikitərəfli əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində qarşıda duran hədəflərə toxunub.

Daha sonra digər qonaqlar çıxış edərək elm və təhsil sahəsində əməkdaşlığın gücləndirilməsi məsələsindən söz açıblar.

Çıxışlardan sonra iclasın gündəliyində olan məsələlər müzakirə edilib.

# Türk Akademiyasının Elmi şurasının VII iclası olub

**İyunun 1-də Şuşa şəhərində Türk Akademiyasının Elmi şurasının VII iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Türk Akademiyasının prezidenti Şahin Mustafayev iclasın Şuşada keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib. Şahin Mustafayev bildirib ki, bu iclas elmi əməkdaşlığın möhkəmləndirilməsi barədə fikir mübadiləsi aparmağa və müvafiq qərarlar qəbul etməyə imkan verir.

Elm və təhsil naziri Emin Əmrullayev Şuşa şəhərinin belə bir mötəbər tədbirə evsahibliyi etməsindən məmnunluğunu bildirib. Türk Akademiyasının məqsədlərindən danışan Emin Əmrullayev bu qurum ilə əməkdaşlıq çərçivəsində elm və təhsil sahəsində həyata keçirilən işlərdən bəhs edib.

Daha sonra iclasın gündəliyində duran məsələlər müzakirə olunub.

İclas çərçivəsində Türk Akademiyasının fəaliyyət hesabatı təqdim olunub.

# Şuşada keçirilən beynəlxalq uşaq yaradıcılıq festivalı əməkdaşlığa müsbət töhfə verəcək





**İyunun 1-də Şuşa şəhərində Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Şuşa türk dövlətləri birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı keçirilib.**

AZƏRTAC xəbər verir ki, türkdilli xalqların birliyini əks etdirən festivalda Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstandan 250-yə yaxın məktəbli ölkələrinin musiqi və rəqs mədəniyyətini təqdim edib.

Tanınmış mədəniyyət və incəsənət xadimləri, 150-yə yaxın məktəbli, şəhid övladları festivalın tamaşaçıları arasında olub.

Beynəlxalq yaradıcılıq festivalının təşkilində məqsəd türkdilli dövlətlərdən olan uşaqlar arasında dostluq, qardaşlıq, əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirmək, uşaqlara öz ölkələrinin tarix və mədəniyyətini layiqincə təmsil etmək üçün şərait yaratmaq, eləcə də Şuşa şəhərinin füsunkar gözəlliyini tanıtmaqdır.







# "Böyük Qayıdış: Uşaqlar üçün yeni dövrün başlanğıcı" mövzusunda konfrans təşkil edilib

**Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə iyunun 1-də "Böyük qayıdış: Uşaqlar üçün yeni dövrün başlanğıcı" adlı konfrans keçirilib.**





AZƏRTAC xəbər verir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və "Azərbaycan Uşaqlarının İnkişaf Platforması" İctimai Birliyinin (AUİP), Uşaq Səfirlər Məclisinin (USM) birgə təşkilatçılığı və Elm və Təhsil Nazirliyinin dəstəyi ilə STEAM İnnovasiya Mərkəzində keçirilən konfrans "#BütövAzərbaycan üçün" devizi ilə təşkil olunub.

Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Ümummilli Lider Heydər Əliyevin, eyni zamanda torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Konfransda açılış nitqi ilə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva uşaqlara diqqət və qayğının, onların hüquqlarının qorunmasının dövlətimizin prioritet məsələlərindən olduğunu vurğulayıb. Vətən müharibəsinin getdiyi həssas bir dönəmdə Azərbaycan Prezidenti tərəfindən imzalanan "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı" istiqamətində görülən işlərdən danışan komitə rəsmisi Azərbaycan Uşaqlarının Ümumrespublika Forumunun əhəmiyyətini qeyd edib. A.Sofiyeva Uşaq Səfirlər Məclisinin yaradılmasını çox mühüm və uğurlu layihə kimi dəyərləndirib. Bildirib ki, tərkibində istedadlı, bacarıqlı uşaqları birləşdirən bu qurum ötən 4 il ərzində xeyli iş görüb. O, Uşaq Səfirlər Məclisinin bütün rayonları əhatə etdiyini də diqqətə çatdırıb.

Cəmiyyətdə uşaq iştirakçılığından danışan komitə rəsmisi ölkənin ictimai-siyasi həyatında gənclərin rolunu qeyd edib və onların da üzərinə məsuliyyət düşdüyünü vurğulayıb. Böyük Zəfərimizdən sonra yeni bir dövrə qədəm qoyulduğunu qeyd edən A.Sofiyeva işğaldan azad olunmuş torpaqlara qayıdış prosesinin hər birimizin, o cümlədən gənclərin üzərinə böyük vəzifələr qoyduğunu söyləyib.

"Azərbaycan Uşaqlarının İnkişaf Platforması" İctimai Birliyinin sədri Müslüm Məmmədov dövlət uşaq siyasətindən ilhamlanaraq Qarabağa qayıdışda AUİP-in töhfə verəcəyinə inandığını bildirib. Qeyd edib ki, platforma bundan sonra da daha çox uşağı ətrafına toplamaq üçün ardıcıl layihələr həyata keçirəcək.

"Ümidli Gələcək" Gənclər Təşkilatının sədri Kəmalə Aşumova AUİP ilə hər zaman əməkdaşlıq etməyə hazır olduğunu deyib, təşkilatın üzvlərinin bacarıqları ilə gələcəkdə birgə uğurlu layihələrin reallaşdırılacağına inamını ifadə edib. O, uşaqların cəmiyyətdəki çatışmazlıqlara özünəməxsus baxışı olduğunu qeyd edərək əlavə edib ki, belə platformalar vasitəsilə uşaqların cəmiyyətin inkişafı üçün arzu və istəklərini çatdırması, uşaqdan-uşağa prinsipi ilə onların öz yaşıdlarına səslənməsi çox önəmlidir.

Konfrans panel müzakirə sessiyası ilə davam edib. Sessiya zamanı uşaqların Böyük qayıdış prosesində reallaşdırıla biləcək təklifləri və sualları səsləndirilib.

Tədbir müzakirələrlə davam edib.

# Qonaqlar Azərbaycanda media sahəsinin inkişafı ilə maraqlanıblar





**İyunun 1-də Maohi Nuinin (Fransız Polineziyasının) nümayəndə heyəti Medianın İnkişafı Agentliyində olub.**

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda müasir çağırışlara uyğun media mühitinin formalaşması haqqında məlumat verib. Bildirib ki, agentlik media sahəsində fəaliyyətin çağdaş trendlərə uyğunlaşdırılması, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının və cəmiyyətin media savadlılığının artırılması istiqamətində çoxşaxəli fəaliyyət həyata keçirir.

O, "Media haqqında" Azərbaycan Respublikası Qanunu və bu sahəni tənzimləyən digər normativ-hüquqi aktlar barədə məlumat verib, eyni zamanda jurnalistlərin peşə etikası qaydalarının xüsusi əhəmiyyət daşıdığını qeyd edib, Azərbaycanda media sahəsində həyata keçirilən institusional quruculuq işlərindən danışıb.

Fransız Polineziyasından olan nümayəndələr media sahəsinin inkişaf etdirilməsi, media subyektləri və jurnalistlərə dəstək göstərilməsi istiqamətində işin təşkili, həmçinin müstəqil media subyektlərinin yaradılması ilə bağlı ölkəmizdəki təcrübə ilə maraqlandıqlarını bildirib, həmçinin gələcəkdə müvafiq sahədə əməkdaşlığın təşkili və mümkün formaları ilə əlaqədar fikirlərini bölüşüblər.

Görüşdə Polineziyada media sahəsinin inkişafı məqsədilə müxtəlif layihələrin həyata keçirilməsinə dəstəyin göstərilməsi barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan mina problemi ilə qlobal səviyyədə mübarizə aparır

**Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır. Ərazilərimizin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib.**

Vətən müharibəsinin başa çatmasından bu günə qədər əksəriyyəti mülki olan 361 azərbaycanlı mina qurbanı olub. Onlardan 68-i həlak olub, 293-ü isə ağır yaralanıb. Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkib. Onlardan 358-ni uşaqlar, 38-ni isə qadınlar təşkil edir.

Bu dəhşətli statistikadan da göründüyü kimi, indiyə qədər insanlarımız Ermənistanın mina terrorunun qurbanına çevrilir, həlak, yaxud şikəst olurlar.

Mayın 30-da Zəngilanda işə başlayan "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda 3-cü beynəlxalq humanitar minatəmizləmə konfransının iştirakçılarına ünvanladığı müraciətində Prezident İlham Əliyev vurğulayıb ki, mina qurbanlarının sayının gündən-günə artmasının əsas səbəbləri sırasında Ermənistanın Azərbaycan ərazisində basdırdığı minaların dəqiq xəritələrini təqdim etməkdən imtina etməsi, keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə tələ xarakterli minalar yerləşdirməsidir. 2020-ci ildən 2023-cü ilə qədər uzunluğu 500 kilometrədək olan yeni minalanmış zonalar yaradılmış, yenidən Azərbaycanın ərazisinə minalar basdırılmışdır: "Bunun məsuliyyəti Ermənistanın üzərinə düşür".

### Ermənistanın verdiyi xəritələr dəqiq deyil

Ermənistanın torpaqlarımızı mina tarlasına çevirməsi Böyük qayıdışa əngəl olan başlıca maneədir. Çünki belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir.

İrəvan isə insanlıq əleyhinə cinayətlərini davam etdirərək dəqiq mina xəritələrini Azərbaycana verməkdən müxtəlif riyakarlıqlarla yayınır.

2021-ci ildə Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında basdırılan mina sahələrinə dair Ermənistan tərəfindən verilmiş məlumatların dəqiqliyi cəmi 25 faiz təşkil edib.

2024-cü ilin fevralında Ermənistanın Azərbaycana təqdim etdiyi növbəti mina sahələrinə dair 8 ədəd formulyarda da məlumatların əvvəlkilər kimi qeyri-dəqiq, etibarsız və natamam əks edildiyi məlum olub. Azərbaycan Minatəmizləmə Agentliyindən (ANAMA) bildirilib ki, təhlil və emal işləri aparıldıqdan sonra qeyd edilən məlumatların real mina sahələri ilə uzlaşmadığı, istinad nöqtələrinin koordinatlarının yanlış və yararsız olduğu müəyyən edilib.

Göründüyü kimi, torpaqlarımızın 30 illik işğalı dövründə Ermənistan mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanmasını həyata keçirərək beynəlxalq hüququn norma və prinsiplərini ciddi şəkildə pozub. Qarabağ və Şərqi Zəngəzurda demək olar ki, hər yerə mina döşəyərək hərbçi və mülki insanlarımızı hədəfə alıb. Odur ki, beynəlxalq ictimaiyyət dəqiq mina xəritələrini Azərbaycana təqdim etməsi üçün Ermənistana təzyiq göstərməlidir.

### 140 min hektara yaxın sahə mina və partlamamış hərbi sursatlardan təmizlənib

Azərbaycan dövləti 44 günlük müharibədən dərhal sonra işğaldan azad etdiyi torpaqlarının minalardan təmizlənməsi işinə başlayıb. Prezident İlham Əliyevin təsdiqlədiyi "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda Azərbaycanda 2026-cı ilə qədər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi işlərinin davam etdirilməsi nəzərdə tutulub.




Ötən müddətdə minatəmizləmə istiqamətində mühüm işlər görülüb. Bu günə qədər aparılan minatəmizləmə prosesi nəticəsində 140 min hektara yaxın sahə 119 min 946 mina və partlamamış hərbi sursatlardan təmizlənib.

Azərbaycan beynəlxalq ictimaiyyətin diqqətini mina probleminə cəlb etmək üçün çoxsaylı təşəbbüslərlə çıxış edir. Elə mayın 30-da Zəngilanda öz işinə başlayan və ayın 31-də Bakıda başa çatan Azərbaycan Minatəmizləmə Agentliyinin və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) birgə təşkilatçılığı ilə "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda 3-cü beynəlxalq humanitar minatəmizləmə konfransı da mina probleminə beynəlxalq səviyyədə bir daha diqqət çəkdi.

Beynəlxalq konfransın həm də Zəngilanda, işğal altında olduğu 30 illik müddətdə Ermənistan tərəfindən minalanmış rayonda öz işinə başlaması xüsusi əhəmiyyət kəsb etdi. Beynəlxalq ictimaiyyət nümayəndələri düşmən tərəfindən bu ərazilərin necə dağıdılıb viran qoyulmasına əyani şahidlik etdi.

Konfransda 75 ölkədən 300-dən çox nümayəndə iştirak etdi. İştirakçılar arasında bir sıra ölkələrin yüksəkvəzifəli şəxsləri, BMT-nin baş ofisinin rəhbər heyəti, nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri və müxtəlif ölkələrin minatəmizləmə mərkəzlərinin rəsmiləri, habelə ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin vəzifəli şəxsləri təmsil olundular. Zəngilanda və Bakıda keçirilən 3-cü beynəlxalq konfransın yekununda bəyannamə qəbul olundu.

Bütün bunlar ölkəmizin qlobal səviyyədə minalanmaya qarşı mərkəz statusu qazandığından və bu istiqamətdə davamlı təşəbbüslərlə çıxış etməsindən xəbər verir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Heydər Əliyev Mərkəzinin parkında "Uşaq festivalı" təşkil olunub









**Uşaqların Beynəlxalq Müdafiəsi Günündə - iyunun 1-də Heydər Əliyev Mərkəzinin parkında "Uşaq festivalı" keçirilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun, Heydər Əliyev Mərkəzinin, Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən festivalda müxtəlif yaş kateqoriyalarındakı uşaqlar maraq dairələrinə uyğun əyləncə seçib asudə vaxtlarını səmərəli keçirib, istedadlarını nümayiş etdiriblər.

Festivalda mərkəzin parkı mövzular və əyləncə növləri üzrə zonalara bölünüb. Burada günün əsas qəhrəmanları olan uşaqlara bir-birindən maraqlı və fərqli əyləncələr, maarifləndirici proqramlar təqdim olunub.

Uşaq festivalında Vətən uğrunda şəhid olan qəhrəmanlarımızın övladları, Bakıdakı uşaq evlərinin sakinləri, daun sindromlu uşaqlar da iştirak ediblər.

Uşaqlar üçün xüsusi ayrılan zonadakı səhnədə gənc istedadların ifasında konsert proqramı təqdim edilib. Səhnədə "Azəri inciləri" rəqs qrupu, Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Cücələrim" Mahnı və Rəqs Ansamblı, Sosial Xidmətlər Agentliyinin uşaqları, "Səma" Rəqs Ansamblı, "Təbəssüm" Uşaq Musiqili Teatrı, "Zirvə" Rəqs Ansamblı, 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi və 3 nömrəli Uşaq İncəsənət Məktəbinin üzvləri çıxış ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "EkoSfera" Sosial Ekoloji Mərkəz (SEM) tərəfindən yaradılan ekoloji zonada "Yaşıl dünya naminə həmrəylik ili" və ölkəmizdə keçiriləcək COP29 tədbiri ilə bağlı uşaqlar üçün maarifləndirmə proqramı və "pre-COP29" konfransı formatında iqlim dəyişmələri, ətraf mühitin monitorinqi mövzularında "dəyirmi masa", viktorina və interaktiv oyunlar təşkil olunub. "Tullantılara ikinci həyat" adlı ekoloji ustad dərsləri, "Yaşıl enerji" mövzusunda startaplar, həmçinin dron və robotların ətraf mühitin qorunmasındakı rolu nümayiş etdirilib.

Gənclər arasında idmanın, sağlam həyat tərzinin təbliği məqsədilə mərkəzin parkında müxtəlif idman növlərinə aid zonaların yaradılmasına da diqqət yetirilib. Həmin meydançalarda Azərbaycan Stolüstü Tennis Federasiyası tərəfindən stolüstü tennis təlimi və uşaqlar arasında yarışlar keçirilib, uşaqlara şahmat yarışlarında, futbol üzrə ustad dərslərində iştirak etmək, öz bacarıq və qabiliyyətlərini nümayiş etdirmək imkanı yaradılıb.

Hər bir uşağın öz sevimli personajını canlandırmaq arzusu nəzərə alınaraq, balaca ziyarətçilərin üzləri "Face art" vasitəsilə müxtəlif şəkil və cizgi filmlərinin qəhrəmanları kimi bəzədilib. Animatorlar isə cizgi filmlərinin qəhrəmanlarını canlandıraraq uşaqların nağıllar aləminə səyahətini, sevimli personajları ilə görüşünü, onlarla birlikdə əylənməsini təşkil edib.

"Street art" - küçə incəsənəti üçün ayrılan ərazidə uşaqlar asfalt üzərində rəsmlər də çəkiblər.

Azərbaycan Avtomobil Federasiyası tərəfindən isə uşaqlar üçün yol hərəkəti qaydalarına dair təlimlər keçirilib, Heydər Əliyev Mərkəzinin parkında kiçik avtomobillərlə ralli təşkil olunub.

Bakı Kitab Mərkəzi və F.Köçərli adına Uşaq Kitabxanası uşaq ədəbiyyatı müəllifləri ilə görüş, uşaqlar üçün isə oxu saatı keçirib.

Arxeoloji meydançada uşaqlar şərti olaraq axtarışlar aparıb, qum altından müxtəlif arxeoloji tapıntı maketlərini aşkarlayıb, onları tədqiq ediblər.

Heyvanlar aləminə səyahət, azyaşlıların safarinin vəhşi heyvanlarının maketləri ilə tanışlığı və interaktiv oyunlarla maariflənməsi isə "Safari tur" zonasında mümkün olub.

Festivalda gənclərin maraq göstərdikləri "Playstation zonası" da fəaliyyət göstərib.

Uşaqların Beynəlxalq Müdafiəsi günündə onların sağlamlıqları da yaddan çıxmayıb. Parkda fəaliyyət göstərəcək Liv Bona Dea Hospitalı uşaqların pulsuz göz müayinəsini aparıb.

Beləliklə, Heydər Əliyev Mərkəzinin parkı həm əyləncə, həm də yaradıcılıq məkanı kimi uşaqların ixtiyarına verilərək, onlara unudulmaz anlar yaşadılıb.

Balacalardan bir neçəsi festivalla bağlı unudulmaz təəssüratlarını AZƏRTAC ilə bölüşüb.

"Uşaq festivalın"na ikinci dəfə qatıldığını deyən Leyla Həsənova burada çox əyləndiyini deyib: "Festivalda yeni kitablar əldə etdik, digər uşaqlarla birlikdə mahnılar oxuduq, vaxtımızı səmərəli keçirdik. Ümumiyyətlə, burada hər şey çox möhtəşəmdir". O budəfəki festivalın əvvəlkindən daha maraqlı olduğunu deyib.

Doqquz ildir ki, rəqslə məşğul olduğunu deyən Raul Hüseynli festivala Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə qatıldığını bildirib və üzvü olduğu rəqs qrupunun da bu gün Şuşada çıxış edəcəyini deyib: "Biz "Uşaq festivalı"nda "Odlar Yurdu" rəqs kompozisiyasını ifa edəcəyik".

Balaca müsahibimiz əlavə edib ki, təşkil olunan festival digər uşaqlar kimi, onda da xoş təəssüratlar yaradıb. O bundan əvvəl də uşaqlar üçün xüsusi olaraq keçirilən festivallarda iştirak etdiyini söyləyib.

Nurar Məlikova da festivalın ürəyincə olduğunu və əyləncəli proqramlarla keçirildiyini bildirib. O, doyunca rəqs etdiyini, yelləncəklərdən və digər əyləncə qurğularından istifadə etdiyini deyib.

Festivalın onlarda yaratdığı xoş təəssüratlardan danışan Raul Abbaszadə bu gözəl bayram tədbirində ilk dəfə iştirak etdiyini xatırladıb. Bildirib ki, uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün festival olduqca əhəmiyyətlidir və buraya gələn azyaşlılar çox sevinirlər.



# IDEA "Sevincini bölüş" kampaniyası çərçivəsində uşaqlar üçün növbəti aksiya keçirib








**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Sevincini bölüş" kampaniyası çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün növbəti aksiya keçirilib.**

IDEA-nın təşəbbüsü ilə şəhərin müxtəlif yerlərində qoyulmuş oyuncaq ianə qutularından toplanan istifadəyə yararlı oyuncaqlar həssas qruplardan olan uşaqlara mütəmadi olaraq təqdim edilir.

IDEA İctimai Birliyindən AZƏRTAC-a verilən məlumata görə, "1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü" münasibətilə təşkil olunan aksiya çərçivəsində həmin qutulara toplanılan oyuncaqlardan ibarət 61 hədiyyə qutusu "Ümid yeri" uşaq sığınacağının azyaşlı sakinlərinə paylanılıb.

IDEA İctimai Birliyi xüsusi qayğıya ehtiyacı olan uşaqların sevincinə səbəb olan, onlara təbəssüm bəxş edən, bayram ab-havası yaradan həmin təşəbbüsə dəstək verən və kampaniyanın uğurla həyata keçməsində fəal olan hər bir iştirakçıya minnətdarlığını bildirir.



Məlum olduğu kimi, IDEA İctimai Birliyi tullantıların azaldılması, təkrar istifadəsi və emalına xüsusi önəm verir, həmin istiqamətdə genişmiqyaslı təbliğat və təşviqat tədbirləri, kağız və plastik tullantıların, işlənmiş batareyaların toplanaraq təkrar emala göndərilməsi, eləcə də geyim əşyalarının toplanaraq təkrar istifadəyə göndərilməsi üzrə sosial layihələr həyata keçirir.

Digər məhsullar kimi, yüksək tələbata malik oyuncaqların da tullanması və çürüməsi ətraf mühitə zərərsiz ötüşmür. Bu, həm tullanılan məhsulların çürüməsi zamanı təbiətə buraxılan zəhərli maddə və qazlar, həm də yeni məhsulların istehsalından irəli gələn zərərlə bağlıdır.

Bu xüsusda, IDEA İctimai Birliyi şəhərimizin sakinlərini öz "sevincini bölüşməyə", evlərində olan istifadəsiz, yararlı və saf qalan oyuncaqlarını tullamaq əvəzinə IDEA-nın ianə qutularına yerləşdirməklə ehtiyacı olan uşaqlara öz yardım əlini uzatmağa, eyni zamanda, həmin oyuncaqlara "ikinci həyat" verməklə təbiətə vurulan zərəri azaltmağa çağırır. İanə edilən oyuncaqların qutulara atmaqdan öncə təmizlənməsi, qutulara kənar əşyalar və ya tullantılar atılmaması xahiş edilir.

Qeyd edək ki, "Sevincini bölüş" oyuncaq ianə qutuları paytaxt ərazisindəki "Dəniz Mall", "Gənclik Mall", "28 Mall", "Zefir Mall" ticarət mərkəzlərində yerləşir.

# Bakı Zooloji Parkında "Gələcək uşaqlara məxsusdur" adlı şənlik Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmişdi

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakı Zooloji Parkında 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı tədbir keçirilib. Zooloji Park və Bakı Abadlıq Xidmətinin əməkdaşlığı ilə təşkil olunan "Gələcək uşaqlara məxsusdur" adlı şənlikdə 2 nömrəli ümumi təyinatlı, 4 nömrəli xüsusi, 8 nömrəli sanatoriya tipli və 12 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərindən ümumilikdə 350-dən çox uşaq iştirak edib.

Bu barədə AZƏRTAC-a Zooloji Parkdan məlumat verilib.

Bildirilib ki, musiqi sədaları ilə müşayiət olunan və günboyu davam edən tədbir qonaqlarda xoş əhvali-ruhiyyə yaradaraq unudulmaz günlərdən birinə çevrilib. Zooloji Parkın müxtəlif məntəqələrində ziyarətçilər oyunlara və yarışlara qatılaraq hədiyyələr qazanıblar. Sehrbaz və cizgi film personajlarının iştirakı şənliyi daha da rəngləndirib, qonaqların diqqətini müxtəlif viktorina və maraqlı oyunlara cəlb edib. Ziyarətçilər öz maraq dairələrinə uyğun seçim edərək, təbii parçalardan oyuncaqların hazırlanması, ekoçantaların zoomorf ornamentləri ilə bəzədilməsi, rəsm çəkmək, gips lövhələrinin rənglənməsi kimi müxtəlif ustad dərslərinə qatılıb, üz boyamada iştirak ediblər. Eyni zamanda uşaqların maariflənməsi üçün onlara Zooloji Parkın lektoriyasında heyvanların həyat tərzini özündə əks etdirən cizgi filmləri, onların biologiyası haqqında təqdimatlar nümayiş edilib. Açıq havada heyvanların xarici quruluşları ilə bağlı geniş məlumat əldə edən kiçik ziyarətçilərə heyvanlarla yaxından təmasda olmaq, qulluq etmək və onlara qayğı göstərmək şansı verilib, həmçinin IDEA Heyvanlara Qayğı Mərkəzinin təşkilatçılığı ilə himayə guşəsi təşkil olunub.









# Naxçıvanda uşaqların bayramı qeyd edilib

**Naxçıvanda Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti və muxtar respublikanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Uşaqların rəngli dünyası" adlı bayram tədbiri keçirilib.**



AZƏRTAC xəbər verir ki, 300-ə yaxın uşaq "Böyük bağ" adlanan ərazinin qarşısından tədbirin təşkil olunduğu Əcəmi seyrəngahına yürüş edib.

Bayram tədbirində əvvəlcə uşaqlara daim böyük qayğı göstərən Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib. Qeyd olunub ki, ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşməsi Ulu Öndərin adı ilə bağlıdır. Bu gün dövlət uşaq siyasəti Azərbaycan Prezidenti İlham Əliyev və ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uşaqların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının və sağlamlıqlarının qorunması, təhsili, asudə vaxtının səmərəli təşkili, həmçinin istedadlarının üzə çıxarılması ilə bağlı tədbirlər görülür. Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə belə möhtəşəm tədbirin keçirilməsi də uşaqlara göstərilən yüksək qayğının bariz nümunəsidir. Bugünkü bayram tədbiri həm də ay ərzində muxtar respublikanın bütün rayonlarında keçirilən uşaqlarla bağlı maarifləndirici tədbirlərin yekunudur.

Sonra Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq bağçalarının balaca fidanları şeirlər səsləndirib, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, uşaq musiqi məktəblərinin yaradıcı kollektivləri bir-birindən maraqlı musiqi və rəqs nümunələri ilə çıxış ediblər.

Bayram tədbiri çərçivəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu ("YAŞAT" Fondu), Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən şəhid, qazi ailələrinin uşaqlarına, sağlamlıq imkanları məhdud balacalara, Ordubad rayon internat tam orta məktəbinin şagirdlərinə hədiyyələr təqdim olunub. Yeniyetmə və gənclər üçün nəşr olunan "Məktəbli" qəzetinin nömrələri, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin və digər yaradıcı şəxslərin, kollektivlərin əl işləri, rəngarəng stendlər uşaqlarda böyük maraq yaradıb. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Modern Psixoloji Mərkəz əyləncəli oyunlar, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi müxtəlif müayinələr təşkil edib. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Mədəniyyət nazirliklərinin kollektivləri də öz fəaliyyətləri ilə tədbirə töhfə veriblər. Eyni zamanda iştirakçıların asudə vaxtının, mədəni istirahətinin təmini üçün ərazidə iaşə xidmətləri də təşkil olunub.

Tədbir uşaq musiqi məktəbləri kollektivlərinin bədii kompozisiyası ilə davam edib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Fransa siyasətində müstəmləkəçilik xətti aydın görünür"

### Törətdiyi vəhşiliklər Parisin əsl simasını nümayiş etdirir

**Demokratiyadan, insan hüquqlarından dəm vuran Fransanın siyasətində bunların heç birini görmək mümkün deyil. Uzun illərdir müstəmləkə siyasəti yürüdən bu ölkənin həm daxili, həm də xarici siyasətinin yarıtmaz vəziyyətdə olduğu açıq-aydın ortadadır.**



Azərbaycanı daim müxtəlif bəhanələrlə günahlandıran, ölkəmizə qarşı qarayaxma kampaniyaları həyata keçirən Parisin son olaraq Yeni Kaledoniyada dinc etirazçılara qarşı törətdiyi vəhşiliklər də Fransanın əsl simasını göstərdi.

Ümumiyyətlə, dənizaşırı ölkələrin xalqlarının müstəqilliyini daim boğan, onların azadlığına mane olan Fransanın özünün demokratiya ölkəsi kimi təbliği gülüncdür. Çünki nə qədər pərdələnməyə çalışsa da, törətdiyi cinayətləri, yürütdüyü neokolonialist siyasəti gizlədə bilməz.

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında qeyd edib ki, Fransa özünü müasir və demokratik ölkə hesab etsə də, bu gün onun xarici siyasətində müstəmləkəçiliyin qalıqları kifayət qədər bariz görünür. Ölkənin indiki prezidenti Emmanuel Makron isə bu siyasəti daha da gücləndirməyə çalışır: "Nəticədə dünya Fransanın öz müstəmləkələrindən əl çəkmədiyinin, orada yerli xalqın azadlıq istəyini boğduğunun şahidi olur. Buna misal kimi Yeni Kaledoniyanı, Polineziyanı göstərmək olar. Fransanın burada həm siyasi, həm iqtisadi maraqları var. Ancaq dünya bu gün iqtisadi maraqları tam başqa formada həyata keçirir. Fransa isə buna hazır deyil. Bunun nəticəsidir ki, o, uzaq ada ərazilərini müstəmləkə kimi saxlayır və onlara müstəqillik vermək istəmir. Ancaq tarixin təkərini dayandırmaq mümkün deyil".

Deputat vurğulayıb ki, Fransa gec-tez onların müstəqilliyini tanımağa məcbur olacaq. Bu gün dünya buna israrlıdır, dünyada gedən proseslər bunu tələb edir. Müstəqillik arzusunun üç-beş il, lap onilliklərlə qabağını almaq olar, amma ümumilikdə həmin yerli xalqlar dünya birliyində öz yerini tutmağa çalışır. Azərbaycan bu məsələdə həmin xalqları siyasi cəhətdən dəstəkləyir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Avropa Parlamenti fəaliyyətini ədalətsizlik üzərində qurub"

### Belçika polisinin bu təşkilatın ofisində axtarış aparması təəccüblü deyil

**"Belçika polisinin Avropa Parlamenti ofisində axtarış aparması təəccüblü deyil. Ötən hadisələr göstərir ki, Avropa Parlamenti, əslində, ədaləti müdafiə etmək üçün deyil, yalnız öz maraqlarını təmin etmək üçün toplantı keçirir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat hesab edir ki, AP-nin deputatları nəyinsə müqabilində hansısa maraqlarını müdafiə edirlər. Buna keçmiş Azərbaycan-Ermənistan münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar zamanı dəfələrlə şahidlik etmişik: "Avropa Parlamentinin ədalətsiz mövqeyi hamıya məlumdur. Erməni tərəfi təcavüzkar idi, ancaq bu təşkilat bir dəfə də olsun Azərbaycan torpaqlarının işğal olunduğunu etiraf etmədi. 2001-ci ilin yanvar ayında Avropa Parlamentinin üzvü olmaqla bu təşkilata ədalət, haqqı müdafiə etmək üçün getdik. Çox təəssüflər olsun ki, bu parlament şurasının üzvlərinin əksəriyyəti Ermənistanın ədalətsiz mövqeyini müdafiə etdilər. Azərbaycanın haqqını, istəklərini qulaqardına vurdular".

Deputatın sözlərinə görə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi məlum 4 qətnamənin icrasını özü reallaşdıranda, terrorçuları qovub öz ərazisindən çıxardanda Avropa Parlamenti əndişəyə düşdü. Hətta ölkəmizə müxtəlif səviyyələrdə təzyiqlər göstərməyə də başladı. Amma bu təzyiqlərin heç bir əhəmiyyəti olmadı. Azərbaycanda iqtidar-xalq birliyi və xalqın "dəmir yumruq" kimi Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşməsi, Prezidentin qətiyyəti antiazərbaycançı şəbəkənin bütün arzu və istəklərini ürəyində qoydu.

Deputat qeyd edib ki, Azərbaycan 2023-cü ilin sentyabrında antiterror əməliyyatı ilə suverenliyini tam bərpa edəndə isə Avropa Şurası Parlament Assambleyası buna dözmədi və ölkəmizi parlament sıralarından kənarlaşdırmaq qərarına gəldi: "Təbii ki, bu fikir var idi, amma Azərbaycan tərəfi onu gözləmədi. Bəyanat verərək bu qurumda fəaliyyətini özü dayandırdı".

A.İsgəndərov hesab edir ki, bu gün yenə də Avropa Parlamenti Azərbaycana qarşı qərəzini gizlətmir. Azərbaycanla bağlı hər cür böhtanlara əl atır. Xüsusilə Fransadan, Almaniyadan olan deputatlar ölkəmizə qarşı böhtan atmaq uğrunda yarışa giriblər. Ancaq bunlar hamısı əbəsdir. Bu parlamentdə korrupsiya halları kifayət qədər çoxdur. Deputatlarla bağlı şübhələr var, onlar istintaqa cəlb ediliblər. Bütün bunlar Avropa Parlamentinin heç zaman nümunə ola bilməyəcəyini və hər hansı bir tövsiyəsinin Azərbaycanın maraqlarına uyğun olmadığını göstərir: "Çünki Avropa Parlamenti ilk gündən Ermənistanın buyurduqlarını həyata keçirib, bu isə Azərbaycanın maraqlarına ziddiyyət təşkil edib. Bir sözlə, Avropa Parlamenti fəaliyyətini ədalətsizlik üzərində qurub".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*



## Rüşvətlə işləyən qurum

**"Demokratiyadan dəm vuran Avropa Parlamenti rüşvət və korrupsiya yuvasına çevrilib. Avroparlament belə faktlara görə dünyada artıq antidemokratik qurum kimi tanınır. Bu bir daha sübut edir ki, nəinki parlament, Avropada bir sıra strukturlar da böhran keçirir. Dəfələrlə ifşa edilmələrinə baxmayaraq, öz çirkin əməllərini davam etdirən belə qurumların fəaliyyətinə yenidən baxılmalıdır".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Avropa Parlamentində rüşvət və korrupsiya faktları ilə bağlı mütəmadi olaraq cinayət işləri qaldırılır: "Bir sıra dövlətlərin Avroparlamentdə təmsil olunan deputatları barədə həbs-qətimkan tədbirləri seçilir, özlərinin və köməkçilərinin ofisində axtarışlar aparılır. Bir neçə gün əvvəl sözügedən parlamentdə yeni korrupsiya qalmaqalı yaşanıb. Məlumatlara əsasən, artıq bir deputatın köməkçisi haqda cinayət işi qaldırılıb. Bütün bunlar göstərir ki, Avropa Parlamentində nə qədər demokratik dəyərlərdən və insan haqlarından danışılsa da, orada korrupsiya və rüşvət halları baş alıb gedir".

Deputat söyləyib ki, iyunun 6-9-da Avropa Parlamentinə keçiriləcək seçkilərlə bağlı olaraq namizədlərarası "mübarizə" genişlənib: "Məsələ elə bir vəziyyətə gəlib çıxıb ki, artıq korrupsiya və rüşvət faktları ilə bağlı müxtəlif dövlətlər günahlandırılır. Son qalmaqalın hədəfi də Rusiyadır. Guya Rusiya Avropa Parlamentində öz nüfuzunu artırmaq üçün rüşvət verib. Lakin bu, Rusiya tərəfindən təkzib edilib".

Arzu Nağıyev Avroparlamentdə aşkarlanan rüşvət və korrupsiya hallarında "erməni izi" barədə də danışıb. Bildirib ki, erməniəsilli oliqarxlar avroparlamentarilərə külli miqdarda rüşvət verməkdə ad çıxarıblar: "Avropa Parlamentində nüfuzunu artırmağa çalışan erməni lobbisi müxtəlif deputatların korrupsiyaya cəlb edilməsinə çalışır, eyni zamanda parlamentariləri separatizmi dəstəkləyəcək qərarlar qəbul etmələri üçün rüşvətlə ələ alır. Beləliklə, onlar müxtəlif dövlətləri insan haqlarını tapdalamaqda günahlandırır, ittihamlar irəli sürürlər. Bu faktlar hərtərəfli araşdırılmalı və ictimaiyyətə məlumat verilməlidir. Mühüm qərarlar qəbul etməsi lazım olan bir qurumda belə xoşagəlməz halların getdikcə genişlənməsi onun əsl mahiyyətindən xəbər verir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Xristian klubunun korrupsiya yuvası

### Avropa Parlamentində rüşvət qalmaqalı bu təşkilatın kimlərinsə sifarişlərini yerinə yetirdiyini təsdiqləyir

**"Avropa Parlamentində rüşvət və korrupsiya adi bir hala çevrilib və bu, artıq heç kimi təəccübləndirmir. Parlamentdə təmsil olunan deputatlar mütəmadi olaraq lobbiçilik fəaliyyəti, cürbəcür dəstəklər adı altında rüşvət qalmaqalları ilə gündəmə gəlirlər".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov deyib. Deputatın sözlərinə görə, bu dəfə də "Russiagate" faktları ortaya çıxıb və Avropa Parlamentinin bəzi deputatları bununla bağlı istintaqa cəlb olunublar. Almaniyada aparılan istintaq çərçivəsində sağ mərkəzçi Avropa Xalq Partiyasının Brüsseldəki qərargahında artıq axtarış aparılıb. Bu partiya Avropada ən böyük partiyadır və Avropa Parlamentində ən çox səs çoxluğuna malikdir. 2022-ci ilin dekabrında Belçika polisi yenə Brüsseldə onlarca mənzildə və ofislərdə axtarış aparmışdı və parlamentin vitse-prezidenti Eva Kaili daxil olmaqla, dörd nəfər həbs olunmuşdu. Belçika Prokurorluğunun rəsmi məlumatına görə, istintaqa cəlb edilənlər Avropa Parlamentinin qərarlarına təsir göstərmək məqsədilə üçüncü şəxslərdən külli miqdarda pul və hədiyyə almaqda şübhəli bilinmişdilər.

Deputat qeyd edib ki, Avropa Parlamentində bir qrup deputat qəbul olunan qanunlara və onun siyasətinə təsir göstərmək üçün özəl şirkətlərlə, şəxslərlə əlaqələrə malikdirlər: "Belə sövdələşmələrdən deputatlar ildə təqribən 9-10 milyon avrodan çox qazanc əldə edirlər. Onlar müxtəlif yollarla hansısa qruplardan, şəxslərdən rüşvət almaqla tez-tez gündəmə gəlirlər. Budur, Avropa Parlamentinin iç üzü. O parlament ki Azərbaycan kimi müstəqil siyasət həyata keçirən dövlətlərə müxtəlif yollarla təsir göstərməyə çalışır. Daxilində bu boyda problemləri ola-ola, islamofobiya, türkofobiya, azərbaycanofobiya siyasəti həyata keçirir. Demək olar ki, Avropa Parlamentini xristian klubuna çevirərək hətta insa-



nın irqinə, milliyyətinə görə ayrı-seçkiliyə yol verirlər".

V.İsgəndərov vurğulayıb ki, Avropa Parlamenti özünü daxildən təmizləməlidir. Əsl siyasətçilər, keçmişi və bu günü təmiz olan insanlar bu parlamentə seçilməli və öz ölkələrini təmsil etməlidirlər. Həmçinin beynəlxalq arenada digər ölkələrə ədalətli yanaşma sərgilənməlidir: "Avropa Parlamentinə gələcək seçkilərdə rüşvət, korrupsiya qalmaqalları ilə məşhur olmaqdansa, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə faydalı olmağı arzulayırıq".

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*



## Turistlər Numeanı tərk edə bilmirlər

### Qabriel ATTAL: "Yeni Kaledoniyada vəziyyət gərgin olaraq qalır"

**Fransanın Baş nazirinin sözlərinə görə, adada vəziyyət gərgin olaraq qalarkən Yeni Kaledoniyadan turistlərin təxliyəsi ləng templə həyata keçirilir. Bu barədə "Euronews" telekanalı xəbər verir.**

Mayın ortalarında Yeni Kaledoniyada müstəqillik tərəfdarlarının etiraz aksiyaları, ardınca isə iğtişaşlar baş verib. Adada fövqəladə vəziyyət elan edilib və Numea hava limanı iyunun 2-dək kommersiya uçuşları üçün bağlanıb. Hazırda onlarla fransız turist Yeni Kaledoniyanı tərk edə bilmir.

İnsanlar özlərini tərk edilmiş hiss etdiklərini, yerli hakimiyyət orqanları isə adada sakitliyi qorumaq üçün əllərindən gələni etdiklərini deyirlər.

Xatırladaq ki, ötən ayın 14-də Yeni Kaledoniyada Fransa parlamentinin seçki qanunvericiliyinə dəyişiklikləri nəzərdən keçirməsi ilə bağlı etirazlar başlayıb. Toqquşma nəticəsində iki həftə ərzində adada ikisi jandarm olmaqla 7 nəfər həlak olub. Paris fövqəladə vəziyyət elan etməyə və adaya əlavə hüquq-mühafizə qüvvələri göndərməyə məcbur olub. Fövqəladə vəziyyət daha sonra ləğv edilib, lakin komendant saatının tətbiqi davam edir. Cümə günü yerli hakimiyyət orqanları Numea hava limanının iyunun 3-ü səhərə qədər kommersiya uçuşları üçün bağlı qalacağını açıqlayıb. Fransa, Avstraliya və Yeni Zelandiyadan olan hərbi nəqliyyat təyyarələri son bir neçə gündə 1600-dən çox fransız və xarici turisti adadan təxliyə edib. Son məlumata görə,





Fransanın Baş naziri Qabriel Attal yerli TF1 telekanalına bildirib ki, Yeni Kaledoniyada vəziyyət gərgin olaraq qalır.

Beşinci respublikanın "xüsusi inzibati-ərazi qurumu" adlandırılan, əslində isə müstəmləkəsi olan bu adalar qrupu Avstraliyanın şərqində, Sakit okeanın cənubunda yerləşir. Əhalisi 270 min nəfərdir ki, onlardan da 40 faizi yerli kanak xalqıdır.

Arxipelaq 1774-cü ildə məşhur ingilis dəniz səyyahı Ceyms Kuk tərəfindən kəşf edilib. Bundan sonra orada avropalı müstəmləkəçilər peyda olmağa başlayıblar. Fransa 1853-cü ildə bu əraziləri öz mülkü elan edib. 1998-ci ildə Paris və Numea Yeni Kaledoniyada 20 ildən sonra adaların gələcəyi ilə bağlı üç referendumun keçiriləcəyinə dair saziş imzalayıblar. İlk iki plebissitdə müstəqillik tərəfdarları cüzi fərqlə məğlub olmuş, koronavirus epidemiyası dövründə keçirilən üçüncü referendum isə kanaklar tərəfindən boykot edilmişdi.

Yeni Kaledoniya müəyyən muxtariyyətə malikdir, lakin eyni zamanda təhsil, müdafiə məsələlərində Parisdən asılıdır. Fransanı burada Beşinci respublikanın prezidenti tərəfindən təyin olunan ali komissar təmsil edir.

Emmanuel Makronun diktator vərdişləri, uğursuz siyasəti ucbatından Fransa xüsusi inzibati-ərazi qurumu statusuna malik olan Yeni Kaledoniyanı itirə bilər.

Fransa Prezidenti Yeni Kaledoniyanın yerli əhalisi olan kanakların müstəqillik elan etmək cəhdlərinin qarşısını almaq məqsədi güdən yeni seçki qanunu təqdim etmək istəyir. Lakin bu, əks effekt verib və Numeanın fransız xüsusi təyinatlıları, zirehli texnika və jandarmlarla dolu olmasına baxmayaraq, bu gün də davam edən xalq üsyanına səbəb olub.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*



## "Böyük qayıdış" proqramı sürətlə icra olunur



# Laçında kiçik su-elektrik stansiyasının tikintisinə başlanıldı

**Kəlbəcər və Laçın rayonlarında 5 kiçik su-elektrik stansiyasının istismarı layihəsi çərçivəsində "Malıbəy" Kiçik Su-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə iqtisadiyyat nazirinin müavini Anar Axundov, Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov, "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktoru Ülvi Mansurov, "Demirören Yatırım Holding A.Ş." Şirkətlər Qrupunun İdarə Heyətinin sədri Yıldırım Dəmirörən, "Arges Enerji Team" MMC-nin rəhbəri Mehmet Fehmi Özata və İqtisadiyyat Nazirliyinin aidiyyəti strukturlarının nümayəndələri iştirak ediblər.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərin alternativ və "yaşıl enerji" zonasına çevrilməsi uğurla təmin edilir. Regionda infrastruktur təminatının yüksəldilməsi məqsədilə müasir tələblərə cavab verən elektrik enerjisi təchizatı sistemi formalaşdırılır. "Yaşıl enerji" təchizatında su-elektrik stansiyalarının əhəmiyyətli rolu var. Azad edilmiş ərazilərimizdəki çayların hidropotensialının yüksək olması bu sahədə layihələrin səmərəliliyini artırır. Bu istiqamətdə özəl sərmayədarlarla əməkdaşlıq önəm kəsb edir.

Vurğulanıb ki, Kəlbəcər və Laçında kiçik su-elektrik stansiyalarının istismarı layihəsi Azərbaycan-Türkiyə qardaşlığının daha bir göstəricisidir. Bu, azad edilmiş ərazilərimizdə özəl sektorla birgə icra edilən ilk su-elektrik stansiyası layihəsidir. Layihənin birinci mərhələsi üzrə təməli qoyulan "Malıbəy" stansiyasının istismara verilməsi ildə təxminən 7 min evi elektrik enerjisi ilə təmin etmək imkanı yaradacaq.

Ötən ilin dekabrında "Azərbaycan İnvestisiya Şirkəti" ASC, Türkiyənin "Demirören Yatırım Holding A.Ş." Şirkətlər Qrupu və "Arges Enerji Team" MMC arasında imzalanmış Birgə İştirak Müqaviləsi əsasında, Həkəri və Tərtər çayları üzərində 5 kiçik su-elektrik stansiyası istismara veriləcək. Layihənin ümumi dəyəri 25 milyon manatdır. Ümumilikdə 13,8 MVt gücündə olan 5 stansiyanın 2025-ci ildə tam istifadəyə verilməsi nəzərdə tutulur. Stansiyaların istismar müddəti 30 ildir. Layihənin icrası 25 yeni iş yerinin yaradılmasına imkan verəcək.

Layihə çərçivəsində Laçın rayonu ərazisindən keçən Zabux çayı üzərində I mərhələ üzrə bu gün təməli qoyulan "Malıbəy" - 5,1 MVt, II mərhələ üzrə "Qalaça 2" - 3,4 MVt, "Minkənd" - 1,8 MVt, "Qalaça 1" - 1,1 MVt gücündə, III mərhələ üzrə Kəlbəcər rayonu ərazisindən keçən Tərtər çayı üzərində gücü 2,4 MVt olan "Tərtər 1" kiçik su-elektrik stansiyalarının tikintisi planlaşdırılır.

# *Prezidentin xüsusi nümayəndəsi:* "İndiyədək Laçın rayonunda 9 su-elektrik stansiyasının təməli qoyulub"

**"Prezident İlham Əliyevin azad olunmuş əraziləri "netto sıfır emissiya" elan etməsi ölkəmizdə "yaşıl enerji" strategiyasının əsas elementlərindən biridir".**



AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov deyib. O bildirib ki, məhz bu gün Malıbəydə kiçik su-elektrik stansiyasının istifadəyə verilməsi bunun bariz nümunəsidir.

"Bu stansiyanın istifadəyə verilməsi həm də məşğulluğun yaradılması baxımından da vacibdir. Burada ixtisaslı kadrların işləməsi potensialın artmasına imkan verəcək. İndiyədək Laçın rayonunda 9 su-elektrik stansiyasının təməli qoyulub. Onların ümumi potensialı 80 meqavata yaxındır", - M.Məmmədov deyib.

# Ermənistanın Azərbaycandan üzr istəyəcəyi gün də gələcək

**"Erməni canilərinin cinayətlərindən və işğalından ən çox əziyyət çəkən Xocalı bir neçə gün əvvəl doğma sakinlərinə qucaq açdı. Mayın 28-də xocalılılar öz yurdlarına qayıtmaqla göz açdıqları doğma torpaqlarda bayram sevinci yaşadılar. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva onlara yeni həyat bəxş etdilər".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat qeyd edib ki, ermənilər 1992-ci ildə bir gecədə 613 Xocalı sakinini vəhşicəsinə qətlə yetirərək soyqırımı törədiblər: "32 il əvvəl xocalılılar evlərini tərk edərək qışın soyuğunda dağları ayaqyalın aşaraq böyük əziyyətlə respublikanın müxtəlif bölgələrinə səpələndilər. Onlar ötən 32 ildə çadır şəhərciklərində, yataqxanalarda, sonradan qaçqınlar üçün salınmış şəhərciklərdə yaşamalı olublar. Keçmiş məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün dövlətimiz tərəfindən müntəzəm tədbirlər görülməsinə baxmayaraq, hər kəsə məlumdur ki, doğma ata yurdunu heç nə ilə əvəz etmək mümkün deyil".

Deputat bildirib ki, Prezidentimiz öz ad günündə və ya dövlətimiz üçün əlamətdar olan günlərdə işğaldan azad edilmiş ərazilərə səfərlər edir, yeni yaşayış məntəqələrinin təməllərini qoyur, keçmiş məcburi köçkünlərlə bərpa olunmuş şəhər və kəndlərdə görüşərək onlara evlərin açarlarını təqdim edir və səmimi söhbət aparır: "Son bir neçə ildə dövlətimizin başçısı Müstəqillik Gününü də Ağalıda və Laçında keçirərək keçmiş məcburi köçkünləri sevindirib".

Müsahibimiz deyib ki, işğaldan azad olunmuş ərazilərdə yenidən qurulan və bərpa olunan yaşayış məntəqələrində rahat yaşayış üçün hər bir şərait yaradılır. Vaxtilə öz yurdlarından faciəli şəkildə qaçmağa məcbur olmuş soydaşlarımız indi böyük sevinc və fəxarət hissi ilə dövlətimizin qurub-yaratdığı doğma yurdlarına, müasir evlərinə qayıdırlar.

Xocalı şəhərinin cəmi 8 ayda yenidən qurularaq doğma sakinlərini qarşılamasını əlamətdar hadisə adlandıran deputat deyib ki, Prezident Xocalının azad ediləcəyini əvvəlcədən bilirdi və elə ona görə də Xocalı Soyqırımı abidəsinin Bakıda tikilməsinə icazə vermirdi: "Bu gün həmin abidə Xocalıda tikilir və soyqırımı qurbanlarının xatirəsi məhz Xocalıda əbədiləşdirilir. Yeri gəlmişkən, Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə keçirilən "Xocalıya ədalət" kampaniyası sayəsində Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində işlər bu gün də uğurla davam etdirilir. Xocalı soyqırımı ermənilərin törətdikləri hərbi cinayətlərin və vəhşiliklərin bariz göstəricisi kimi bütün dünyaya təqdim olunur.



Prezident İlham Əliyev Xocalı sakinləri ilə görüşü zamanı bu məsələni xüsusilə vurğulayaraq qeyd etdi ki, Ermənistan Xocalıda törətdiyi soyqırımına görə Azərbaycan xalqından rəsmi şəkildə üzr istəməlidir. Bəli, biz Ermənistanın ölkəmizdə törətdiyi soyqırımlarına görə üzr istəyəcəyi günün də şahidi olacağıq".

Azər Badamov xatırladıb ki, dövlət başçımız xocalılılarla görüşdə Ermənistanda baş qaldıran revanşistlərə də ciddi mesajlar verdi: "Revanşizm fikrinə düşərək ərazi iddiaları ilə çıxış edənlərə onları daha böyük fəlakətlərin gözlədiyinə dair xəbərdarlıq edildi. Bu gün Ermənistanda revanşizmdən dəm vuranlar dövlətimizin başçısının dediklərindən nəticə çıxarmalıdırlar. Nəzərə almalıdırlar ki, Prezident İlham Əliyevin dediyi hər bir söz ən qısa zamanda reallaşır".

Azər Badamov onu da vurğulayıb ki, xalqımızın bu gün yaşadığı sevincli günlər yuxu kimi görünür: "Prezident İlham Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində torpaqlarımızın işğaldan azad olunması Azərbaycan xalqının başını ucaldıb, qürurumuzu özümüzə qaytarıb. Qarabağda erməni separatizminə son qoyulması isə Vətən müharibəsində əldə etdiyimiz zəfərin davamı oldu. Bu tarixi qələbə ermənilərin Qarabağla bağlı mənfur planlarını bir daha alt-üst etdi. Bununla yenidən baş qaldıraraq ərazilərimizdə təhlükə mənbəyinə çevrilən separatçıların kökü birdəfəlik kəsildi. Prinsipial siyasi addımlarımız sayəsində bütün ərazilərimizdə suverenliyimiz tam bərpa olundu".

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

# Laçında kütləvi idman tədbiri keçirilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının birgə təşkilatçılığı ilə Laçın şəhərində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş kütləvi idman tədbiri keçirilib.**

AZƏRTAC xəbər verir ki, Laçın rayonunda fəaliyyət göstərən iki təhsil müəssisəsinin - şəhər 2 saylı və Zabux kənd tam orta məktəblərinin komandaları arasında mini-futbol oyunu keçirilib. Laçına qayıdışın başlanmasının birinci ildönümünə təsadüf edən tədbirdə təşkilatçı qurumların rəsmi şəxsləri, məktəblilər, valideynlər, ictimai fəallar iştirak ediblər.

Əvvəlcə şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, sonra Dövlət himni səsləndirilib. Bildirilib ki, tədbirin məqsədi Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlər arasında təbliğat-təşviqat işlərinin aparılması, doğma yurda geri dönən ailələrdən olan uşaqların idmana marağının artırılmasıdır. Qeyd edilib ki, gənc nəslin mənəvi və fiziki cəhətdən sağlam böyüməsinə hərtərəfli dəstək verilməsi Prezident İlham Əliyevin sosial siyasətinin mühüm istiqamətidir. Birinci vitse-prezident Mehriban Əliyeva da bu sahəyə xüsusi diqqət yetirir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu uşaqlar və yeniyetmələr arasında sağlam həyat tərzinin təbliğinə öz töhfələrini verir.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov bildirib ki, dövlətimizin başçısının tapşırıqlarına əsasən, Laçın rayonunda aparılan bərpa-quruculuq işləri geri qayıdan sakinlər üçün yüksək səviyyədə yaşayış şəraitinin təmin olunmasına yönəlib. Onların bədən tərbiyəsi və idmanla məşğul olması, asudə vaxtlarını səmərəli keçirməsi üçün də imkanlar yaradılır. Şəhərdə və yenidən salınan yaşayış məntəqələrində müasir tələblərə cavab verən idman qurğuları inşa edilib və istifadəyə verilib. Uşaqlar və yeniyetmələr müxtəlif idman növləri ilə məşğul olmağa həvəsləndirilirlər. Məsim Məmmədov laçınlıların öz ata-baba yurdlarına qayıdışının getdikcə daha geniş miqyas aldığını, ölkə rəhbərliyinin bununla bağlı məsələləri daim diqqətdə saxladığını vurğulayıb. O, rayonun özünəməxsus idman ənənələrinin olduğunu, laçınlı uşaq və gənclərin Azərbaycan idmanının inkişafına bundan sonra da layiqli töhfələr verəcəyinə əminliyini ifadə edib.

Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti Asif Əliyev, veteran futbolçu Asim Xudiyev, Laçın şəhər 2 nömrəli tam orta məktəbin direktoru Sevinc Cabbarova, Zabux kəndinin sakini İlham Əliyev çıxış edərək, Laçına və işğaldan azad edilmiş digər ərazilərə Böyük qayıdışın başlanmasının xalqımıza böyük sevinc bəxş etdiyini bildiriblər. Onlar doğma yurda geri dönən insanların yeni yaşayış mühitinə uyğunlaşması istiqamətində tədbirlərin əhəmiyyətini vurğulayıb, bu baxımdan yerlərdə idman yarışlarının təşkilinin əhəmiyyətli olduğunu qeyd ediblər.

Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyası oyundan əvvəl hər iki məktəbdən olan 70-dən çox şagirdə futbol topu, geyimi və ayaqqabısı hədiyyə edib. Maraqlı keçən oyunda Laçın şəhər 2 saylı tam orta məktəbin komandası 2:1 hesabı ilə qalib gəlib.

Sonda tədbir iştirakçıları birlikdə xatirə şəkli çəkdiriblər.

# "Məni doğma evimə qaytaran Müzəffər Ali Baş Komandana minnətdaram"

**Bu günlər xalqımız həyatının ən xoş çağlarını yaşayır. 32 ildən sonra Xocalıya, Xankəndiyə, Əsgərana, Ağdərəyə, bütövlükdə Qarabağa qayıdırıq. Doğma ocaqlar, dədə-baba yurdları əbədi-əzəli sakinlərini yenidən qoynuna alır.**





32 il əvvəl bütün bunlar yalnız xəyal idi. Amma artıq arzular, istəklər reallığa çevrilir. İndi biz xəyalların reallaşdığı bir dövrdə yaşayırıq. Bu gün şuşalılar, laçınlılar, füzulililər, xocalılılar doğma ocaqlarına qayıdırlar. İşğaldan azad olunmuş başqa bölgələrdə də kəndlərin, qəsəbələrin və rayon mərkəzlərinin bünövrəsi qoyulur. Davamlı olaraq bərpa və quruculuq işləri aparılır.

Xəyallar bir günün, bir anın içində gerçəkləşmədi. Bu, Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında apardığı gərgin və uğurlu döyüşlərdən sonra reallaşdı. İllərdən bəri Qarabağda məskunlaşmış erməni separatçılarına həlledici və sarsıdıcı zərbə isə 19-20 sentyabr 2023-cü ildə uğurla həyata keçirilən antiterror tədbirində vuruldu. 23 saat 43 dəqiqə çəkən əməliyyat zamanı separatçılar diz çökdürüldü. Bundan sonra Qarabağın qapıları xalqımızın üzünə geniş açıldı. Antiterror əməliyyatı başa çatan kimi separatçılardan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə başlanıldı. Artıq Xocalıda da tikilmiş və bərpa olunmuş evlər qapısını əbədi-əzəli sakinlərinin üzünə açıb, köç başlanıb.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər. Dövlətimizin başçısı Xocalı sakinlərinə mənzillərin açarlarını təqdim edib. Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva sakinlərlə birlikdə Xocalı şəhərini gəziblər, burada görülən işlər və Xocalı şəhərinin baş planı ilə tanış olublar.

Böyük sevinc içində doğma ocaqlarına dönən Xocalı sakinlərindən biri də Əməkdar jurnalist Səriyyə Müslümqızıdır. Dövlətimizin başçısı Səriyyə xanımın evində, həyətində olub, onunla söhbət edib. Həyatının ən gözəl, ən yaddaqalan anlarını yaşayan Səriyyə Müslümqızı təəssüratlarını bizimlə də bölüşdü: "Uzun illərdən sonra doğma yurdum Xocalıya qayıtmışam, evəşiyimə dönmüşəm. Mən bu evdə doğulub böyümüşəm. Taleyə, qismətə baxın ki, Xocalıdan məcburi köçkün düşəndə 32 yaşım var idi. Düz 32 ildən sonra doğma ocaqlarımıza qayıtmışam. Yaşadığım ömrün yarısı qaçqınlıqda keçib. Həmişə Xocalıya necə qayıdacağımı düşünürdüm. Erməni işğalçıları evimizi dağıtmamışdılar, hərbi məqsədlər üçün istifadə etmişdilər. Evi üç qız övladı böyütmüş anam tikmişdi. Bütün bunlar haqqında dövlət başçımıza danışdım. Artıq evimizə qayıtmışam. Mənim üçün bundan böyük səadət və xoşbəxtlik yoxdur. O da mənim üçün ikiqat sevincdir ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva həyatımə, evimə baxdılar. Ömrümün ən unudulmaz, ən xoşbəxt anlarını yaşadım. Sanki dünyaya yenidən gəlmişəm. Şükürlər olsun ki, xəyallarımız 32 ildən sonra gerçəkləşdi. Bu gün Xocalıya xəyallarımızı gerçəkləşdirən Müzəffər Ali Baş Komandana və Azərbaycan Ordusunun cəsur hərbçilərinə minnətdarlıq hissi ilə qayıdırıq. Təəssüflər olsun ki, erməni qəsbkarları anamı öldürdülər. İndi anamın ruhu şaddır ki, mən evimizin ermənilər tərəfindən söndürülmüş çırağını yandırmışam. Qayıdışımızla doğma ocaqlarımıza yeni həyat gətirəcəyik. Xocalını əvvəlki gözəl günlərinə qaytaracağıq, şəhərimizi daha da gözəlləşdirəcəyik".

32 ildən sonra doğma ocaqlarına qayıdan insanların üz-gözündən sevinc yağırdı. Sevinc sevincə qarışmışdı. İllərdən bəri gözlədikləri gün bir yaz günündə onların qapısını döymüşdü. Doğma sakinlərini qoynuna alan Xocalının da üzü gülürdü. Həm Xocalının, həm də xocalılıların çətin, keşməkeşli günləri artıq arxada qaldı. Separatçılar məhv edildi, sağ qalanlar silahlarını yerə qoyub könüllü olaraq Qarabağdan çıxıb getdilər. Bundan sonra Xocalı sakinlərinin xoşbəxt günləri başlayacaq. Bir daha bu torpaqlara erməni separatçılarının ayağı dəyməyəcək. Xocalı daha da gözəlləşəcək, Qarabağ cənnətə dönəcək.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***



# Şəhid ataları və qazilər Cəbrayıl, Zəngilan və Qubadlıda olublar

**Bakı, Lənkəran, Astara və Sabirabaddan olan, 44 günlük Vətən müharibəsində Şərqi Zəngəzur bölgəsinin Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarında erməni işğalçılarına qarşı döyüşlərdə igidlik göstərərək şəhidlik zirvəsinə yüksəlmiş əsgərlərimizin valideynləri və qazilər həmin torpaqlara səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə həyata keçirilən "Şərqi Zəngəzur - Quruculuq və Böyük Qayıdışın ünvanı" layihəsi çərçivəsində gerçəkləşən səfər "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi tərəfindən təşkil olunub.

Şəhid Mahsun Bağırzadənin atası Zahir Bağırov, şəhid Bəxtiyar Mayılovun atası İxtiyar Mayılov övladlarının şəhid olduqları məkanları ziyarət edib, onların səngər yoldaşları, son döyüşlərinin şahidləri baş leytenant Elnur Talıbov, II qrup əlil Möhnət Səmədovun xatirələrini dinləyiblər.

Şəhidlərin II Qarabağ müharibəsində hərbi xidmət keçdikləri N saylı hərbi hissənin şəxsi heyəti ilə görüşdə çıxış edən şəhid ataları və qazilər, "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri, yazıçı-publisist, tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlu, AMEA Lənkəran Regional Elmi Mərkəzinin direktoru, şair, filologiya üzrə fəlsəfə doktoru Mehman Qaraxanoğlu və başqaları Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əsgər və zabitlərimizin göstərdikləri igidlikdən danışıb, qazanılan möhtəşəm Zəfərin tarixi-siyasi, mənəvi-psixoloji əhəmiyyətini vurğulayıblar.

Səfər iştirakçıları Cəbrayıl, Zəngilan və Qubadlıda görülən genişmiqyaslı bərpa-tikinti işləri ilə, Zəngilanın Ağalı kəndində yurd yerlərinə qayıdan ailələr üçün yaradılan şəraitlə tanış olublar.






## Nüsrət SÜLEYMANOV: "İqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək üçün mina problemini həll etməliyik"

**"Minatəmizləmə sahəsində böyük təcrübə qazanan və onu artırmaqda davam edən Azərbaycan bu təcrübəni eyni problemdən əziyyət çəkən digər ölkələrlə bölüşməyə hazırdır. Həmin bilik və təcrübəni əldə etmək bizə baha başa gəlib".**




AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsi müdirinin müavini Nüsrət Süleymanov "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda III Beynəlxalq Minatəmizləmə Konfransının yekununda çıxışı zamanı deyib.

Mina və partlamamış hərbi sursatların (PHS) ölümcül fəsadlarına toxunan Prezident Administrasiyasının nümayəndəsi bildirib: "Minalar və partlamamış hərbi sursatlar milliyyətindən asılı olmayaraq insanların həyatlarına son qoyur. Biz əbəs yerə onları ölüm toxumları adlandırmırıq. Onlar həm insanları, həm də planetimizi öldürür. Bu, su, hava və torpaq üçün, eləcə də həyatlarımız üçün ciddi təhdiddir. Dünyada konfliktlərin artdığı bir vaxtda biz müharibələrin fəsadlarına qarşı birlikdə mübarizə aparmalıyıq. Həmin fəsadlardan ən dəhşətlisi minalar və partlamamış hərbi sursatlardır. Bu konfransda təmsil olunan ölkələrin xalqları bu dəhşətli reallığı yaxşı bilir".

Azərbaycanın bu il evsahibliyi edəcəyi COP29-da da bu məsələnin diqqət mərkəzində saxlanılacağını vurğulayan Nüsrət Süleymanov qeyd edib: "Məlumdur ki, bu il Azərbaycanda COP29 konfransı keçiriləcək. COP29-a evsahibliyi edən ölkə kimi biz bu konfransda iqlim dəyişikliyi məsələsi ilə yanaşı, mina problemini də qaldırmağı özümüzə borc bilirik. İqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək üçün mina problemini həll etməliyik. Nyu Yorkda keçiriləcək Gələcəyin Sammitini, Misirdə baş tutacaq Ümumdünya Şəhərsalma Forumunu (WUF12) və Bakının evsahibliyi edəcəyi COP29 tədbirini səbirsizliklə gözlədiyimiz bir vaxtda bu iki çağırış arasındakı qarşılıqlı əlaqəyə diqqət çəkərək onlara qarşı mübarizə aparmaqda qətiyyətliyik".

III Beynəlxalq Minatəmizləmə Konfransında minaların və partlamamış hərbi sursatların zərərləri və bu bəlaya qarşı uğurlu mübarizənin aparılması baxımından faydalı müzakirələrin aparıldığını qeyd edən Nüsrət Süleymanov bildirib: "Bu konfransın davam etdiyi iki gün bilik və təcrübə mübadiləsi aparmaq baxımından hamımız üçün faydalı keçdi. Konfrans həm bu problemin ciddiliyini qiymətləndirməyimiz, həm də çıxış yolu olduğunu dərk edərək səylərimizi gücləndirmək baxımından gözəl imkan yaratdı. Əminəm ki, gələn il yenidən görüşərək həm özümüz, həm də indiki və gələcək nəsillər üçün planetimizi daha təhlükəsiz və daha yaşıl məkana çevirmək istiqamətində əldə etdiyimiz nailiyyətləri müzakirə edəcəyik".

## Tədbirdə COP29 ilə əlaqədar radiasiya təhlükəsizliyi sahəsində görülən işlərdən danışılıb

**Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər planına uyğun olaraq Fövqəladə Hallar Nazirliyi (FHN) maarifləndirmə xarakterli tədbir keçirib.**



Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən məlumat verilib.

Nazirliyin müvafiq vəzifəli şəxsləri və FHN Akademiyasının kursantlarının iştirak etdiyi tədbirdə FHN-in Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinin rəis müavini Əkbər Quliyev "BMT-nin İqlim Dəyişikliyi Konfransı" mövzusunda geniş təqdimatla çıxış edib. O, iqlim dəyişmələrinin başvermə səbəbləri və bunun minimuma endirilməsi üçün Azərbaycanın göstərdiyi səylər barədə məlumat verərək Bakıda keçiriləcək COP29 ilə əlaqədar nüvə və radiasiya təhlükəsizliyi sahəsində agentliyin gördüyü işlər haqqında ətraflı danışıb.

Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Orta Asiya ölkələri Azərbaycanın "yaşıl gündəliyi"ni dəstəkləyirlər

**Hələ keçən ilin noyabr ayında Bakıda, İqtisadiyyat Nazirliyində keçirilən üçtərəfli görüşdə Mərkəzi Asiya ölkələrindən Azərbaycan ərazisi ilə Avropaya elektrik enerjisinin ixracı perspektivləri müzakirə edilmişdir. Tərəflər elektrik enerjisinin ixracı ilə bağlı birgə müəssisənin yaradılması və layihənin iqtisadi əsaslandırılmasına hazırlıq üzrə razılığa gəlmişlər.**



Azərbaycanın, Özbəkistanın və Qazaxıstanın iqtisadiyyat və energetika nazirlərinin iştirakı ilə keçirilən həmin görüşdə qeyd edilmişdi ki, üç ölkənin bərpaolunan enerjinin inkişafı və ixracı ilə bağlı yürütdüyü siyasət Azərbaycana Mərkəzi Asiya ölkələrindən Avropaya elektrik enerjisinin təchizi üzrə körpü rolunu oynamağa imkan verir. Belə ki, Azərbaycan Gürcüstan, Rumıniya və Macarıstanla birgə 4 QVt elektrik enerjisinin ixracına xidmət edəcək Xəzər dənizi-Qara dəniz-Avropa enerji dəhlizinin yaradılması üzərində işləyir. Daha 1 QVt "yaşıl enerji"nin Naxçıvan-Türkiyə-Avropa marşrutu ilə nəqli nəzərdə tutulub.

Görüşdə bildirilmişdi ki, Qazaxıstanın və Özbəkistanın həmin dəhlizlərə çıxış əldə etməsi bu ölkələrin elektrik enerjisi bazarlarının inkişafı, "yaşıl hidrogen"in, ammonyakın istehsalı və təchizatı üzrə əməkdaşlığını möhkəmləndirəcək. Tərəflər Azərbaycanın region ölkələrinin enerji sisteminin gələcək inkişafı üzrə səylərin koordinasiyası və sinxronlaşdırılması ilə bağlı təşəbbüsünü, eləcə də təmiz elektrik enerjisinin üçüncü ölkələrin bazarlarına təchizatı istiqamətində qarşılıqlı səylərini təqdir etmişlər. Nazirlər ölkələrin bərpaolunan enerji üzrə potensialını qeyd edərək, alternativ mənbələrdən alınan elektrik enerjisinin Avropaya ixracı ilə bağlı layihəyə qoşulmağa hazır olduqlarını bildirmişlər və görüşün nəticəsi kimi Birgə Kommünike imzalanmışdı.

Həmin hadisədən bir ay sonra isə Bakıda Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında Mərkəzi Asiyadan ölkəmizin ərazisi ilə Avropaya elektrik enerjisinin ixracı perspektivlərinin müzakirə olunduğu üçtərəfli görüşün nəticəsi kimi Birgə Kommünike qəbul edildi. Bu sənəddə bərpaolunan enerji mənbələrinə fokuslanan enerji mübadiləsi, "yaşıl hidrogen" və "yaşıl ammonyak"ın inkişafı və ixracı, müvafiq infrastrukturun yaradılması sahəsində əməkdaşlıq kimi məsələlər əks olundu. Sənədə əsasən, tərəflər elektrik enerjisinin ixracı ilə bağlı birgə müəssisənin yaradılması və layihənin iqtisadi əsaslandırılmasına hazırlıqla bağlı razılığa gəldilər. Birgə Kommünikeyə uyğun olaraq regionda üçüncü ölkələr bu layihədə iştirak edə bilər.

Nazirlər bu dəfə də ölkələrin bərpaolunan enerji sahəsində potensialını vurğulayaraq, alternativ mənbələrdən alınan elektrik enerjisinin Avropaya ixracı layihəsinə qoşulmağa hazır olduqlarını bir daha qeyd etdilər. Bu kontekstdə Azərbaycanın enerji sisteminə inteqrasiya edəndən sonra Qara dənizin dibi ilə yüksəkgərginlikli xətlərin çəkilməsi imkanlarının araşdırılmasına maraq ifadə olundu. Onlar həmçinin təsdiqlədilər ki, "yaşıl enerji"nin ötürülməsi layihəsinin inkişafı iştirakçı ölkələrin iqtisadiyyatları və enerji sistemləri arasında əlaqələri daha da gücləndirəcək, milli enerji sənayelərinə yeni təkan verəcək.

Azərbaycan və digər bir Orta Asiya ölkəsi - Tacikistan arasında da "yaşıl enerji"nin inkişafı sahəsində əməkdaşlıq üçün güclü potensial var. Bu barədə Tacikistan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyinin beynəlxalq iqtisadi əməkdaşlıq şöbəsinin müdiri Dilşod Şərifi belə deyib:

- Tacikistan əhəmiyyətli su ehtiyatlarına və hidroenergetikanın inkişafı üçün potensiala malikdir. Bizim birgə layihələrimizə su-elektrik stansiyalarının tikintisi və modernləşdirilməsinin də daxil olması mümkündür. Azərbaycan Tacikistanda su ehtiyatlarından istifadənin səmərəliliyini artıracaq hidroenergetika layihələrinin həyata keçirilməsi üçün investisiya texnologiyaları təqdim edə bilər. Hər iki ölkədə günəş şüalanmasının davamiyyəti yüksək səviyyəyə malikdir ki, bu da günəş enerjisinin inkişafı üçün əla şərait yaradır. Günəş parklarının yaradılması və ərazilərdə günəş panellərinin quraşdırılması qalıq yanacaqlardan asılılığı və istixana qazı emissiyalarını azaltmağa kömək edəcək. Bu baxımdan ölkələrimiz "yaşıl texnologiyalar"ın tədqiqi və inkişafı üzrə ixtisaslaşmış müştərək elmi-tədqiqat mərkəzlərinin və laboratoriyaların açılmasında qarşılıqlı fəaliyyət göstərə bilər. Texnologiyanın mənimsənilməsini sürətləndirməyə kömək edəcək bilik mübadiləsi aparmaq olar. Günəş enerjisindən istifadə ilə bağlı pilot layihələr də həyata keçirmək mümkündür.

Qonşumuz Türkmənistana gəlincə, qeyd etmək lazımdır ki, bu ölkənin ərazisinin 70 faizə qədəri səhralardır. Səhralar kənd təsərrüfatı və digər sahələr üçün yararlı olmasa da, günəş enerjisinin istehsalı üçün geniş potensiala malikdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM-nin) icraçı direktorunun müavini Ramil Hüseyn bununla bağlı deyib:

- Türkmənistanın Xəzərin sahilində yerləşməsi isə o deməkdir ki, külək enerjisi potensialı da var. Bu sahədə Azərbaycana investisiya qoyan Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti Türkmənistanda da "yaşıl enerji" istehsal edəcək. Yəni eyni şirkət "yaşıl enerji" sahəsində həm Azərbaycana, həm də Türkmənistana sərmayə qoyur. Bu, bizim əməkdaşlığımızı daha da yaxınlaşdıra bilər. Türkmənistan öz hədəfləri istiqamətində bir türk şirkəti ilə də işləyir. Amma bu sahədə işlər elə də böyük deyil. Çünki Türkmənistanda qaz isehsal olunur və onu enerjiyə çevirmək daha ucuzdur. Ölkənin isə cəmi 6 milyon əhalisi var və daxili tələbatı elə də böyük deyil. Əslində, "yaşıl enerji"nin istehsalı, xətlərin çəkilməsi və enerjinin ötürülməsi hazırda çox bahalı prosesdir. Amma Türkmənistanın potensialı böyükdür. Çünki ərazisinin 70 faizi buna yararlı olmaqla yanaşı, ildə 300 günəşli günü var. Biz artıq potensialımızı bilirik, hesablamışıq. Türkmənistan isə indi başlayır, bu istiqamətdə ilkin investisiyaları cəlb edir. Onun imkanları ilə bağlı daha dəqiq mənzərə gələcəkdə üzə çıxacaq.

Qırğızıstan barədə danışarkən isə onu deməliyik ki, bu ölkə tərəfindən bərpaolunan enerji mənbələrinin inkişafı üçün İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) ölkələrinin potensialından fəal istifadə etmək təklif olunub. Bu barədə Qırğızıstan Prezidenti Sadır Japarov keçən ilin noyabrında Özbəkistanın paytaxtı Daşkənddə keçirilən ECO-nun 16-cı sammitində çıxışı zamanı bildirib: "Birgə səylərimizi təşkilata üzv ölkələrin iqtisadi inkişafı üçün effektiv mexanizmlərin işlənib hazırlanmasına yönəltmək vacibdir. Bu mənada bərpaolunan enerji mənbələrinin inkişafı üçün üzv ölkələrin potensialından fəal istifadə etmək lazımdır".

Beləliklə, Qırğızıstan Prezidenti ECO çərçivəsində enerji sahəsində əməkdaşlığın inkişafının vacibliyini vurğulayıb.

Azərbaycanla bu sahədəki əməkdaşlığa gəldikdə isə cari ilin aprelində Qırğızıstan Prezidentinin ölkəmizə dövlət səfərini xatırlayaq. Bu səfər çərçivəsində ümumilikdə 18 sənəd imzalandı. Sənədlərdən biri də "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Qırğız Respublikasının Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" idi ki, bu da həmin istiqamətdə iki ölkə arasında əlaqələr üçün geniş perspektiv açır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# COP29-un Azərbaycanda keçirilməsi ölkəmizə göstərilən böyük etimaddır

**İqlim dəyişmələri, onun yaratdığı fəsadlar, təbiətə qarşı ögey münasibət və s. bəşəriyyəti çətin sual qarşısında qoyub. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının toplantılarında da bu və ya digər suallara cavab axtarılır.**

Hər dəfə müxtəlif ölkələrdə keçirilən son konfrans - COP28 ötən ilin axırlarında Birləşmiş Ərəb Əmirliklərində keçirildi. Bu mötəbər konfransda növbəti tədbirin keçirilməsinə evsahibliyi etmək üçün namizədliyini geri götürən Ermənistanın ardınca Bolqarıstan da eyni addımı atdı. Azərbaycan yekdilliklə COP29-un keçirilməsi üçün ev sahibi seçildi. Bu seçim Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun göstəricisi, ölkəmizə göstərilən böyük etimad, Prezident İlham Əliyevin daxili və xarici siyasətinin nəticəsidir.

Ölkəmizin iqtisadi uğurları, reallaşdırdığı qlobal layihələr, mövcud olan tolerant ictimai mühit Prezident İlham Əliyevin fenomenal idarəçilik təcrübəsinin göstəriciləridir. Bu baxımdan COP29-un Azərbaycanda keçirilməsi həm də dövlətimizin, onun başçısının dünya səviyyəsində öncül mövqedə qərarlaşdığının təsdiqidir. Prezident İlham Əliyev demişdir: "Bu hadisənin önəmi o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi".




Ermənilər Azərbaycan torpaqlarında ekoloji terroru 36 il əvvəl Şuşanın Topxana meşəsindəki cinayət əməlləri ilə başlamış və işğaldan sonra cinayət əməllərinin coğrafiyasını daha da genişləndirmişlər. Mayası terrorla yoğrulan hayların 30 ildən artıq Qarabağı və Şərqi Zəngəzuru işğal altında saxlaması həmin ərazilərin bitki və heyvanlar aləminin məhv edilməsinə səbəb olmuş, atmosfer, su mənbələri, torpaqlar bioloji, kimyəvi və fiziki çirklənməyə məruz qalmışdır. Yəni regionda ekoloji tarazlıq pozulmuşdur. Odur ki, 44 günlük Vətən müharibəsindəki Zəfərimizi ekoloji cəhətdən də misli-bərabəri görünməmiş qələbə saymaq olar.

COP29 kimi mötəbər bir tədbirin - dünya əhəmiyyətli qərarların qəbul ediləcəyi, gələcəyimiz olan övladlarımızın təmiz, pak bir iqlimdə yaşaması üçün müzakirələrin aparılacağı forumun ölkəmizdə keçirilməsi o deməkdir ki, dünya dövlətləri iqlim dəyişikliyi kimi taleyüklü bir problemin həlli üçün Azərbaycana toplaşacaqlar. Sayılıb-seçilən dövlət və hökumət başçıları, iqtisadçılar və ekoloqlar ekoloji problemlərin həlli yollarını Bakıda müzakirə edərək qərar qəbul edəcəklər. Bu, sıradan fakt, növbəti beynəlxalq toplantı deyil, Azərbaycana göstərilən etimaddır.

Yaşadığımız ərazi dünyanın ən gözəl guşələrindən biridir, bizim üçün bəlkə də birincisidir. Amma bütün dünyada baş verən ekoloji problemlər, o cümlədən iqlim dəyişiklikləri və onun fəsadları bizi də rahatsız edir. Son 100 ildə, xüsusən axırıncı onilliklərdə bu fəsadlar göz önündədir. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun son qiymətləndirmə hesabatına görə, axırıncı bir əsr ərzində Yer kürəsində orta temperatur 0,8 dərəcə artmışdır. Belə temperatur artımı ilk növbədə insanın fəaliyyəti, yəni antropogen faktorlarla əlaqədardır. Təbii ki, texniki tərəqqi atmosferə müxtəlif, xüsusən istilik effekti yaradan qazların və digər birləşmələrin buraxılmasına, iqlimin kəskin dəyişikliklərinə, müəyyən ərazilərdə bu dəyişikliklərin təşviş doğuracaq səviyyəyə qədər yüksəlməsinə gətirib çıxarmışdır. Okeanda isti axınların temperaturunun daha da yüksəlməsi onunla izah edilir ki, indi suyun qızması artıq 2000 metr dərinliyə qədər gedib çatmışdır, başqa sözlə, 2 dəfə yüksəlmişdir. Bu qlobal xarakterli problem 1995-ci ildə ilk konfransı keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının - COP Konvensiyasının yaranmasını zəruri etmişdir.

Konvensiya yarandığı zamandan ən fəal surətdə iqlim dəyişikliklərinə qarşı mübarizəyə qoşulmuş Azərbaycan bütün dünyaya örnək olan addımlar atır. İşğaldan azad edilmiş ərazilərin Azərbaycan Prezidentinin təklif və tövsiyələri ilə "yaşıl enerji" zonası elan edilməsi bütün dünya dövlətlərinə çağırış və nümunədir. Layihələndirmə əsasında dövlətimiz tərəfindən 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılması hədəf götürülmüşdür. Növbəti mərhələdə, yəni 2050-ci ilə qədər bu qazların miqdarının 40 faiz azaldılacağı nəzərdə tutulur.

Hər zaman olduğu kimi, Azərbaycan qlobal problemlərin həllində də fəal iştirak edir və dünya dövlətlərinə nümunə sayılacaq addımlar atır. Azərbaycan Prezidenti bu barədə demişdir: "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

***Vaqif ŞADLİNSKİ,***
***Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri, Əməkdar elm xadimi, professor***

# Dünyaşöhrətli alim Əziz Səncər Yunus Əmrə İnstitutunun Bakı nümayəndəliyində olub



**Dünyaşöhrətli alim, kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncər Yunus Əmrə İnstitutunun Bakı nümayəndəliyində "Əziz Səncər gənclərlə baş-başa" proqramı çərçivəsində gənclərlə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Əziz Səncər proqram çərçivəsində gənclərə tövsiyələrini verib və ölkəmiz haqqında təəssüratlarını bölüşüb.

Azərbaycana olan sevgisini bir daha dilə gətirən görkəmli alim deyib ki, hər fürsətdə Bakıya gəlmək istəyir: "Bu dəfə də konfranslarda iştirak etmək və tələbələrə elm sahəsini aşılamaq üçün gəlmişik. Azərbaycanlı qardaşlarımı görməkdən məmnunluq duyuram". Yunus Əmrə İnstitutunun Bakı nümayəndəliyinin rəhbəri Səlçuk Karakılıç proqramın əhəmiyyətindən danışıb. Bildirib ki, "Əziz Səncər gənclərlə baş-başa" proqramı çərçivəsində gəncləri elm, tarix və mədəniyyət haqqında məlumatlandırırıq və onların böyük alimlə görüşünü təşkil edirik.

O bildirib ki, Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq bağı ilə yanaşı, strateji elmi və mədəni əlaqələr bizi bu coğrafiyada daha güclü və hakim edəcək: "Universitet tələbələrinə Əziz Səncərin "Elm və inkişaf üzrə aforizmlər" kitabını da təqdim etdik. Kitab böyük alimin intellektual düşüncələri ilə yanaşı, həyat macərasından və təcrübəsindən bəhs edir. Bu kitab gənclərə gələcəkləri üçün işıq olacaq".

Görüşdə görkəmli alim gənclərin suallarını cavablandırıb.

# Səlahiyyətli nümayəndə Fuad Nəcəfli Nobel mükafatı laureatı Əziz Səncərlə görüşüb



**İyunun 1-də dünyaşöhrətli alim, ABŞ-nin Şimali Karolina Universitetinin Biokimya və biofizika fakültəsinin professoru, kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncər Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, qonaq əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası ilə tanış olub.

Fuad Nəcəfli Ali Məclisin iclas zalında məlumat verib ki, burada Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilib. Ötən il Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfərini xatırladan səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, dövlət başçılarımızın iştirakı ilə İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi də bu zalda keçirilib.

Sonra davam etdirilən görüşdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə məlumat verib. Xüsusilə vurğulayıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilib. Müstəqil Azərbaycan Respublikasının Dövlət bayrağı ilk dəfə Naxçıvanda qəbul edilib, müstəqil Azərbaycanın dövlətçilik sisteminin konturları, gələcək inkişafının istiqamətləri məhz burada müəyyənləşdirilib. Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi Naxçıvan-Türkiyə münasibətlərinin qurulmasında da yeni mərhələyə təkan verib. Məhz o dövrdə Türkiyənin nümayəndə heyəti ilə danışıqlar aparılıb və əməkdaşlıq haqqında protokol imzalanıb. Həmin təməllər üzərində qurulan Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətləri hazırda dövlət başçılarımızın rəhbərliyi altında möhkəm və sarsılmaz xarakter daşıyır.

Əziz Səncər göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkür edib, Naxçıvanda olmaqdan məmnunluğunu bildirib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə fotosu çəkdirilib.

# "Açıq Büdcə İndeksi-2023" üzrə Azərbaycanın mövqeyi onu ən qabaqcıl ölkələrə yaxınlaşdırıb



**Cari ilin may ayının 29-da "Açıq Büdcə İndeksi - 2023" hesabatı Beynəlxalq Büdcə Tərəfdaşlığı təşkilatı tərəfindən dərc edilib.**
**AZƏRTAC xəbər verir ki, sözügedən hesabatda Azərbaycanın mövqeyi 2021-ci ilin reytinq göstəricisi (57 bal) ilə müqayisədə 10 bal daha yuxarı olub.**
**Bununla da Azərbaycan büdcə barədə kifayət qədər məlumat dərc edən ən qabaqcıl ölkələr qrupuna daxil olub. Beləliklə, Azərbaycan müvafiq hesabatda 100 mümkün baldan 67 bal toplamaqla müstəqillik tarixi ərzində bu göstərici üzrə ən yüksək nəticə ilə qiymətləndirilib.**






Azərbaycanın reytinqi dünya üzrə orta göstəricidən (45 bal) 22 bal yuxarı olmaqla ümumi reytinqdə ən çox irəliləyən ölkələrdən biri olub. 61 bal və ya daha yuxarı bal toplayan ölkələr adekvat büdcə açıqlığına malik ölkələr qrupuna aid edilir. Beləliklə, Azərbaycan "Açıq Büdcə İndeksi-2023" hesabatında qiymətləndirmədə iştirak edən 125 ölkə arasında 21 pillə irəliləyərək 23-cü yerə yüksəlib və yetərli məlumat dərc edən ölkələr qrupuna daxil olub.

Açıq Büdcə Sorğusu büdcə prosesinə dair aşağıdakı 3 istiqamət üzrə nəticələri qiymətləndirir:

1. Büdcə məlumatlarının ictimaiyyətə əlçatanlığı (Open Budget Index);
2. Büdcə prosesində ictimai iştirakçılıq səviyyəsi (Public Participation);
3. Qanunverici hakimiyyət orqanı və ali audit orqanının rolu və fəaliyyəti (Budget Oversight).

Ümumilikdə, sorğu üzrə 145 sualdan 109-u (indikatoru) büdcə məlumatlarının ictimaiyyətə əlçatanlığını qiymətləndirir və bu istiqamət üzrə yekun nəticə "Açıq Büdcə İndeksi" adlanır. 109 sualdan 107-si Maliyyə Nazirliyi tərəfindən hazırlanan büdcə sənədlərini əhatə edir.

Eyni zamanda sorğu üzrə sualların 18-i ictimaiyyətin büdcə prosesində iştirakını (Public Participation), 18-i isə qanunvericiliyin və ali audit orqanının (Budget Oversight) bu məsələdə rolunu qiymətləndirir.

"Açıq Büdcə Sorğusu-2023" hesabatında 7 sualla əhatə edilən büdcəyə nəzarət üzrə ali audit orqanı subindeksi üzrə Hesablama Palatasının fəaliyyəti 100 baldan 100 olmaqla, "adekvat" nəticə kimi yüksək qiymətləndirilib.

"Açıq Büdcə İndeksi-2023" hesabatının digər xüsusi önəmi ondan ibarətdir ki, 2021-ci ildən etibarən ardıcıl olaraq Azərbaycanda büdcə ilə bağlı qiymətləndirilən səkkiz əsas büdcə sənədinin (İlkin büdcə bəyanatı, büdcə layihəsi, təsdiq edilmiş büdcə, vətəndaş büdcə bələdçisi, dövlət büdcəsinin icrasına dair aylıq hesabatlar, dövlət büdcəsinin icrasına dair yarımillik hesabat, dövlət büdcəsinin icrası üzrə illik hesabat, dövlət büdcəsinin icrasına dair audit hesabatı) hamısının ictimaiyyətə açıqlanması Beynəlxalq Büdcə Tərəfdaşlığı tərəfindən qeyd edilib. Bununla yanaşı, sözügedən sənədlər üzrə həm keyfiyyət, həm də məlumatlılıq səviyyəsinin artırılması üzrə irəliləyişlərə nail olunub.

### Açıq Büdcə Sorğusu metodologiyası haqqında məlumat

Büdcə prosesinə dair diaqnostik qiymətləndirmə aləti hesab olunan Açıq Büdcə Sorğusu (Open Budget Survey) 2006-cı ildən başlayaraq Beynəlxalq Büdcə Tərəfdaşlığı (International Budget Partnership) təşkilatı tərəfindən hər iki ildən bir tərtib edilir və Azərbaycan ilk qiymətləndirmədən etibarən müvafiq sorğuda iştirak edir. Sorğuda hər bir sual 100 ballıq şkala ilə qiymətləndirilir. Müvafiq olaraq cavablar təsdiqləyici sənədlərə istinad verilməklə (sənədin linki yerləşdirməklə) əsaslandırılmalıdır.

Açıq Büdcə Sorğusu bir qayda olaraq akademik sfera, qeyri-hökumət təşkilatları və ya müstəqil iqtisadçı-ekspertlər qrupu tərəfindən ilkin qiymətləndirmə aparıldıqdan sonra Beynəlxalq Büdcə Tərəfdaşlığının ("International Budget Partnership") komandasına təqdim edilir. Büdcənin tərtibinə məsul olan müvafiq icra hakimiyyəti orqanı tərəfindən sorğunun ilkin versiyasına baxılır (Government Review Process), daha sonra sorğu ilə bağlı rəylər təşkilata bildirilir.

Məlumat üçün qeyd edək ki, Azərbaycan üzrə sorğunun ilkin qiymətləndirmələrinə dair Maliyyə Nazirliyinin rəyləri 2023-cü ilin avqust ayında qarşı tərəfə bildirilib və müvafiq olaraq təşkilat tərəfindən nəzərə alınıb.

Açıq Büdcə Sorğusunun tələbləri dövlət maliyyə idarəedilməsi sahəsində bir sıra mühüm beynəlxalq standartlara əsaslanır və bunlar aşağıdakılardır:

- Dünya Bankının "Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı" ("World Bank", PEFA),
- Beynəlxalq Valyuta Fondunun "Fiskal Şəffaflıq Məcəlləsi" ("International Monetary Fund Fiscal Transparency Code"),
- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının "Fiskal şəffaflıq üzrə Ən Yaxşı Təcrübələr" sənədi ("OECD - Best Practices for Fiscal Transparency")
- "Fiskal Şəffaflıq üzrə Qlobal Təşəbbüs" təşkilatının prinsipləri - Büdcə siyasətində ictimai iştirakın təmin edilməsi. ("Global Initiative for Fiscal Transparency's Principles of Public Participation in Fiscal Policies")
- INTOSAI-ın ISSAI 1 standartı - "Lima Bəyannaməsi", ("International Organisation of Supreme Audit Institutions' Lima Declaration of Guidelines on Auditing Precepts").

# Kiçik biznesin böyük missiyası

## 2000-ə yaxın kiçik və orta sahibkar işğaldan azad olunmuş ərazilərdə işləmək üçün müraciət edib

**Hazırda dünya iqtisadiyyatında gəlirli sahələr transmilli şirkətlərin nəzarətindədir. Həmin şirkətlərin təmsil etdiyi dövlətlərin, həmçinin iş gördükləri ölkələrin siyasi dairələri ilə geniş əlaqələri olur. Onlar bu fürsətdən yararlanaraq siyasilərə təsir göstərib biznesləri xeyrinə qərarlar qəbul etdirə bilirlər.**

Ancaq belə şirkətlərin dünya iqtisadiyyatına təsir imkanı böyük olsa da, hüdudsuz deyil. Dünya təcrübəsi göstərir ki, qlobal iqtisadiyyatda kiçik və orta sahibkar subyektləri daha önəmli rolu oynayır, xidmət sektorunda isə şəriksiz liderdirlər. Bir sözlə, kiçik və orta sahibkarlıq dünya iqtisadiyyatının bel sütunudur.

Odur ki, ölkəmizdə də bu sahənin inkişafına xüsusi əhəmiyyət verilməsi təsadüfi deyil. Düzdür, əvvəllər bu kateqoriyadan olan iş adamları müxtəlif problemlərlə qarşılaşdıqda saysız-hesabsız dövlət qurumlarının qapılarını döyməli olurdular. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradıldıqdan sonra isə həmin sahədə olan qeyri-müəyyənliyə son qoyulub. Hazırda biznesə başlamaq istəyən sahibkarlıq subyektlərinə KOBİA tərəfindən çeşidli sahələr üzrə dəstək və xidmətlər göstərilir.

Prezident İlham Əliyev ölkədə kiçik və orta biznesin inkişafına xüsusi fikir verir, bu cür biznesin fəaliyyətinin tənzimlənməsi üçün hüquqi baza və texniki təminat mexanizmləri yaradır. Hazırda Bakı, Yevlax və Xaçmaz şəhərlərində KOB evləri fəaliyyət göstərir. KOB evlərində 50-yə yaxın dövlət və özəl qurum tərəfindən sahibkarlara 300-dən çox çeşiddə xidmət göstərilir. Təkcə ötən il 371 mindən çox, cari ilin birinci rübündə isə 99 mindən artıq sahibkar KOB evlərində müxtəlif xidmətdən istifadə edib. Gələcəkdə bu sahənin genişləndirilməsi, o cümlədən işğaldan azad olunmuş ərazilərdə də KOB evlərinin yaradılması planlaşdırılır.

Təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi məqsədilə ötən il dövlət tərəfindən 32 layihəyə 550 min manatdan çox qrant kimi vəsait ayrılıb. Ümumiyyətlə, indiyədək KOB-ların təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi üçün 58 layihəyə 1 milyon manatdan çox vəsait ödənilib. Bununla yanaşı, 42, ümumilikdə isə bu günədək 145 mikro və kiçik sahibkara innovasiya fəaliyyəti üzrə əldə etdikləri gəlirlərə 3 il müddətinə vergi güzəştlərini nəzərdə tutan "Startap" şəhadətnaməsi təqdim edilib.

Sahibkarlara vergi güzəştlərini nəzərdə tutan digər dəstək mexanizmi olan KOB klasterlərinin yaradılması istiqamətində də işlər uğurla davam edir. Qanunvericilikdə KOB klaster şirkəti və onun iştirakçısı üçün bir sıra vergi güzəştləri nəzərdə tutulur. Belə ki, KOB klaster şirkəti müvafiq reyestrə daxil edildiyi tarixdən 7 il müddətinə mənfəət, KOB klaster fəaliyyətində istifadə olunan torpaqlara görə torpaq və əmlak vergisindən, texnoloji avadanlıqların və qurğuların idxalı üçün ƏDV-dən azad edilir. Eyni zamanda KOB klasterinin iştirakçısı olan şəxs 7 il müddətində KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal üzrə əldə etdiyi mənfəət və ya gəlirin kapital xarakterli xərclərinin çəkilməsinə yönəldilən hissəsinin mənfəət və ya gəlir vergisindən azad olunur.

Bunlardan başqa, kiçik və orta sahibkarlara digər formada da dəstək verilir. Onlardan biri də məhsulların sərgilərdə təqdim olunmasıdır. Ötən il 79 KOB subyektinin məhsulları o sərgidə ödənişsiz olaraq nümayiş olunub, ticarət şəbəkələrində yaradılmış 8 satış nöqtəsində 25-dən çox sahibkarlıq subyektinin məhsullarının satışına dəstək verilib. Həmçinin sahibkarların maarifləndirilməsi, bilik və bacarıqlarının artırılması məqsədilə KOBİA-nın təşkil etdiyi ödənişsiz təlim və məsləhət xidmətlərindən keçən il 14 minə yaxın KOB subyekti, startap və biznesə başlamaq istəyən şəxs faydalanıb. Kənd təsərrüfatı, istehsal, xidmət və s. üzrə 697 biznes-planın hazırlanmasında KOB subyektlərinə dəstək göstərilib, agentliyin ödənişsiz video təlimlərindən 424 sahibkar və biznesə başlamaq istəyən şəxs yararlanıb. Bundan əlavə, 37 sahibkar və menecer beynəlxalq təcrübəyə yiyələnmək üçün Almaniyada ixtisasartırma kursu keçib. Cari ilin mart ayında Azərbaycan Texniki Universitetində fəaliyyətə başlamış KOB Model Müəssisəsinin imkanlarından isə artıq 20-dən çox sahibkar faydalanıb. Məlumat üçün bildirək ki, bu model müəssisə kiçik və orta sənaye müəssisələrinin səmərəli və rəqabətqabiliyyətli olmasına imkan verən, qənaətli idarəetmə üsullarına əsaslanan tədris və təcrübə mərkəzidir. Müəssisənin imkanlarından faydalanan KOB subyektlərinin mühəndisləri və texniki heyəti təcrübə əsnasında qənaət üsullarını öyrənir və həmin üsulları öz şirkətlərində tətbiq edirlər. Bu isə həm işçilərin, həm də şirkətin məhsuldarlığını və rəqabətqabiliyyətliliyini artırır.

Hazırda biznes üçün aktual məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərə investisiya yatırmaq və burada biznes şəbəkələri yaratmaqdır. Cari il mayın 1-dən bu istiqamətdə KOBİA-ya 1950-dən çox müraciət daxil olub. Onların 1450-dən çoxu yerli, 500-dən çoxu isə xarici müraciətlərdir. Ümumi müraciətlərin 980-dən çoxu investisiya layihəsidir ki, onun da 48 faizi ticarət və xidmət, 22 faizi sənaye, 22 faizi kənd təsərrüfatı, 8 faizi tikinti, turizm, səhiyyə, təhsil və mədəniyyət sahələrini əhatə edir.

Agentliyə müraciət edən sahibkarlara işğaldan azad edilmiş ərazilərin iqtisadi və investisiya potensialına dair ətraflı məlumat, peşəkar məsləhət xidməti, müvafiq dövlət qurumları ilə əlaqələndirmə, yerli tərəfdaşların tapılması istiqamətində dəstək və xidmətlər göstərilir, Qarabağın və Şərqi Zəngəzurun iqtisadi və investisiya potensialı layihələrinin yerli və xarici iş adamlarına təqdim olunması üçün məlumat verilir. İndiyədək işğaldan azad olunmuş ərazilərimizdə öz biznesini quran sahibkarlar agentliyin bu cür müxtəlif dəstək və xidmətlərindən yararlanıblar.

Agentlik Azərbaycanda kiçik və orta sahibkarlara ölkə hüdudlarından kənar fəaliyyət göstərmələri və tərəfdaşlar tapmaları istiqamətində də böyük işlər görür. İqtisadi əlaqələri genişləndirmək məqsədilə bu yaxınlarda KOBİA nümayəndələri Vyetnamın paytaxtı Hanoy şəhərinə səfər etmişlər. Nümayəndələrimiz Vyetnamın bir çox dövlət qurumlarında görüşlər keçirmiş, fikir mübadiləsi aparmışlar. Məqsəd iki ölkənin sahibkarlıq sahəsində əldə edilən təcrübə, işgüzar dairələr arasında əlaqələrin qurulması, ticarət əlaqələrinin inkişafı və mümkün əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi barədə danışıqlar aparmaq idi.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Revanşistlər paylarını aldılar

## İrəvanda polislə etirazçılar arasında yenə də toqquşmalar olub

**Hayastanda keçmiş hərbi xunta təmsilçilərinin təşkilatçılığı ilə baş nazir Nikol Paşinyanın əleyhinə keçirilən etiraz aksiyaları davam edir. Azərbaycanla sərhəd bölgəsində delimitasiya və demarkasiya prosesinin başlanılmasına Hayastanda müsbət yanaşanlar çoxluq təşkil etsə də, keçmiş hərbi xunta təmsilçiləri buna qarşı çıxır, onu əngəlləməyə cəhd edir. Tavuş bölgəsində başlayan erməni keşiş Baqrat Qalstanyanın rəhbərlik ediyi etirazlar paytaxt İrəvan da daxil olmaqla, bütün ölkə ərazisinə yayılsa da, davamı gəlmədi.**






Dünən İrəvanda Xarici İşlər Nazirliyinin binasının qarşısında polislə etirazçılar arasında toqquşmalar olub. Ölkənin polisi etirazçılara son xəbərdarlıq edib. Bildirilib ki, etirazçılar aksiyalarını dayandırmasalar, xüsusi vasitələrdən istifadə olunacaq. Tərəflər bir-birinə butulka atıblar. Nəticədə hüquq-mühafizə orqanlarının əməkdaşları həbslərə başlayıb.

Ermənistan İstintaq Komitəsinin yaydığı məlumata görə, İrəvandakı "Müqəddəs Anna" kilsəsinin həyətində etirazçılardan biri digərinə kəsici alətlə zərbə endirib. Şübhəli şəxs saxlanılıb, xəsarət yetirdiyi alət müsadirə olunub. Polis tərəfindən saxlanılanlar arasında deputat Qarnik Danielyan da var.

Müxalifətçilər etirazlarına səbəb kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. Onlar baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər. Erməni radikallar Ermənistanın daxili və dövlətlərarası magistral yollarını bloklamağa çalışırlar.

Bu arada Hayastanın baş naziri Nikol Paşinyan özünü "Vətən naminə" hərəkatının lideri sayan və hakimiyyəti zorla devirmək niyyətini gizlətməyən arxiyepiskop Baqrat Qalstanyanla məzələnib. Baş nazir deyib ki, əgər keşiş onunla görüşmək istəyirsə, hamı kimi qəbula yazılmalıdır. Bu, əlbəttə, ölkə rəhbərinin radikal müxalifəti nümayişkaranə şəkildə aşağılamasının və onu ciddiyə almamasının təzahürüdür. "Bilirəm ki, Paşinyanla görüş proseduru var. Amma mən ona həbsxanada baş çəkəcəyəm" deyərək keşiş Baqrat öz aləmində Nikola cavab verib.

Onu da qeyd edək ki, Hayastanda hakim "Mülki müqavilə" Partiyasının deputatları kilsə əmlakının vergiyə cəlb edilməsi ilə bağlı qanun layihəsi hazırlayırlar.

"4rd.am" nəşrinin xəbərinə görə, "Mülki müqavilə" Partiyasından deputat Tsovinar Vardanyan bildirib ki, hələ hazır sənədlər yoxdur, lakin bu istiqamətdə iş artıq aparılır: "Kilsə vergi ödəyicisidir, lakin söhbətin nədən getdiyini anlamaq lazımdır. Ola bilsin kilsə işçiləri gəlir vergisi ödəyirlər, bu, yaxşıdır. Amma deputatlar indi kilsənin idarə etdiyi minlərlə əmlakı araşdırırlar".

Göründüyü kimi, revanşistlər kilsənin imkanlarından istifadə etməyə çalışırlar. Nəzərə alaq ki, Ermənistan kilsəsi kifayət qədər gücə sahibdir. Bu o anlama gəlir ki, keçmiş hərbi xunta və onların xarici havadarları sonuncu kartdan - kilsə faktorundan yararlanmaq istəyirlər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Narkotik vasitənin ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb

Külli miqdarda narkotik vasitənin ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb.

Bu barədə AZƏRTAC-a Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat xidmətindən məlumat daxil olub. Bildirilib ki, may ayının 31-də Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində keçirilən sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində ümumi çəkisi 14 kiloqram 150 qram narkotik vasitənin qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# REGİONLAR

## Dünən Ağdamda "söz sahibi" uşaqlar idi

**Ağdam Muğam Mərkəzində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə tədbir keçirilib.**



Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə baş tutan tədbirdə RİH-in başçısı Vaqif Həsənov, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Mansur Quliyev, rayon Təhsil sektorunun müdiri Tahir Abbasov, Ağdamın ümumtəhsil məktəblərində təhsil alan şəhid və qazilərin, aztəminatlı ailələrin övladları və təhsil aldıqları məktəblərdə yüksək nailiyyət göstərmiş şagirdlər iştirak etmişlər.

Qonaqlar öncə gənc rəssamların əl işlərindən ibarət rəsm əsərləri ilə tanış olmuşlar. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad ediləndən sonra çıxış edən Vaqif Həsənov və digər natiqlər uşaqların bayramını təbrik edərək ölkəmizdə uşaqlara dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilməsindən, azyaşlıların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı həyata keçirilən siyasətin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmasından, həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışmışlar.

Tədbir 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə hazırlanmış videoçarxın nümayişi, Ağdam Dövlət Dram Teatrının aktyorları tərəfindən hazırlanmış müxtəlif səhnəciklər, Ağdam Musiqi Kollecinin "Qarabağ" instrumental ansamblının, Gülablı kənd Uşaq Musiqi Məktəbinin şagirdlərinin, Şəmsi Bayramov adına Xındırıstan kənd Uşaq Musiqi Məktəbinin xor kollektivinin ifasında musiqi nömrələri və kompozisiyalarla davam etmişdir. Sonda təhsildə yüksək nailiyyətlər əldə etmiş bir qrup şagird RİH-in fəxri fərmanları ilə təltif olunmuşdur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Bu gün gör-götür zamanıdır

### Beynəlxalq təcrübə aqrar sektorun inkişafını sürətləndirir

**Son dövrlər dünyada baş verən geosiyasi proseslər bir daha sübut etdi ki, ərzaq təhlükəsizliyi hər bir ölkə üçün taleyüklü məsələdir. Bu, özünü ilk növbədə qlobal səviyyədə Rusiya-Ukrayna müharibəsindən sonra yaranan "taxıl böhranı"nda aydın göstərdi.**

Dünya anladı ki, dövlətlər siyasi əxlaqdan uzaq bir üsula əl atıb, insanların yaşaması üçün təhlükə yaradan sahəyə də əl uzada bilərlər. Çünki öz siyasi ambisiyalarına nail olmaq üçün dünyada milyonlarla insanın çəkdiyi aclıq onları düşündürmür. Əgər 2022-ci ilin fevralından sonra yaranmış taxıl böhranını Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT ilə birlikdə həll etməsəydi, milyonlarla insan aclıqla üzləşərdi. Bu üzdən indi bütün ölkələr aqrar sektorun inkişafına dəstək verir ki, ərzaqla bağlı idxaldan asılı olmasınlar.

Prezident İlham Əliyevin də ən geniş islahatlar apardığı sahələrdən biri kənd təsərrüfatıdır. Uzaqgörənliklə icra edilən həmin islahatlar bu gün öz nəticəsini verir. İndi istehlak etdiyimiz kənd təsərrüfatı məhsullarının böyük hissəsi yerli istehsaldır. Hazırda Azərbaycan buğdadan savayı əksər kənd təsərrüfatı məhsulları üzrə demək olar ki, idxaldan tam asılı deyil. Əksinə, son dövrlər ölkəmizdən dünya bazarlarına çıxarılan kənd təsərrüfatı məhsullarının həcmi və çeşidi artır. Xüsusən meyvə-tərəvəz ixracında bu artım daha yüksəkdir.

Aqrar sektorda icra edilən islahatlarda müasir texnika və texnologiyalardan istifadə olunması xüsusi əhəmiyyət daşıyır. Məqsədə çatmaq üçün son dövrlər ölkəmiz dünya təcrübəsini öyrənməyə və mütərəqqi texnologiyalardan istifadəyə üstünlük verir. Bakıda mayın 15-17-də keçirilən ənənəvi "Caspian Agro" və Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgilərinin də əsas məqsədi ölkəmizin aqrar sektor üzrə beynəlxalq əlaqələrinin inkişafına töhfə vermək, aqrosənaye kompleksində mütərəqqi texnologiyaların texniki tətbiqinə, qabaqcıl təcrübə mübadiləsinə, eləcə də yerli və xarici fermerlər arasında qarşılıqlı və faydalı işgüzar əlaqələrin möhkəmləndirilməsinə yardımçı olmaq idi. Azərbaycanda bu sahədə keçirilən hər bir mötəbər tədbir ölkəmizdəki fermerlərə dünya təcrübəsindən faydalanmaq imkanı qazandırır. Təkcə son sərgilərə ölkəmizin 42 rayonundan 500-dən çox fermerin qatılması sərgiyə olan marağın göstəricisidir.




Azərbaycanın aqrar sektorun inkişafı istiqamətində yaxından əməkdaşlıq etdiyi beynəlxalq qurum BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatıdır (FAO). İxtisaslaşmış qurum olan FAO Azərbaycanda milli, regional və qlobal səciyyəli layihələr həyata keçirir. Sözügedən layihələr əsasən kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, potensialın artırılması, resursların idarə edilməsi, heyvan və bitki xəstəliklərinə qarşı mübarizə, təchizat və digər müvafiq sahələrdə texniki yardımları nəzərdə tutur.

Prezident İlham Əliyev bunu yüksək qiymətləndirərək demişdir: "Biz dünyanın ən mütərəqqi texnologiyalarını Azərbaycana gətiririk. Bütün sahələrə, eyni zamanda kənd təsərrüfatı sahəsinə də bu texnologiyalar gəlir. Əlbəttə ki, beynəlxalq qurumlarla, ilk növbədə FAO ilə əməkdaşlığımızın nə qədər vacib olduğunu bir daha qeyd etmək istəyirəm. Çünki biz ölkəmizi müasirləşdiririk. Azərbaycanda çox böyük modernləşmə siyasəti aparılır. Kənd təsərrüfatı bizim üçün ən vacib olan sahələrdən biridir. Bu gün cənab baş direktor ilə görüşdə biz bu barədə fikir mübadiləsi apardıq və mən qeyd etdim ki, hazırda Azərbaycanda qeyri-neft sahəsində bizim üçün iki əsas prioritet sahə vardır. Onlardan biri informasiya-kommunikasiya texnologiyaları, digəri isə kənd təsərrüfatıdır".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Masallıda fiber-optik şəbəkə yaradılır

**"Aztelekom" MMC Masallı rayonunda GPON (Gigabit Passive Optical Networks) texnologiyası əsasında fiber-optik şəbəkə yaradır.**



Artıq rayonun İkinci Səmədxanlı, Bədəlan, Yusifli, Dəlləkoba, Çayqıraq, Aşurlu, Dəmirçi, Babaser, Qızılavar, Köhnə Alvadı, Təzə Alvadı, Böyük Kolatan, Bala Kolatan, Meşəkənarı, Böyük Xocavar, Banbaşı, Yeyənkənd, Abasbəyli və Xəlfələr kəndlərində bu istiqamətdə işlər yekunlaşıb. Masallı şəhər mərkəzində 4538, Masallı rayonunda isə 9857 ev təsərrüfatı və biznes subyekti genişzolaqlı internet xidmətlərindən yararlanır.

Qeyd edək ki, ölkədə 2021-ci ildən həyata keçirilən "Onlayn Azərbaycan" layihəsinin icra müddətində genişzolaqlı internetə çıxış imkanı yaradılan təsərrüfatların sayı 2,29 milyona çatmışdır. Bu isə mövcud ev təsərrüfatı və biznes subyektlərinin 78 faizi deməkdir.

*"Azərbaycan"*

## Gədəbəydə özünüməşğulluq proqramı çərçivəsində qurulmuş təsərrüfatlara baxış olub

**Ötən dövrdə Gədəbəy rayonunda 1100-ə yaxın şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradılıb.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov özünüməşğulluq proqramı çərçivəsində Gədəbəy rayon sakinləri Mobil Süleymanov və əlilliyi olan Ramin Nəcəfov üçün qurulmuş kiçik təsərrüfatlara baxış keçiriblər. Proqramın iştirakçıları olan M.Süleymanov avtoçilingər xidmətlərinin göstərilməsi, R.Nəcəfov isə qapı və pəncərə istehsalı üzrə aktivlərlə təmin olunaraq kiçik bizneslərini qurublar.

Onlar işsiz və işaxtaran şəxslərin məşğulluq iimkanlarının artırılması, habelə kiçik bizneslərini qurmaları üçün göstərilən dəstəyə görə dövlət başçısına təşəkkürlərini ifadə ediblər. Qurduqları təsərrüfatlarını genişləndirmək üçün səy göstərdiklərini bildiriblər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## "Kiçik ürəkdə böyük cəsarət"

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə xüsusi təbəqədən olan uşaqlarla "Kiçik ürəkdə böyük cəsarət" şüarı altında görüş keçirilib.**

Görüşdə muxtar respublikanın səhiyyə naziri Samiq Sadıxov uşaqlara bayram təbriklərini, xoş arzularını çatdırıb, onlarla səmimi söhbət edib, suallarını cavablandırıb. AZƏRTAC xəbər verir ki, balacalara üzərində "Kiçik ürəkdə böyük cəsarət" şüarı əks olunan həkim xalatları hədiyyə olunub, təşəkkürnamələr təqdim edilib.

Sonra balacalar Naxçıvan Muxtar Respublika Xəstəxanasının Oftalmologiya və Fizioterapiya şöbələrində olub, müayinə, müalicə cihazlarının işləmə mexanizmi ilə maraqlanıb, iş prosedurunu praktiki yerinə yetiriblər. Daha sonra xəstəxananın önündə sülh quşu olan göyərçinlər havaya buraxılıb.

Tədbir çərçivəsində uşaqlar istirahət və əyləncə mərkəzində müxtəlif əyləncəli oyunlar oynayıb, süfrə arxasında asudə vaxtlarını səmərəli keçiriblər.



Sonda Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən xüsusi təbəqədən olan uşaqlara hədiyyələr təqdim edilib.

## Onun üçün həyat rinqdən başlayırdı

### Azərbaycan boksçuları Vaqif Gözəlovu özlərinin müəllimi hesab edirlər

**Şirvan şəhərində bir canlanma var. Şəhər ictimaiyyəti Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi, "Tərəqqi" medallı, SSRİ İdman ustası, Beynəlxalq dərəcəli hakim, Fəxri bədən tərbiyəsi və idman işçisi Vaqif Gözəlovun xatirəsinə həsr olunmuş boks turnirinə toplaşırdı.**










Səhər saat 10 olmasına baxmayaraq, tədbirin keçirildiyi Şirvan Olimpiya İdman Kompleksinin boks idman zalı adamla doludur. Respublika əhəmiyyətli idman yarışında Bakıdan, Şirvan şəhərindən, Hacıqabul, İmişli və Sabirabad rayonlarından gəlmiş 11-12 və 13-14 yaş qrupundan olan uşaqlar, yeniyetmələr təmsil olunurlar. Onların sayı ümumilikdə 95-dir. Gənc idmançıların arasında 8 qız boksçunun olması sübut edirdi ki, idmanın bu növünə təkcə oğlanlar deyil, qızlar da həvəs göstərirlər.

Turnirin başlanmasına hələ bir saat var. Bundan istifadə edərək tədbirin baş hakimi, respublika dərəcəli hakim, Əməkdar idman ustası Telman Aydınova bir neçə sualla müraciət edirik. Bildirir ki, Vaqif Gözəlovun xatirəsinə həsr edilmiş bu turnirin böyük əhəmiyyəti var: "Mərhum idmançımız Azərbaycanın, o cümlədən doğulub böyüdüyü Şirvanın idman şərəfini həmişə ləyaqətlə qorumuşdur. Bildiyimiz kimi, boks idmanın güc və fəndlərlə bərabər, möhkəm iradə, cəsarət, döyüşkənlik tələb edən bir növüdür. V.Gözəlov boksu çox sevirdi. O, özü özünün həm məşqçisi, həm müəllimi olub. Çəkdiyi zəhmət hədər getməyib. Rinqlərdə qazandığı qələbələr idmançını məşhurlaşdırıb. Keçən əsrin 60-cı illərində keçmiş SSRİ-nin müxtəlif şəhərlərində keçirilən yarışlarda fəxri kürsünün ən yüksək pillələrinə yüksələrək Azərbaycanı tanıdıb. Boks sahəsində perspektivli döyüşçü olduğunu görən Azərbaycan Boks Federasiyasının ozamankı prezidenti Abbas Ağalarovun təqdimatı ilə o, 1962-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olub və 1966-cı ildə oranı bitirib. Həmin illər V.Gözəlov dəfələrlə ali məktəb boksçuları arasında keçirilən yarışların qalibi olub. Moskva, Kaunas şəhərlərində, habelə Ukrayna, Gürcüstan, Qazaxıstan, Belarus, Latviya, Litva, Estoniya respublikalarında keçirilən turnirlərdə qalib olub, mükafatlar alıb. Ali təhsilini başa vurandan sonra idman fəaliyyətini Şirvan şəhərində davam etdirib, gənc boksçular yetişdirib. Adlı-sanlı boksçulardan Ələkbər Ələkbərov, Nazim və Yazel qardaşları, Vahid Gözəlov, Əkbər Ələkbərov, Oruc İbrahimov, Səməd Əliyev, Valeri Solquba, Çingiz Hüseynov, Oqtay Vəliyev və başqaları onun yetirmələridir. V.Gözəlovun məktəbini keçən bu boksçulara qalib gəlmək heç də asan olmurdu".

1966-cı ildə V.Gözəlov SSRİ idman ustası, 1996-cı ildə isə respublika dərəcəli hakim adına layiq görülüb. Ədalətli, prinsipial mövqeyi nəzərə alınaraq bir çox mühüm yarışın hakimliyi ona tapşırılıb. 2001-ci ildə daha bir əlamətdar hadisə baş verib. Vaqif Gözəlov beynəlxalq dərəcəli hakim adına layiq görülüb, ölkə, Avropa, dünya birinciliklərində hakimlik edib. 2002-ci il ona daha bir uğur gətirib: Fəxri bədən tərbiyəsi və idman ustası adını alıb. 2006-cı ildə Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında 5-ci Beynəlxalq boks turnirinə hakimlik etməsi V.Gözəlovun fəaliyyətində xüsusi yer tutan hadisələrdən biridir. O, bu tədbirdə xüsusi diplomla mükafatlandırılıb.

V.Gözəlov məşqçilik fəaliyyətində 5 idman ustası, 25 məşqçi-müəllim, 16 idman hakimi, 190-dan çox 1-2-3-cü dərəcəli idmançılar hazırlayıb. Şagirdlərindən 11 nəfəri Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını, 18 nəfəri Bakı Bədən Tərbiyəsi Texnikumunu və Şirvan Şəhər Dövlət İqtisadiyyat və Humanitar Kollecinin müvafiq şöbəsini bitirib. Onun 51 il müəllimlik, 60 il məşqçilik, 55 il hakimlik stajı olub. Əməyi dövlət tərəfindən layiqincə qiymətləndirilib. Prezident İlham Əliyevin 4 oktyabr 2010-cu il tarixli sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilib, 19 dekabr 2011-ci il tarixli sərəncamı ilə Əməkdar bədən tərbiyəsi və idman xadimi fəxri adı verilib.

Saat 12 radələridir. Baş hakim turnirin başladığını elan edir. Şirvan İqtisadiyyat və Humanitar Kollecinin direktoru Barxudar Barxudarov, Şirvan və Salyan Regional Gənclər və İdman İdarəsinin rəisi Aydın Hüseynov, V.Gözəlovun qardaşı, əmək veteranı Adıgözəl Gözəlov çıxış edərək yeniyetmə və gənc boksçulara uğurlar arzulayırlar.

Boksçular növbə ilə rinqə dəvət olunurlar. Qızğın döyüşlər başlayır. Dörd saat davam edən turnir yarışında Şirvan şəhər komandası 1-ci, Hacıqabul rayonunun idmançıları 2-ci, Bakı şəhərini təmsil edən boksçular isə 3-cü yerə layiq görülürlər.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

### Astaradan iki xəbər

## Dağ kəndinə təbii qaz verilib

**Astaranın Səlivə kəndinə təbii qaz verilib. Bununla bağlı keçirilən tədbirdə rayon rəhbərliyi, "Azəriqaz" İB-nin əməkdaşları və kənd sakinləri iştirak ediblər.**

RİH-in başçısı Q.Ağayev kəndə qaz çəkilişini əlamətdar hadisə adlandıraraq sakinləri bu münasibətlə təbrik etmiş, onlara xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, ölkənin bütün bölgələrində, o cümlədən Astara rayonunda regional inkişaf tədbirlərinin icrası davam edir: "Son illər məktəb tikintisi, avtomobil yollarının asfaltlaşdırılması və digər sosial məsələlərin həlli ilə yanaşı, yaşayış məntəqələrinin qazlaşdırılması da diqqət mərkəzindədir. Ötən il Deqadi kəndinə təbii qazın verilməsi təmin edilmişdir. Bu gün də Səlivə kəndində qaz açılışında iştirak edirik. Uzun illər idi ki, dağətəyi və dağlıq ərazini əhatə edən Səlivə kəndinin sakinləri təbii qaz almadığına görə çətinliklərlə üzləşirdilər. Hətta keçmiş sovet dönəmində belə bu kəndə qaz xətti çəkilməmişdir. Qış aylarında daha çox əziyyət çəkən səlivəlilər evlərini odunla qızdırırdılar. Nəhayət ki, bu gün kənd sakinlərinin arzusu reallaşır".

Kəndə təbii qazın verilməsini yüksək qiymətləndirən yerli sakinlər bu diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıq etmiş, ölkəmizin inkişafı naminə gördüyü möhtəşəm işlərdə uğurlar arzulamışlar.



Sonda Vətən müharibəsi şəhidi Arif Qeybiyevin yadigarı Gülnur Qeybiyeva mavi qazı alışdırmışdır.

## Şəhər təmizliyə çıxdı

**Astara şəhəri ərazisində "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı ekoloji aksiya keçirilib.**

Rayon icra hakimiyyətinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 1 saylı Regional İdarəsinin, idarə, müəssisə və təşkilatların əməkdaşlarının iştirak etdikləri aksiyanın keçirilməsində əsas məqsəd şəhər ərazisinin məişət və digər tullantılarla çirkləndirilməsinin qarşısını almaq, əhalini ətraf mühitin neqativ təsirlərdən qorunması istiqamətində maarifləndirmək, o cümlədən ekoloji vəziyyətin yaxşılaşdırılmasında ictimaiyyətin rolunu artırmaq və bu sahədə ictimaiyyətlə əməkdaşlığı gücləndirməkdən ibarət olub.



Aksiya zamanı ərazi bərk məişət və digər tullantılardan təmizlənərək aidiyyəti üzə təhvil verilib, həmçinin park-bulvar kompleksi ərazisində 200 ağac tingi və gül kolları əkilib.

*S.CAVADOV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Muzeylərimiz

# Tarixi yaddaşımızın qorunduğu məkan

**Ən dəyərli əşyalar gələcək nəsillər üçün qorunur. Onlara həvalə ediləndə də qoruyub saxlamalı olduqları anladılır. Həmin əşyaları qiymətli edən yalnız maddi deyil, həm də mənəvi dəyərləridir. Muzeylərin əhəmiyyəti ondan ibarətdir ki, onlar bir ailənin, bir nəslin yox, bir xalqın tarixinin, maddi-mənəvi sərvətlərinin etibarlı mühafizə olunduğu yerlərdir.**



Qədim eksponatların, şəxsi kolleksiyaların, eləcə də nadir əşyaların toplandığı məkanlar bu gün muzey adlandırılır. Bu söz elmi mənbələrə görə, yunan sözüdür. Mənası "muzalar məbədi"dir. Qədim yunan mifologiyasında muzalar incəsənət və elm ilahələri sayılırdılar.

Araşdırıcılar muzeylərin sələflərini eramızdan öncəyə aid ediblər. İlk muzeyin Ellin dövründə qədim Misirin paytaxtı İsgəndəriyyə şəhərində yaradıldığı qeyd olunub. Dünyanın birinci muzeyinə sikkələr, heykəllər, sarkofaqlar, gil qablar, papiruslar, təsviri sənət nümunələrindən ibarət 40 mindən çox eksponat toplanmışdı.

Bu gün bütün ölkələrdə muzeylər mövcuddur. Parisin Luvr, Londonun Viktoriya və Albert, Sankt-Peterburqun Ermitaj, İstanbulun Topqapı muzeyləri dünyanın məşhur muzeyləri sırasındadır.

Azərbaycanda tarixin ayrı-ayrı dövrlərinə aid dəyərli əşyalar və sənət nümunələri qədimlərdən hökmdarların saraylarında, məbədlərdə, eləcə də digər tikililərdə mühafizə edilib. Zaman keçdikcə şəxsi kolleksiyalar yaranmağa başlayıb. Tariximizin və mədəniyyətimizin ən qiymətli nümunələri olan eksponatların çoxu şəxsi kolleksiyalarda saxlanılıb. Həmçinin Azərbaycan elminin, mədəniyyətinin, incəsənətinin nadir nümunələri müxtəlif tarixi, geosiyasi hadisələr nəticəsində ölkədən çıxarılıb və dünyanın ən məşhur muzeylərinin daimi eksponatları olub.

XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai-siyasi, mədəni fikir həyatında sürətlə cərəyan edən proseslər öz növbəsində muzey işinin təşkilinə təkan vermiş və ölkəmizdə müasir tipli muzeylərin yaradılmasına başlanmışdır. Belə muzeylərdən biri görkəmli maarifpərvər yazıçı Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında təşkil olunub.

Ölkəmizdə ilk dövlət muzeyi isə bərqərar olduğu qısa müddətdə böyük işlər həyata keçirən Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılıb. Belə ki, 1919-cu il dekabrın 7-də İstiqlal Muzeyi fəaliyyətə başlayıb. "Azərbaycan" qəzeti 1919-cu il 23 sentyabr tarixli sayında muzeyin təsis edilməsi ilə bağlı yazırdı: "Sənələrdən bəri bəslədiyimiz bir arzu var ki, o da vətənimiz Azərbaycanda bir milli muzey təsisidir. Sabiq Rusiya zamanında təsis edəcəyimiz muzeyin adını "milli muzey" qoymaq fikrində idiksə də, bu gün fərdimizin köksünü qabardan istiqlal şüarı olmasına görə "İstiqlal muzesi" olmasını əhəmiyyətli görürüz".

Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin quruluşunun birinci ildönümü münasibətilə elə parlamentin binasında təşkil olunan İstiqlal Muzeyində tariximizi, milli-mənəvi dəyərlərimizi əks etdirən eksponatlar toplanıb. Lakin muzey cəmi bir neçə ay fəaliyyət göstərə bilib. 1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal olunduqdan sonra İstiqlal Muzeyi də fəaliyyətini dayandırmalı olub. Təəssüf ki, 1919-cu ildə yaradılan muzeydən heç bir eksponat qalmayıb. Yetmiş bir il sonra muzeyin fəaliyyəti bərpa edilib. Belə ki, Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra, 1991-ci il yanvarın 9-da İstiqlal Muzeyi yenidən yaradılıb. Fəaliyyətə başlayan muzey "İstiqlal" adını alaraq, birinci muzeyin mənəvi varisi olub.

Ədalət naminə deməliyik ki, sovet hakimiyyətinin mövcud olduğu yetmiş il ərzində respublikamızda muzey şəbəkəsinin inkişafı istiqamətində bir sıra işlər görülüb, yeni muzeylər yaradılıb. Azərbaycanda tarix-diyarşünaslıq, görkəmli tarixi şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimlərinin ev, xatirə muzeyləri təşkil olunub.

Təəssüflə yada salaq ki, müstəqilliyimizin ilk illərində Ermənistanın yaratdığı münaqişə, Birinci Qarabağ müharibəsi, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərinin işğal olunması və otuz ilə yaxın qəsbkarların əlində qalması respublikamızda muzeylərin inkişafına ağır zərbə vurub. "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasını, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasını, "Dünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasını heçə sayan erməni vandalları tərəfindən işğal altında qalan ərazilərimizdəki tarix-memarlıq abidələrimiz, xatirə-memorial komplekslərimiz, muzey-qoruqlarımız dağıdılıb, fondlarda mühafizə edilən qiymətli eksponatlar tamamilə qarət olunub. Ermənistanın işğalı zamanı Şuşada 8 muzey talan edilib. Otuz ilə yaxın işğalda qalan ərazilərimizdə ümumilikdə 500-dək tarixi-memarlıq, 100-dək arxeoloji abidə, 22 muzey, 4 rəsm qalereyası düşmən tərəfindən dağıdılıb. Hələ keçmiş SSRİ dövründə yeganə olan Ağdam Çörək Muzeyi yerlə yeksan edilib. Şuşa şəhərinin Tarix Muzeyindən 5 minədək, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyindən 13 minədək, Zəngilan, Laçın Tarix-Diyarşünaslıq muzeylərinin hər birindən 6 minədək, Ağdam Tarix-Diyarşünaslıq Muzeyindən 2 mindən çox, Qubadlı Tarix-Diyarşünaslıq Muzeyindən 3 mindən çox eksponat qarət olunub. Erməni vandalları, həmçinin Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialından 1000-dən çox, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək, Üzeyir Hacıbəylinin Xatirə Muzeyindən 300-dən çox, Bülbülün Xatirə Muzeyindən 400-dək, Mir Möhsün Nəvvabın Xatirə Muzeyindən 100-dən çox əşya və materialları mənimsəyiblər...

2020-ci ilin payızında, 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq Qarabağ və Şərqi Zəngəzur torpaqlarını işğalçılardan azad edib. Müharibədən qısa müddət sonra işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazilərində Prezident İlham Əliyevin tapşırığına əsasən, geniş tikinti-bərpa, quruculuq işlərinə başlanılıb. Həyata keçirilən böyük quruculuq işləri nəticəsində keçmiş məcburi köçkünlər tədricən öz yurdlarına qayıdırlar. Erməni vandallarının dağıtdıqları tarixi-mədəni, dini abidələrimiz, mədəniyyət ocaqlarımız bərpa olunur. Qarabağda, Şərqi Zəngəzurda fəaliyyət göstərmiş bütün muzeylərimiz də çox keçməyəcək ki, yenidən qurulacaq...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Klassiklərimiz

# Qəlblərdə yaşayan şair



**İndiyə qədər Vətəni, Vətən sevgisini tərənnüm edən yüzlərlə, minlərlə şeir yazılıb. Bu mövzuda qələm çalan şairlər doğma yurdlarına olan sevgilərini sözün qüdrətilə dolğun ifadə etməyə çalışıblar. Düşünüblər, daşınıblar və sonda ortalığa gələcək nəsillər üçün dəyərli əsərlər qoyublar. Qələmə alınan bu əsərlərin əksəriyyəti üstündən illər ötüb keçsə də, bədii dəyərlərini itirmir, dillər əzbəri olaraq qalır, ürəklərdən, qəlblərdən heç vaxt silinmir.**

Vətən mövzusunda yazılan əsərlərin içində daim sevilən, oxunan, daim əzbərlənən, heç vaxt dillərdən düşməyən, ürəklərdən silinməyən, qəlblərə əbədi sakinlik edən əsərlərdən biri və birincisi unudulmaz şair Abbas Səhhətin "Vətənimdir" şeiridir. Hələ məktəb illərindən "Vətəni sevməyən insan olmaz, olsa da ol kəsdə vicdan olmaz" misraları yaddaşımıza əbədi olaraq hopub. Ötən əsrin əvvəllərində yazılmasına baxmayaraq, görkəmli şair Abbas Səhhətin "Vətənimdir" şeiri bu gün də dillər əzbəridir. Çünki daim zamanla səsləşir, qəlblərə Vətən sevgisinin toxumlarını səpə-səpə üzü sabahlara doğru gedir.

Təəssüf ki, dəyərli əsərləri ilə qəlbləri fəth edən, ürəklərdə özünə əbədi yer edən şairin ömrü qısa və faciəli olmuşdur. Abbas Əliabbas oğlu Mehdizadə (Abbas Səhhət) 1874-cü ildə Şamaxıda ruhani ailəsində dünyaya göz açmışdı. 1900-cü ildə Tehran Universitetinin Tibb fakültəsini bitirmiş, göz həkimi ixtisasına yiyələnmişdi. Rus, ərəb, fars və fransız dillərini mükəmməl bilən gənc Abbas 1901-ci ildə Şamaxıya qayıtmışdı. Gələcəyin görkəmli şairi həkimlik etməklə yanaşı, məktəblərdə Azərbaycan dilindən dərs demişdir. Gələcək nəsillərə ana dilimizi, ədəbiyyatımızı tədris etmişdir.

Məktəblərdə dərs dediyi dövrdən etibarən Abbas Səhhət ədəbi fəaliyyətə başlayır. 1903-cü ildən məqalələri "Şərqi-Rus" qəzetində dərc olunur. 1905-ci ildə "Yeni poeziya necə olmalıdır?" adlı məqaləsi, daha sonra "Poetik nitq", "Azadlığa mədhiyyə", "Oyanışın səsi" şeirləri işıq üzü görür. "Yeni üslublu məktəblər" ideyasının yorulmaz müdafiəçisi olan Abbas Səhhət 1906-1907-ci illərdən görkəmli ictimai-siyasi xadim Əli bəy Hüseynzadənin banisi olduğu Azərbaycan romantik ədəbiyyatı cərəyanına qoşulur.

Şair tərcüməçilik fəaliyyəti ilə də çox ciddi şəkildə məşğul olur. Yaşadığı dövrün Azərbaycan oxucularını rus, fransız, alman şair və yazıçılarının əsərləri ilə tanış edir. 1912-ci ildə şairin öz şeirlərindən ibarət "Sınıq saz" və Avropa şairlərindən etdiyi tərcümələrdən ibarət "Qərb günəşi" adlı şeirlər toplusu işıq üzü görür. Bir qədər sonra "Əhmədin şücaəti" adlı poeması, 1916-cı ildə isə "Şair, muza və şəhərli" adında romantik poeması nəşr olunur.

Tədqiqatçılar qeyd edirlər ki, Abbas Səhhətin yaradıcılığına Şərqin böyük şairləri olan Nizaminin, Hafizin, Sədinin güclü təsiri olub. Şair türk xalqlarının ədəbiyyatları ilə də yaxından maraqlanıb. Daha çox Tofiq Fikrət yaradıcılığına xüsusi diqqət göstərib. Abbas Səhhət Azərbaycanda liberal burjuaziya ideyasını müdafiə edib, islam dəyərlərindən imtinaya qəti etirazını bildirərək, əsərlərində "ümummüsəlman qərbçiliyi" ideyasını dəstəkləyib. 1908-ci ildə baş vermiş İran inqilabına ən gözəl əsərlərini həsr edib. Şair həm də görkəmli Azərbaycan şairi Mirzə Ələkbər Sabirlə yaxın dost olub. Hər ikisinin Şamaxıda yaşaması bu dostluğun güclənməsində böyük rol oynayıb.

Azərbaycan xalqının bədii təfəkkürünə qüvvətli təsir göstərən Abbas Səhhət XX əsr şeirinə yeni xüsusiyyətlər gətirən görkəmli şairlərdəndir. O, ədəbiyyat və mədəniyyət tariximizə məşhur şair, peşəkar tərcüməçi, uşaq yazıçısı, həkim, görkəmli müəllim və maarif xadimi, tənqidçi və publisist kimi daxil olmuşdur. Köhnə dünyanın zülm və haqsızlıqlarına, ictimai bərabərsizliyə qarşı etiraz, azadlıq və mədəni intibah ideallarının tərənnümü, işıqlı gələcəyə çağırış A.Səhhətin həyat və yaradıcılığının ümumi mənasını, ideya-estetik məzmununu təşkil edir.

Sözün həqiqi mənasında "millilik" və "millət" anlayışı, "Ana dili və Vətən" məfhumu müasirləri və qələm dostları arasında məhz Abbas Səhhətin zəngin ədəbi irsində diqqətçəkən aydınlıq kəsb etmişdir. Öz "mən"inin obrazını özü yaradan, tərcümeyi-halına özü ayrıca şeir həsr edən Səhhətin yaradıcılığının əsas motivləri bəşəriyyətə məhəbbət, elmə meyil, sənətə pərəstişdir.

Abbas Səhhət 1918-ci ildə Gəncə şəhərində dünyasını dəyişib. Onun ölümünə səbəb, o dövrdə yazıldığı kimi, tək aclıq, səfalət və vəba xəstəliyi deyil, 1918-ci ildə bolşeviklərin törətdikləri qətliam idi. Ermənilərin 1918-ci ilin martın 31-dən aprelin 2-dək Bakıda törətdikləri qırğınlar Şamaxıda da təkrarlandı. Nəticədə 7 min dinc insan qətlə yetirildi, Şamaxı məscidinin içərisindəki insanlar diri-diri yandırıldı. Bu qanlı qırğınlar zamanı Abbas Səhhətin evinə də od vuruldu. Şair əlyazmalarını belə götürməyə macal tapmadı. Ailəsi ilə birgə pay-piyadə Gəncəyə üz tutdu. Ətrafında baş verən bu qanlı olaylardan psixoloji gərginlik keçirən, səfalət və yoxsulluğa düçar olan Abbas Səhhət 44 yaşında gözlərini əbədi olaraq yumdu. Gəncə şəhərindəki Sərbisgar qəbiristanlığında dəfn olundu.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Kukla teatrından Füzuli məktəblilərinə bayram töhfəsi

**Azərbaycan Dövlət Kukla Teatrının və "Oyuq" Müstəqil Teatrının kollektivləri Füzuli şəhərinə səfər ediblər. Teatrların Mətbuat xidmətlərindən verilən məlumata görə, yaradıcı kollektivlər mayın 27-də Füzuli şəhər Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin səhnəsində tamaşa və konsert proqramı ilə çıxış ediblər. Respublika Günü münasibətilə təşkil olunan səfər əsl bayram ovqatı yaradıb.**



Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyi, eləcə də həmin ərazilərdəki Bərpa, Tikinti və İdarəetmə Xidmətinin dəstəyi ilə baş tutan səfər dolğun və yaddaqalan olub.

Kuklaçılar Füzuli sakinləri qarşısında "Məlikməmməd" tamaşası, "Oyuq" Müstəqil Teatrının yetirmələri isə "Can Qarabağ" adlı rəngarəng konsert proqramı ilə çıxış ediblər.

Tamaşaçılar əvvəlcə Azərbaycan xalq nağılı əsasında yeni səhnələşdirmədə ərsəyə gələn "Məlikməmməd" tamaşasını izləyiblər.

Birhissəli uşaq tamaşasının quruluşçu rejissoru teatrın baş rejissoru Anar Məmmədov, quruluşçu rəssamı isə teatrın baş rəssamı İqbal Əliyevdir.

Rejissor bu klassik nümunəni İkinci Qarabağ müharibəsi, tarixi Zəfərimizlə əlaqələndirib və ona əlavələr edərək, fərqli prizmadan baxmağa çalışıb.

Səhnə əsərinin əsas məqsədi uşaq və yeniyetmələrə cəsarət, dürüstlük və mübarizlik aşılamaqdır.

Anşlaqla keçən nümayişin ardınca "Oyuq"çuların ifalarında hərbi-vətənpərvərlik, eləcə də Qarabağ, Zəfər mövzularında klassik və yeni mahnılar səslənib.

*Q.MƏMMƏDOV*

# Gəncədə "Musiqinin gücü" layihəsi təqdim edilib




**Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası ilk dəfə "Musiqinin gücü" adlı layihəni həyata keçirib.**

Filarmoniyadan bildirilib ki, tədbir çərçivəsində açıq havada vətəndaşların asudə vaxtlarını səmərəli keçirməsi məqsədilə konsert proqramı reallaşıb. Sahil Quliyevin bədii rəhbərliyi, baletmeyster Sənan Cavadovun quruluşu ilə "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının ifasında "Cəngi" rəqsi ifa olunub.

Həmçinin solistlər Zəminə Nuriyeva, Xəyal Əliyev, Şirxan Cahangirov, Rövşən Məmmədov, Əli Məmmədov, Azər Verdiyev, İlham Qasımov Əlibaba Məmmədovun "Mənim Azərbaycanım", Cahangir Cahangirovun "Cənnətim Qarabağ" və xalq mahnılarını səsləndiriblər.

● Yadigarlar

# Şuşa ədəbi məktəbinin nümayəndəsi

**XIX yüzilliyin istedadlı şairlərindən biri, Şuşa şəhərində yaşayıb yaratmış Mirzə Məhəmməd Katibin ədəbi irsi barədə müəyyən bilgilər əldə etdiyimizə görə onun əsərlərini köçürmüş görkəmli ziyalılarımız Əliabbas Müznib və Salman Mümtaza borcluyuq. Hər iki ədibin əlyazmaları hazırda AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.**



Bu barədə elmi tədqiqat ocağının böyük elmi işçisi Samirə Gəncəlinin "Şuşa ədəbi mühiti" məqaləsində maraqlı faktlarla rastlaşırıq. Ümumiyyətlə, onun haqqında geniş oxucu kütləsinə ilk məlumatı Əlyazmalar İnstitutunun mərhum əməkdaşı, filologiya elmləri namizədi Nəsrəddin Qarayev 1987-ci ildə "Yazıçı" nəşriyyatında çapdan çıxmış "Poetik məclislər" kitabında vermişdir. Həmin mənbəyə görə, 1833-cü ildə Şuşada anadan olmuş Mirzə Məhəmməd Məşədi Bayram oğlu Katib təhsilini də burada almış, şəhərdə fəaliyyət göstərən "Məclisi-fəramuşan"ın üzvü olmuşdur. Mirzə Fətəli Axundzadə ilə dost olduğu və məktublaşdığı da bildirilir.

M.M.Katibin bir neçə şeirini öz təzkirəsində çap etdirən Mir Mohsün Nəvvabın (1833-1918) yazdığına görə, şair Şuşanın Çuxur məhəlləsindəndir. Qəsidə, qəzəl, müxəmməs, mürəbbe, müstəzad və həcvlərdən ibarət yaradıcılığının ümumi həcmi təxminən iki min beytdir. Onun gözəl xəttat kimi tanındığını, bu sahədə diqqətəlayiq işlər gördüyünü vurğulayan Nəvvab mütəmadi yanına gəlib-getdiyini, hədsiz səmimi və sadəlövh, həm də savadlı bir adam olduğu barədə də yazır. Məhəmməd ağa Müctəhidzadə (1875-1956) "Riyazül-aşiqin" təzkirəsində Katibin bir neçə şeirini verməklə hicri tarixlə 1306-cı ildə (m.1888) vəfat etdiyini göstərir.

*Qaşın üstə xali-tirəndaz hindular kimi,*
*Yayə girmiş göz görə, istər ki, bir qan eyləsin.*
*Qaşların yayından ötrü qəddimi xəm qilmişam,*
*Tiri-ahim az qalıbdır, çərxi-viran eyləsin.*
*Yazmışam bir namə yarə, iltimasım vəsldir,*
*Katibi-zarəm, əlaci-dərdi-hicran eyləsin.*

Görkəmli ədəbiyyatşünas alim Salman Mümtaz "Ədəbiyyat qəzeti"nin 1935-ci il 12 aprel tarixli sayındakı "Mirzə Fətəli Səbuhi və Mirzə Məhəmməd Katib" məqaləsində Katib haqqında bir sıra məlumatlar vermişdir.

Əvvəldə deyildiyi kimi, Azərbaycan ədəbiyyatı tarixində böyük xidmətləri olan XX əsrin görkəmli ədəbiyyatşünası Əliabbas Müznib bir çox şair və yazıçı ilə yanaşı, 19-cu yüzilliyin istedadlı şairlərindən Mirzə Məhəmməd Katib haqqında da məqalə yazmış, əsərlərini toplayıb nəşrə hazırlamışdır. Araşdırmalarının bir çoxunu dövri mətbuatda çap etdirmişdir. Yazılarında bu qələm adamının şəxsiyyəti haqqında toplaya bildiyi məlumatları da verib. Onun Şuşada "Məclisi-üns" ədəbi məclisinin üzvü olduğunu göstərərək, digər müasirləri - Abdulla bəy Asi, Məhəmmədəli bəy Məxfi, Ağa Həsən, Mirzə Ələsgər Növrəslə müqayisə aparıb. Müznibə görə, öz müasirlərindən daha soyuqqanlı olduğu üçün Katib onların mübahisələrinə, məsələn, Natəvana və digərlərinə yazılan həcvlərə və bunlara verilən cavablara qarşı etinasız olmuşdur.

Mirzə Məhəmməd Katibin müasir oxuculara ilk dəfə təqdim olunan şeirləri də məhz Əliabbas Müznib və Salman Mümtazın topladığı əlyazmalardan götürülüb. Katibin şeirlərini sonuncu dəfə tədqiqatçı S.Gəncəli Şuşa nəşriyyatında çap etdirmişdir.

*Qurban MƏMMƏDOV*

# Neftçalada Məhəmməd Füzulinin 530 illik yubileyi qeyd olunub

**Neftçala Uşaq İncəsənət Məktəbində Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyi ilə bağlı tədbir keçirilib.**



Çıxış edənlər şairin Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutduğunu, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkar olduğunu qeyd ediblər. Bildirilib ki, hərtərəfli biliyə malik mütəfəkkir kimi Füzulinin həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətidir. Məhəmməd Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaradaraq Azərbaycan bədii dilini daha da zənginləşdirməklə onu yeni zirvəyə yüksəldib. Şairin parlaq dühasının təcəssümü olan və bu gün də sevilə-sevilə oxunan əsərləri yarandığı ilk vaxtlardan geniş coğrafiyada yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdır.

Tədbir boyu Şirvan-Salyan Regional Mədəniyyət İdarəsi əməkdaşlarının hazırladığı ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

*S.CAVADOV,*
*"Azərbaycan"*

# Filarmoniyada Fabio Andreotti ilə yay konsert mövsümünün təntənəli açılışı olub



**Azərbaycan Dövlət Akademik Filarmoniyasının yay zalında Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiətilə dünya opera səhnəsinin ulduzu - italyan tenor Fabio Andreottinin təqdimatında "Amore e passione" proqramının premyerası və yay konsert mövsümünün möhtəşəm açılışı olub. Konsert "Red events&Distribution" agentliyinin təşkilatçılığı ilə keçirilib.**

Ətirli qızılgüllərə qərq olunmuş səhnədə Cakomo Puççini, Georges Bize, Coachino Rossini, Jül Massenet və digər görkəmli bəstəkarların məşhur operalarından ariyalar, eləcə də valehedici Neapolitan mahnıları, eyni zamanda klassik Azərbaycan musiqisinin inciləri səsləndirilib.

Filarmoniyanın yay konsert mövsümü payıza qədər tanınmış sənətkarların və yeni istedadların çıxışları ilə tamaşaçıları sevindirəcək.




# Robotlar baş transplantasiyası əməliyyatı həyata keçirəcək

**Macarıstanın "BrainBridge" startapı tibb elmində yeni sərhədləri araşdırmaq və əvvəllər ağlasığmaz hesab edilən sahələrdə inqilab etməyi hədəfləyir. Şirkətin mütəxəssisləri 10 il ərzində robotların insan başının transplantasiyasını həyata keçirəcəyini bildiriblər.**



Layihənin məqsədi ölümcül və neyrodegenerativ xəstəliklərdən əziyyət çəkən xəstələrin başlarını sağlam donor bədənlərinə köçürməklə insanlara yeni həyat verməkdir. Əməliyyatın uğurlu keçməsi, baş və bədənin bir-birini "qəbul" etməsi üçün robototexnika, süni intellekt və real vaxt əsasında molekulyar səviyyəli görüntüləməyə ehtiyac var.

Hələ konseptual mərhələdə olan layihənin həyata keçməsi üçün şirkət transplantasiya sahəsindəki istedadlı mütəxəssis axtarışındadır. Bundan əlavə, "BrainBridge" bu mürəkkəb proseduru yerinə yetirə biləcək tam avtomatlaşdırılmış və robotlaşdırılmış sistem hazırlamağı hədəfləyir.

Bəhs edilən qəliz əməliyyat mürəkkəb etik suallar və rahatsızlıqlar doğurur. "BrainBridge" onların yanaşmasının ciddi elmi araşdırmalara əsaslandığını və ən yüksək etik standartlara riayət etdiyini vurğulayır.

# Votsapdan yenilik

**"Meta" şirkəti süni intellekti servislərinə inteqrasiya etməyə davam edir. Məlumata əsasən, Votsap tərtibatçıları messencer üçün süni zəka əsaslı yeni funksiya üzərində çalışırlar. Yeni funksiya istifadəçilərə süni intellekt vasitəsilə profil fotosu tərtib etməyə imkan verəcək.**




Sözügedən funksiya hazırlanma mərhələsində olduğu üçün hələ ki, yalnız messencerin beta test versiyasında aktivdir. Beləliklə, funksiya istifadəyə veriləndən sonra messencer istifadəçiyə onun profil fotoda nəyin əks olunmasını istədiyini mətn şəklində təsvir etməyi təklif edəcək. İstifadəçi öz növbəsində təsviri mətn şəklində qeyd edəndən sonra süni zəka sistemi fotonu tərtib edəcək.

# Daha bir xəstəyə beyin çipi implantasiya olunacaq




**"Neuralink" şirkəti bir müddət öncə beyin çipini ilk klinik testlər çərçivəsində iflic şəxsin beyninə implantasiya etmişdi. ABŞ-nin Qida və Dərman Keyfiyyətinə Nəzarət İdarəetməsi şirkətə beyin çipinin ikinci pasiyentə implantasiya icazəsini verib.**

"Neuralink"in beyin çipini əldə edən ilk xəstədə çipin çalışması ilə bağlı bəzi problemlər ortaya çıxmışdı. Belə ki, pasiyentin beyin qabığına yerləşdirilmiş çipin çalışmasında gecikmələr olurdu. Buna səbəb isə çip elektrodlarının yerdəyişməsi olub. Şirkət bu problemi aradan qaldırdıqdan sonra beyin çipinin ikinci implantasiya icazəsini əldə edib. Qeyd edilmiş problemin bir daha yaşanmaması üçün çip elektrodlarının beyin qabığının daha dərin hissəsinə yerləşdirilməsi planlaşdırılır.

Beyin çipi növbəti pasiyentə bu ay implantasiya ediləcək. "Neuralink" ilin sonuna qədər daha 10 xəstədə bu əməliyyatı həyata keçirəcəyi barədə məlumat verib.

# İlk QD-LED ekran paneli

**"Samsung" yeni məhsullarını təqdim edib. Bunlardan biri OLED ekran panellərini əvəz edəcək növbəti piksel texnologiyası olan QD-LED displeyləridir. Onlar QDEL kimi də tanınır.**




Yeni displey texnologiyası elektrik enerjisini birbaşa kvant nöqtələrinə tətbiq edərək LED və ya OLED ekran panellərinə olan ehtiyacı aradan qaldırır. Yeni məhsulun ən böyük üstünlüyü uyğun qiymətə, yüksək parlaqlığa və yanğına qarşı daha çox davamlılığa sahib olmasıdır.

Şirkət QD-LED-in daha yüksək rəng dəqiqliyinə sahib olduğunu bildirir. Tərkibində heç bir üzvi material olmadığı üçün yeni ekranlar zədələrə qarşı da davamlıdır. QD-LED panelləri həmçinin kadmiumsuz kvant nöqtələrindən istifadə edir. Buna görə də bu ekran panelləri ətraf mühitə daha az zərər vurur.

"Samsung"un yeni ekran paneli 18,2 düym böyüklüyə, 3200x1800 təsvir ölçüsünə və 250 nit parlaqlığa malikdir. Şirkətin yeni məhsulu 2025-2026-cı illərdə istehsal olunacaq.

# İlk süni zəka xəstəxanası



**Çində dünyanın ilk süni intellekt xəstəxanası fəaliyyətə başlayıb. Pekinin Tsinghua Universitetinin tədqiqatçıları tərəfindən hazırlanmış xəstəxana "Agent Hospital" adlanır. Xəstəxana 6 aylıq intensiv tədqiqatdan sonra istifadəyə hazır vəziyyətə gətirilib.**

Tədqiqat qrupunun rəhbəri Liu Yang bu süni intellekt xəstəxanasının həm səhiyyə işçiləri, həm də geniş ictimaiyyət üçün böyük faydalar təmin edəcəyini bildirib. Mütəxəssisin sözlərinə görə, süni intellekt həkimləri sayəsində səhiyyə daha sürətli, effektiv və əlçatan olacaq. Bəs bu süni intellektli həkimlər nə edə bilirlər?

Bu həkimlər ABŞ Tibbi Lisenziyalaşdırma İmtahanı suallarına əsaslanan müvəffəqiyyət dərəcəsi əldə ediblər. Onlar real həkimlərdən demək olar ki, fərqlənmirlər.

Başda tənəffüs xəstəlikləri olmaqla bir çox xəstəliyin diaqnoz və müalicəsini simulyasiya edə bilən süni intellektli həkimlər konsultasiya, müayinə, diaqnostika, müalicə proseslərini öz üzərinə götürə bilirlər.

"Agent Hospital" Tibb fakültəsi tələbələri üçün də gözəl imkanlar təqdim edir. Əsl xəstələrə zərər vermək qorxusu olmadan onları müalicə etmək tələbələrə təcrübə qazanmağa imkan verəcək. Süni intellekt texnologiyası əhali üçün də yüksəkkeyfiyyətli, sərfəli və əlçatan səhiyyə xidmətləri göstərməyi hədəfləyir.

# "Honor"un növbəti smartfon seriyası

**"Honor" şirkəti yeni smartfon seriyası üzərində çalışır. Söhbət "Honor X60"dan gedir. O, "Honor X50" smartfon seriyasının davamçısı olacaq və özündə bir neçə modeli birləşdirəcək.**



Bildirilib ki, "Honor X60" kənarları əyilmiş dizaynda hazırlanmış ekranı əldə edəcək. Adətən bu cür ekran dizaynına flaqman smartfonlarda rast gəlinir. Buna görə də çox güman ki, "Honor X50" kimi, "Honor X60" da münasib satış qiymətinə sahib subflaqman smartfon rolunda çıxış edəcək. Bununla yanaşı, məlumatda qeyd edilib ki, yeni smartfonlar böyükhəcmli batareya əldə edəcək və onların gövdəsi daha dözümlü olacaq.

"Honor X60" seriyasının ilin ikinci yarısında təqdim olunacağı gözlənilir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
İlham Əliyevə qlobal dəstək artır
Azərbaycan Prezidentinin COP29-la bağlı təklif və təşəbbüsləri təqdir edilir
Onlar artıq köçkün uşaqlar deyillər
Kanakların müstəqillik arzusu
Yeni Kaledoniyada baş verən iğtişaşlar Makronun qərəzli və inadkar siyasi manevrlərinin nəticəsidir
Kolonializm tarixinin qanlı cinayətlərinin çoxu Fransa tərəfindən törədilib
Laçın şəhərinə yeni köç
Bakı Enerji Həftəsi bizi COP29-a bir addım da yaxınlaşdıracaq
Bu tədbirin proqramında ekologiya əsas mövzulardandır
Donald Tramp bütün ittihamlar üzrə təqsirli bilinib
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 04.06.2024-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Füzulidə şəhid uşaqları üçün bayram şənliyi

**Füzuli rayonunda 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmiş "Bayramınız mübarək, əziz şəhid uşaqları!" adlı tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Füzuli Dövlət Dram Teatrında keçirilən tədbirdə rayon icra hakimiyyətinin nümayəndələri, şəhid ailələri və şəhid uşaqları iştirak ediblər.

Tədbirdə Dövlət himni səsləndirilib və şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Çıxış edənlər ölkəmizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət uşaq siyasətinin hazırda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilməsindən, həssas təbəqədən olan ailələrin və uşaqların daim dövlətin diqqət mərkəzində olmasından bəhs ediblər. Şanlı ordumuzun Vətən müharibəsi və antiterror əməliyyatları nəticəsində qazandığı böyük Zəfərdən söz açılıb. Şəhid övladları 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik edilib, onlara gələcək həyatlarında və təhsillərində uğurlar arzulanıb.

"Uşaqlar gələcəyimizdir" adlı videoçarxın nümayişindən sonra Füzuli Dövlət Dram Teatrının kollektivinin hazırladığı musiqili proqram təqdim olunub. Şəhid övladlarına bayram hədiyyəsi təqdim olunub.

# Cocuq Mərcanlıda Uşaqların Beynəlxalq Müdafiəsi Günü qeyd olunub

**Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə bayram tədbiri keçirilib.**



AZƏRTAC xəbər verir ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin və Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycan Dövlət Kukla Teatrının təmsilçiləri və "Oyuq" Uşaq Teatrının yetirmələri maraqlı proqramla çıxış ediblər.

Teatrın repertuarındakı "Cırtdan" və "Qırmızıpapaq" tamaşalarından səhnəciklər, eləcə də istedadlı balaca ifaçıların təqdimatında vətənpərvər ruhlu nəğmələr balacalara xoş anlar bəxş edib. Böyük coşqu ilə keçən tədbirdə balacalara hədiyyələr paylanılıb.

# Zəngilan, Cəbrayıl və Füzulidə 350-yə yaxın uşaq tibbi müayinədən keçib

**Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə iyunun 1-də nazirliyin K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun həkim briqadası Füzuli şəhəri, Zəngilan rayonunun Ağalı kəndi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində uşaqlar üçün tibbi müayinələr təşkil edib.**



AZƏRTAC xəbər verir ki, işğaldan azad olunan ərazilərə "Böyük qayıdış" proqramı çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən davamlı olaraq təşkil olunan tədbirlərdə əhali arasında tibbi xidmətə əlçatanlığın təmin olunması və ilkin səhiyyə xidmətinin təkmilləşdirilməsi məqsədilə kompleks tibbi müayinələr və sağlamlığın təşviqi istiqamətində maarifləndirici aksiyalar keçirilir. 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təşkil olunan aksiya çərçivəsində Elmi-Tədqiqat Pediatriya İnstitutunun pediatr, uşaq cərrahı, kardioloq, nevroloq və oftalmoloqları tərəfindən uşaqlara yerində profilaktik baxışlar keçirilib və müvafiq müalicələr təyin edilib.

Tədbirdə 350-ə yaxın, o cümlədən Zəngilanda 200-ə yaxın, Cəbrayılda 100-ə yaxın və Füzulidə 50 uşaq həkimlər tərəfindən ümumi müayinədən keçib.

Bundan başqa, xəstəlikləri aşkarlanan uşaqların sonrakı mərhələdə müalicəsi üçün göndərişlər verilib. Müayinələrdən sonra peyvəndləmənin əhəmiyyəti və ana südündən əlavə qidalanmanın qaydaları haqqında Zəngilan və Cəbrayıl ictimaiyyəti üçün maarifləndirici tədbir təşkil olunub. Elmi-Tədqiqat Pediatriya İnstitutunun həkim pediatrları Gülnaz Ağayeva və Günay Salehova ətraflı təqdimatlarla çıxış ediblər. Həkim-pediatrlar valideynlərə tövsiyələrini veriblər, onları maraqlandıran sualları cavablandırıblar.

Sonda Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə hədiyyələr təqdim edilib.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4406
Sifariş 1179

Qiyməti 60 qəpik